*Səyyad Məcidli*

# SÜLH VƏ TƏHLÜKƏSİZ YAŞAMAQ HÜQUQU

Kitabda sülh və təhlükəsiz yaşamaq hüququnun təminatının beynəlxalq hüquqi məsələləri təhlil olunub. Elektron kitabda həmçinin Cənubi Qafqazda sülhün və təhlükəsiz yaşamaq hüququnun təminatı ilə bağlı bəzi zəruri məqamlara toxunulur.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

Avropaya İnteqrasiya Mərkəzi

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə “Təhlükəsiz yaşamaq hüququnun təminatı” layihəsi çərçivəsində nəşr edilmişdir. Kitabın məzmununda əks olunan fikir və mülahizələr müəllifə aiddir və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəsmi mövqeyini əks etdirməyə bilər.

**Məcidli S.T. Sülh və təhlükəsiz yaşamaq hüququ. Elektron tədris vəsaiti. Bakı: 2024. 260 səh.**

**Elmi redaktor:** hüquq üzrə elmlər doktoru M. P. Əsgərova

**Rəyçi:** hüquq üzrə elmlər doktoru V. Ə. Əhmədov

**©S.T.Məcidli - 2024**

## KİTABIN İÇİNDƏKİLƏR

**GİRİŞ........................................................5-14**

**I FƏSIL. SÜLH HÜQUQU VƏ TƏHLÜKƏSİZ YAŞAMAQ HÜQUQUNUN TƏMİNATI ÜZRƏ BEYNƏLXALQ TƏNZİMETMƏ....................14**

1.1. Sülh hüququnun mahiyyəti, elementləri və insan hüquqları sistemində mövqeyi..................14

1.2. Təhlükəsiz yaşamaq hüququnun məzmununa fəlsəfi və hüquqi yanaşma.................................40

1.3. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlar və beynəlxalq hüquqi normalar................................................61

**II FƏSİL. SÜLH HÜQUQU VƏ TƏHLÜKƏSİZ YAŞAMAQ HÜQUQUNUN TƏMİNATI ÜZRƏ MİLLİ TƏCRÜBƏ: BEYNƏLXALQ NORMALARA İMPLEMENTASİYA..........77**

2.1. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı digər insan hüquqlarının realizəsi üçün vacib şərt kimi................................................77

2.2. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə milli təcrübə: cari vəziyyət və mövcud problemlər............................................92
**III FƏSİL. CƏNUBİ QAFQAZDA SÜLH PROSESİNİN BEYNƏLXALQ HÜQUQİ MƏSƏLƏLƏRİ...............................................109**
3.1. Cənubi Qafqazda sülh prosesinə təsir edən amillər.......................................................109
3.2. Regionda törədilən transmilli cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləri.................114
**IV FƏSİL. SÜLH ƏLEYHİNƏ CİNAYƏTLƏR.**
4.1. Sülh əleyhinə cinayətlərin anlayışı və təsnifatı.......................................................140
4.2. Sülh və təhlükəsizlik əleyhinə cinayətlər (təcavüz, genosid, terror, müharibə cinayətləri)..156
**NƏTİCƏ.......................................................215**
**ƏLAVƏLƏR................................................224**
**ƏDƏBİYYAT...........................................252-260**

# GİRİŞ

XX əsrin 2-ci yarısından etibarən bütün dünyada sülhün və təhlükəsizliyin təminatının, insan hüquqlarının müdafiəsinin yeni dalğası başlandı. Müharibələr, siyasi kataklizmlər, iqtisadi və politik qarşıdurmalar, qütbləşmə sülhün təminatının və insanların təhlükəsiz yaşamaq haqqının tanınmasını zəruri etdi. Əlbəttə, bu hüquqların təminat mexanizlərinin və bununla əlaqədar hüquqi tendensiyaların beynəlxalq hüquq tarixində inkişaf dinamikası tədricən formalaşmış, əsasən siyasi şəraitdən asılı olaraq bərqərar olmağa başlamışdır. Bu istiqamətdə ən mühüm hüquqi müddəalar 1948-ci il Universal İnsan hüquqları Bəyannaməsində, daha sonra 1950-ci il İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, 1966-cı il Mülki və Siyasi hüquqlar haqqında və Sosial-iqtisadi və mədəni

hüquqlar haqqında paktlarda və digər beynəlxalq hüquqi sənədlərdə təsbit olunmuşdur. Bu sənədlər, eyni zamanda digər regional konvensiyalar ümumi şəkildə mülki və siyasi hüquqlar, ABŞ və digər Qərb ölkələrinin milli konstitusion normaları ilə müəyyən olunmuş birinci nəsil hüquqları, rifah dövlətinin bərqərar olunması ilə əlaqədar iqtisadi və sosial hüquqları özündə ehtiva edən "ikinci nəsil"hüquqları bəyan etmişdir.

Beynəlxalq hüququn inkişafına uyğun olaraq, daha sonra bəşəriyyətin sosial ehtiyac hiss etdiyi yeni nəsil hüquqlar beynəlxalq və milli hüquq müstəvisinə daxil olmağa başlamışdır. Bu hüquqlar müxtəlif ədəbiyyatlarda təxminən eyni terminlərlə - solidar hüquqlar (həmrəylik hüquqları) və ya "əlavə nəsil" hüquqları adlandırılmağa başladı. Bu hüquqlara sülh hüququ, inkişaf hüququ, səhiyyə və ya tibb hüququ, təbii resurslar üzərində daimi sahiblik hüququ və digər ümumi kütləvi mahiyyətli haqlar aid edilmişdir.

Qeyd olunan hüquqların fəlsəfi-hüquqi mahiyyəti ondan ibarətdir ki, bəzən bəşər cəmiyyəti hər bir insanın hüquqlarının həyata keçirilməsinin ən yüksək formada təmin olunması kontekstində fərdi olaraq nail ola bilmədiyi problemləri daha çox kollektiv cəhdlərlə və ya həmrəylik nümayiş etdirməklə aradan qaldıra bilərlər. Bu səbəbdən də, amerikalı professor Diane F. Orentliçer yazırdı ki, "Ümimi şəkildə bu əlavə nəsil hüquqlar fərdiçilik üçün yox, cəmiyyət və ya digər qruplar, bu cəmiyyət və qrupların üzvləri kimi fərdlər üçün tələb olunur". Yəni, əslində buradan belə başa düşülür ki, bu hüquqların fəlsəfi-hüquqi mahiyyəti bilavasitə fərdlərə deyil, toplumun haqlarının təminatına yönəlmişdir. Çünki elə hüquqlar vardır ki, fərd ona təkbaşına sahib ola bilməz, bunun üçün fərdin cəmiyyətin digər üzvləri ilə birgə bu hüquqa yiyələnməsi zərurdir. Məhz buna görə də bu kateqoriya hüquqları həmrəylik hüquqları adlandırmışlar. Bu hüquqlardan sülh hüququ daha

çox kollektiv hüquqlar dairəsinə aid edilir. Təhlükəsiz yaşamaq hüququ ilə bağlı isə məsələ hüquq elmində və praktikasında heç də birmənalı qəbul edilmir. Bu daha çox şəxsi hüquqlar sferasına aid edilən hüquqlardan hesab edilir. Lakin hər iki hüququn özünəməxsus elə mühüm xüsusiyyətləri vardır ki, onlar arasında balansyaratma və ortaq məqamların özünü büruzə verməsi mümkündür. Bu səbəbdən də, biz bu tədqiqat işində sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun elmi və praktiki baxımdan oxşar və fərqli cəhətlərini müəyyən etməyə, milli və beynəlxalq hüquq kontekstində bu iki insan hüququnun müqayisəli hüquqi təhlilini aparmağa çalışacağıq.

Müasir beynəlxalq hüquq çoxsahəli və çoxcəhətli olduğu üçün sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun elmi və praktiki təhlilini apararkən biz sülhə və təhlükəsizliyə xələl gətirən hallar, o cümlədən beynəlxalq cinayətlər, habelə

digər insan hüquq və azadlıqlarının da bu hüquqlarla qarşılıqlı əlaqələrini müəyyən edəcəyik.

Qeyd olunan mövzunun aktuallığı onunla şərtləşir ki, bu gün bütün dünyanı narahat edən müharibələr, təcavüzkar müdaxilələr və ərazi iddiaları, terror təhlükələri və bunlardan heç də geri qalmayan müxtəlif formalı epidemiyaların artması insanlar arasında sülhün və əmin-amanlığın qorunmasını, habelə hər bir fərdin təhlükəsiz yaşamaq hüququnun təminatını zəruri etmişdir. Xüsusilə qeyd etmək lazımdır ki, hal-hazırda bütün dünyanı sarsıdan müharibələrlə əlaqədar olaraq, sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı məsələləri öz aktuallığını bir daha nümayiş etdirir və bu sahədə beynəlxalq tənzimetmənin vacibliyini sübut edir.

Nəhayət, bu gün Azərbaycan Respublikasını narahat edən məsələlərdən biri kimi Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin, o cümlədən təcavüzün nəticələrinin,

işğaldan azad olunmuş ərazilərimizdə mina təhlükələrinin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləri ilə bağlı mühüm məsələlərin diqqət mərkəzində saxlanılması bu tədqiqatın əsas məqsədlərindən biri kimi çıxış edir.

Kitab giriş, 3 fəsil, 6 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Kitabın I fəslində sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq tənzimetmə məsələlərinə toxunulur. Bu fəslin 1-ci paraqrafında sülh hüququnun mahiyyəti, elementləri və insan hüquqları sistemində mövqeyinə dair müxtəlif hüquq sistemləri, milli və beynəlxalq hüquqi mənbələrdə nəzərdə tutulan konseptual və normativ-hüquqi məqamlar araşdırılır.

"Təhlükəsiz yaşamaq hüququnun məzmununa fəlsəfi və hüquqi yanaşma" adlı 2-ci paraqrafda isə

əsas insan hüquqları kateqoriyasına aid olan hüquq kimi təhlükəsiz yaşamaq hüququ ətraflı şərh olunur.

3-cü paraqrafda isə sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlar və beynəlxalq hüquqi normalara dair məsələlər öz əksini tapmışdır.

Vəsaitin II fəsili “Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə milli təcrübə: beynəlxalq normalara implementasiya” adlanır və daha çox burada sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun milli və beynəlxalq hüquqda həyata keçirilməsinin praktiki elementlərinə aydınlıq gətirilir.

II fəslin 1-ci paraqrafı sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun digər insan hüquqlarının realizəsi üçün əhəmiyyətindən bəhs edir və bu hüquqların qarşılıqlı əlaqə və asılılığını diqqətdə saxlayır.

Bu fəslin 2-ci paraqrafında isə sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə milli

təcrübə öyrənilir, o cümlədən bu hüquqların təminatı ilə bağlı respublikamızda cari vəziyyət və mövcud problemlər araşdırılır.

Kitabın III fəsli Cənubi Qafqazda sülh prosesinə təsir edən amillərdən bəhs edir. Bu fəsil ölkəmiz üçün vacib əhəmiyyət kəsb edən məsələyə - Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətlərinə həsr olunmuşdur ki, burada da Ermənistanın törətdiyi cinayətlərin beynəlxalq hüquqi, o cümlədən sülh və təhlükəsiz yaşamaq hüququ üçün nəticələri şərh edilmişdir.

IV fəsil isə Sülh əleyhinə cinayətlərin anlayışı və təsnifatına, habelə Sülh və təhlükəsizlik əleyhinə cinayətlərin növləri olan təcavüz, genosid, terror, müharibə cinayətlərinin araşdırılmasına həsr edilib.

Bu vəsait ümilikdə sülh və təhlükəsizlik hüququnun nəzəri əsasları, inteqrasiya və qlobal

dəyişikliklər nəzərə alınmaqla habelə Cənubi Qafqazda sülh və təhlükəsiz yaşam haqqının təminatı problemlərinin araşdırılması ilə bağlı mühüm tədqiqatdır. Qeyd olunan problemlər üzrə kitabda bir sıra tövsiyə və təkliflər irəli sürülmuşdür.

Kitabın ərsəyə gəlməsində Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə, Avropaya İnteqrasiya Mərkəzinə və əməyi keçən hər kəsə dərin minnətdarlığımızı bildiririk.

# I FƏSİL

# SÜLH HÜQUQU VƏ TƏHLÜKƏSİZ YAŞAMAQ HÜQUQUNUN TƏMİNATI ÜZRƏ BEYNƏLXALQ TƏNZİMETMƏ

*1.1. Sülh hüququnun mahiyyəti, elementləri və insan hüquqları sistemində mövqeyi*

*1.2. Təhlükəsiz yaşamaq hüququnun məzmununa fəlsəfi və hüquqi yanaşma*

*1.3. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlar və beynəlxalq hüquqi normalar*

## 1.1. Sülh hüququnun mahiyyəti, elementləri və insan hüquqları sistemində mövqeyi

Müasir beynəlxalq hüquqda insan hüquqları və azadlıqlarının sistemi özünün iyerarxiyası və təminolunma mexanizmləri, habelə beynəlxalq hüquqi tənzimetmə texnologiyaları baxımından olduqca çoxsaxəli və mürəkkəb bir sistemdir. Solidar hüquqların mühüm elementini təşkil edən sülh hüququnun mahiyyəti, elementləri və bu

hüququn insan hüquqları sistemində mövqeyi, yeri və rolu tarixən bəşəriyyəti düşündürən fundamental problemlərdən biri hesab edilmişdir. Çünki, istər cəmiyyətlərdaxili, istərsə də, dövlətlərarası sülhün və əmin-amanlığın, hətta ayrı-ayrı fərdlərin təhlükəsizliyinin təminatı hər zaman dövlətlərin daxili iddiaları, zorakılıq və işğalçılıq meyilləri, habelə təcavüzkar niyyətləri ilə bilavasitə əlaqədar olmuşdur.

Sülhün bərqərar olunması ilə bağlı dövlətlərin zaman-zaman göstərdiyi səylər, onların kompromis variantlar axtarışı sonda sülh hüququnun fundamental hüquq kimi beynəlxalq hüquqda da təsbit edilməsi ilə nəticələnmişdir. Burada xüsusi bir məqamı da vurğulamaq lazımdır ki, əslində sülh hüququ insan hüquqları sistemində yer alan digər hüquqlar və azadlıqlar kimi dövlətdaxili hüququn məhsulu olmuşdur. Onun fəlsəfi-hüquqi mahiyyətinə ilk dəfə konseptual

olaraq məhz milli hüquq sistemlərində yanaşılmışdır.

Bu mənada Azərbaycanın hüquq tarixində qeyd olunan məsələyə münasibətdə mühüm hüquqi müddəalar da diqqəti cəlb edir. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Xalq Cümhuriyyəti bir çox dünya dövlətlərinin hüquq sistemlərinə sülh hüququnun normativ qaydada təsbit olunması kontekstində nümunə ola bilər. Ümumiyyətlə, sülh hüququnun azadlıq, bərabərlik və heç bir ayrı-seçkiliyə yol verilmədən insanların müqəddəs hüququ kimi bəyan edilməsi ilə bağlı tendensiya Azərbaycan tarixində qədim köklərə söykənsə də, qeyd etmək istərdik ki, bu hüquqlar hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində qəbul olunmuş İstiqlal Bəyannaməsində[1] öz əksini tapmışdır. Həmin Bəyannamədə Azərbaycanın tamhüquqlu və müstəqil dövlət olması, ali

---

[1] İstiqlal Bəyannaməsi, https://azerbaijan.az

hakimiyyətin Azərbaycan xalqına məxsusluğu, bütün vətəndaşlara heç bir əlamətə görə ayrı-seçkilik olmadan vətəndaşlıq və siyasi hüquqlar verilməsi, beynəlxalq birliyin üzvləri ilə, xüsusən həmsərhəd dövlətlərlə sülh və dostluq əlaqəsinin qurulması və bütün xalqların sərbəst inkişafına şəraitin yaradılması təsbit olunmuşdur.

Bundan əlavə, bir sıra xarici dövlətlərin də milli qanunvericiliklərində və Konstitusiyalarında sülh və təhlükəsiz yaşamaq hüququ ilə bağlı müddəalar mövcuddur. Məsələn, sülh hüququ haqqında ilkin müddəalar 3 Noyabr 1946-cı il tarixində qəbul edilmiş və 3 May 1947-ci ildə qüvvəyə minmiş Yaponiya Konstitusiyasının preambulasında qeyd edilmişdir. Orada bildirilir ki, Yapon xalqı "dünyanın bütün xalqlarının qorxu və natamamlıq hissi keçirmədən sülh içində yaşamaq hüququna sahibdir". Yaponiya Konstitusiyasının 9-cu maddəsi isə "millətin suveren hüququ olaraq müharibədən və beynəlxalq mübahisələrin həlli

vasitəsi olaraq güc tətbiq edilməsi və güc hədəsindən əbədi imtina" edilməsini təsbit etmişdir. [2] Lakin, dünya ölkələrindən sülh hüququnun mahiyyətini hüquqi cəhətdən ən yaxşı formada Kolumbiya Konstitusiyası göstərmişdir. Bu ölkənin 6 iyul 1991-ci ildə qəbul edilmiş Konstitusiyasının 22-ci maddəsində sülh "həm hüquq, həm də ona uyğun bir məcburi vəzifə kimi"[3] ifadə edilir.

Qeyd olunmalıdır ki, yuxarıda qeyd olunan mövqelər, yəni istər müharibədən millətin və dövlətin süveren hüququ kimi imtina edilməsi, eyni zamanda sülhün həm fundamental insan hüququ kimi, həm də vəzifə kimi milli qanunvericilik

---

[2] Japan's Constitution of 1946, https://www.constituteproject.org

[3] Colombia's Constitution of1991 with Amendmentsthrough 2005, https://www.constituteproject.org/constitution/Colombia_2005.pdf

sistemlərində təsbit edilməsi bu hüququn mütərəqqi inkişafına zəmin ayradan amillədən hesab edilməlidir.

Beynəlxalq hüquqi kontekstdə isə sülh hüququ ilə bağlı müddəalar II Dünya müharibəsindən sonrakı dövrə təsadüf edir. Dövlətlər arasında sülh və əmin-amanlıq öz normativ hüquqi əsasını 1945-ci il Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsindən götürür. BMT Nizamnaməsinin preambulası gələcək nəsilləri, həyatımızda iki dəfə bəşəriyyətə sözlə deyilə bilməyən bəlalar gətirmiş müharibənin müsibətlərindən xilas etmək və əsas insan hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə, kişi və qadınların, böyük və kiçik millətlərin hüquq bərabərliyinə inamı yenidən təsdiq etmək, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq üçün öz gücümüzü birləşdirmək kimi ümdə məsələlərə əsaslanmaqla bu mühüm sənədin 1-ci maddəsində “beynəlxalq sülhü və

təhlükəsizliyi qoruyub saxlamaq və bu məqsədlə: sülhə təhlükənin qarşısını almaq və aradan qaldırmaq üçün və təcavüz aktlarının və digər sülhün pozulması hallarını aradan qaldırmaq üçün səmərəli kollektiv tədbirlər görmək və sülhün pozulmasına gətirib çıxara bilən beynəlxalq mübahisə və situasiyaların dinc vasitələrlə, ədalət və beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq nizamlanmasına və ya həll olunmasına müvəffəq olmağı”[4] BMT-nin əsas məqsədlərindən biri və birincisi kimi müəyyən etmişdir.

Professor Luis Henkin qeyd edirdi ki, “beynəlxalq hüquq əsasında sülh naminə publik hüquqlar dövlət hakimiyyətinin qorunması üçün deyil, öz cəmiyyətinin və öz sakinlərinin ən dərin dəyərlərini təmin etmək üçün nəzərdə tutulmuşdur. Əlbəttə ki, insan ləyaqəti şəxslərin vəhşət və

---

[4] Charter of the United Nations, https://www.un.org/en/charter-united-nations/

müharibəyə məruz qalmamasını təmin edir”. [5] Professorun fikirlərinə şərik olaraq, qeyd etməliyik ki, beynəlxalq hüquq sülh hüququnu insan hüquqları sisteminə ona görə daxil edib ki, bu hüquqdan dövlətlər deyil, bilavasitə cəmiyyət və dolayısı ilə məhz fərdlər faydalansın. Ona görə də biz insan hüquqları sistemində sülh hüququnun rolunun və əhəmiyyətinin nə qədər geniş, əhatəli və zəruri olduğunun fərqində olmalıyıq.

Göründüyü kimi, insan ləyaqətinin qorunması, cəmiyyətdə insan haqlarının real təminatı üçün sülh hüququnun mövcudluğu mühüm şərt kimi çıxış edir. Əslində beynəlxalq hüquq nöqteyi-nəzərindən sülh hüququnun mahiyyətinə yanaşsaq, bu hüquq olmadan, bu hüququn normativ əsası formalaşdırılmadan digər insan hüquqlarının –

---

[5] Luis Henkin, Gerald L. Numan, Diane F.Orentliçer, David V. Libron. İnsan hüquqları. Bakı, “Adiloğlu”nəşriyyatı, 2008, səh. 499. (1232 s.)

mülki və siyasi hüquqların və azadlıqların təminatı qeyri-mümkündür. Geniş anlamda beynəlxalq sistem sülh hüququnu təmin edə bilməzsə, fərdi insan hüququ əlbəttə, faydasız və mənasız görünər. Məhz ona görə də, 1948-ci il Universal İnsan hüquqları Bəyannaməsinin 28-ci maddəsində "Hər bir şəxsin bu Bəyannamədə qeyd olunmuş hüquq və azadlıqlar çərçivəsində ictimai və beynəlxalq qaydada tam yaşamaq hüququ vardır" müddəası təsbit edilmişdir.

İnsan hüquqları sistemində sülh hüququ "üçüncü nəsil" hüquqlardan hesab edilir. Yuxarıda qeyd olunğu kimi, birinci nəsil hüquqlar siyasi və mülki hüquqlar, ikinci nəsil hüquqlar iqtisadi, sosial və mədəni hüquqlar, üçüncü nəsil və ya "digər nəsil hüquqlar"a isə sülh hüququ, inkişaf hüququ və s. kimi şərti bölgüdən istifadə edilir. Lakin, biz kitabın bu paraqrafında insan hüquqları sistemində üçüncü nəsil hüquqlar sırasına daxil olan sülh

hüququnun mahiyyətini və rolunu aydınlaşdırmağa çalışacağıq.

İlk növbədə qeyd etmək lazımdır ki, sülh hüququ universal və solidar hüquqdur. Bu o deməkdir ki, bu hüququn təminatı bütün bəşəriyyətin qeyd olunan prosesə aktiv müdaxiləsi ilə mümkün ola bilər. Bir dövlət təkbaşına bu hüququ reallaşdırsa belə, bu heç bir beynəlxalq əhəmiyyət kəsb etməyəcək və nəticə effektiv olmayacaqdır. Məhz bu səbəbdən də sülh hüququ solidar hüquqlar, yəni həmrəylik hüquqları kateqoriyasına aid edilir.

Sülh hüququ insan hüquqlarının iyerarxiyasında baza hüquqlardan sayılır. Çünki, sülh huququnun təminatına nail olmadan, məsələn yaşamaq hüququ, azadlıq hüququ, işgəncələrə məruz qalmamaq hüququ kimi fərdi hüquqların təminatından söhbət belə gedə bilməz. Ona görə də tam əminliklə demək olar ki, sülh hüququ insan

hüquqları sistemində önəmli rola malikdir və bu hüququ açar hüquqlardan saymaq olar.

Həmçinin, bu məsələyə əks tərəfdən yanaşsaq qeyd olunmalıdır ki, sülh naminə də fərdi hüquqlar qurban verilə bilməz. Yəni, dövlət ümumi sülhün bərqərar olunması üçün insan hüquq və azadlıqları, insan ləyaqəti kimi bəşəri dəyərləri inkar edə bilməz. İnsan hüquqları sistemində bir çox hallarda kollektiv hüquqlarla fərdi hüquqların konfrantasiyada olma ehtimalı da mövcuddur. Məsələn, xalqların özünütəyinetmə hüquqları və ya cəmiyyətin inkişaf hüququ ilə sülh hüququnun, habelə qeyd olunan hüquqların hər biri ilə fərdi hüquqların təminatı məsələlərində də birmənalı mövqe əldə edilməsi asan olmaya bilər. Ona görə də qətiyyətlə söyləmək olar ki, insan hüquqları sistemində sülh hüququnun mahiyyətinin başa düşülməsi ilk növbədə bu hüququn benefisiarlarından asılı olacaqdır. Sülh hüququnun faydası əslində dolayısı ilə elə daha çox fərdlərə

yönəlmişdir. Bu mənada fərdi insan huquqları konsepsiyası ilə solidar hüquq olaraq sülh hüququnun ortaq cəhətlərini görməmək mümkün deyil.

Fərdlərin və xalqların sülh hüququ dilemması müasir beynəlxalq hüququ narahat edən problemlərdən biridir. Bu məsələ BMT-nin İnsan Hüquqları Şurasının Məşvərət Komitəsi tərəfindən hazırlanmış Sülh hüququ haqqında bəyannamə layihəsində müzakirəyə çıxarılmış, daha sonra BMT-nin Sülh hüququ haqqında Bəyannaməsinin qəbul edilməsinə nail olmağa yönəlmiş mütərəqqi danışıqların predmeti olmuşdur. Bu məqama qədər aralarında hələ də ciddi fərqlərin olmasına baxmayaraq, dövlətlər ümumiyyətlə, sülhü təşviq etmək üçün ortaq mövqelər haqqında razılığa gəlmişlər. Beynəlxalq hüquqi perspektivdən yanaşsaq, ilk növbədə Layihənin 14-cü maddəsi ən mübahisəli məsələlərdən biri kimi çıxış etmişdir. Orada qeyd olunurdu ki, “Fərdlərin və xalqların

sülh hüququ vardır”. Yəni bu sənəd eyni hüququ həm fərdə, həm də xalqlara şamil etmək istəyini ortaya qoydu və təbii ki, buna nail olundu. Bununla əlaqədar həm elmi, həm də siyasi-hüquqi dairələrdə sülh hüququnun anlayışı və mahiyyəti ilə bağlı mübahisələrin davam etməsi təbiidir. İnsan Hüquqları Şurasının prezidenti, Remiqus Açilles Henzel bildirmişdir ki, “ayrıca hüquq olaraq sülh hüququ anlayışı ilə bağlı konsensus yoxdur və Bəyannamə Layihəsinin bir neçə müddəası gərgin müzakirələrin və danışıqların predmeti olacaq”.[6]

Qeyd edək ki, 2017-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş bu sənəd son illərdə sülh hüququnun insan hüquqları sistemində rolunu müəyyən edən mühüm sənədlərdən biri hesab edilə bilər. Sənədin əhatə dairəsi genişdir, xüsusilə buraya güc tətbiqinin və

[6] The right to peace, https://www.ohchr.org/EN/NewsEvents/Pages/RightToPeace.aspx

ya güclə hədələmənin qadağan edilməsi; hərbi xidmətə vicdanlı etiraz; sülh naminə nümayiş etmək hüququ; hərbçilərin hesabatlılığı; sülhməramlılıq; inkişaf hüququ; təhlükəsiz, təmiz və dinc mühit hüququ və qurbanların hüquqları aid edilmişdir.

Eyni zamanda, bu sənəddə sülh hüququnun təmin edilməsinə xələl gətirən hüquqazidd əməllərə də toxunulur. Bəyannamə dövlətlərdən "silah alverinə ciddi və şəffaf nəzarət edilməsini, habelə qanunsuz silah alveri ilə mübarizədə fəal iştirak olunmasını" tələb edir. Bundan əlavə qeyd olunan sənəd sülh hüququ ilə bağlı maarifləndirmə və tədris prosesinə də xüsusi vurğu qoyur. Belə ki, orada qeyd olunur ki, hər kəsin dolğun şəkildə sülh və insan hüquqları haqqında maarifləndirilmə, müstəmləkə rejimlərinə, xarici işğala və ya diktator hökmranlığına etiraz etmək və ona qarşı müxalif olmaq hüququ vardır. Sənədin müddəalarının biri özəl hərbi və təhlükəsizlik şirkətlərinin əhatə

etməklə, dövlətlərdən "xüsusi olaraq hərbi və təhlükəsizlik funksiyalarını özəl podratçılara verilməsini" tələb edir.

İnsan hüquqları sistemində sülh hüququnun mahiyyətini izah edərkən, insan təhlükəsizliyi amili, zorakılıq qurbanlarının müdafiəsi, o cümlədən qadınların hüquqlarının müdafiəsi məsələlərinə xüsusi diqqətin yetirilməsi vacibdir.

Beynəlxalq hüquq mütəxəsisləri insan təhlükəsizliyini sülh hüququnun mühüm pozitiv elementlərindən biri hesab edir ki, bu da özündə struktur zorakılığı, qorxu və ehtiyacdan yaxa qurtarmanı cəmləşdirir.

İnsan hüquqları sistemində sülh hüququ məsələsi gender bərabərliyi və qadın hüquqları baxımından da diqqət çəkir. Müasir dünyamızda qadınlar da zorakılığın əsas qurbanlarıdır və yuxarıda qeyd olunan sənəddə vurğulanır ki, "sülh

hüququ uğrunda mübarizədə qadınlar bərabər tərəfdaş olmalıdır”. [7]

Sülh hüququ əsas etibarilə müharibə və istənilən güc tətbiqi və zorakılıq hallarını istisna edən bir hüquqdur. Ona görə də mütəxəssislər Sülh hüququ haqqında Bəyannaməni təkcə “müharibələrin və müxtəlif zorakılıqların, silahlı qarşıdurmaların qarşısının alınması üçün deyil, həm də struktur zorakılığı aradan qaldırmaq üçün qızıl bir şans” kimi dəyərləndirirlər.

Demokratik və ədalətli beynəlxalq düzənin təşviqi üzrə müstəqil ekspert Alfred-Maurice de Zayas qeyd edir ki, bu gün yerli, regional və beynəlxalq sülhü təmin etmək və büdcələri hərbi xərclərdən uzaqlaşdırmaq və mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların qorunmasına yönəltməkdən daha vacib bir şey yoxdur. Müstəqil Ekspert İşçi Qrupun ilk iclasındakı açıqlamasında

---

[7] The Santiago Declaration on the Human Right to Peace, http://www.transconflict.com

bəzi dövlətlərin insanın sülh hüququnun qanuni əsasa sahib olduğuna şübhə etdiyini etiraf etmişdir.[8] Bununla yanaşı, insan hüquqlarının sülh üçün zəruri olan bütün komponentləri artıq BMT Nizamnaməsində və Ümumdünya İnsan Hüquqları Bəyannaməsində kodlaşdırılmışdır.

Eyni zamanda, sülh hüququna insan hüquqları sistemində və müasir dövrün təhlükəsizlik sistemində təhdid hesab edilən mühüm məsələlərdən biri də silahlı təcavüz və sülhə xələl gətirən digər neqativ hallardır. Bu mənada hesab edirik ki, təcavüzə münasibətdə beynəlxalq ədalət mühakiməsinin reallaşdırılması sülh hüququnun təmin olunmasında ən mühüm vasitələrdən biridir. Ona görə də Beynəlxalq Cinayət Məhkəməsi təcavüz cinayətinə

---

[8] Statement by Alfred-Maurice de Zayas, Independent Expert on the promotion of a democratic and equitable international order at the 72nd session of the General Assembly, https://www.ohchr.org/

münasibətdə tam yurisdiksiyaya malik olmalıdır. Ermənistanın Azərbaycana hərbi təcavüzü, habelə ermənilər tərəfindən törədilən digər beynəlxalq cinayətlər kontekstində biz bu məsələyə növbəti paraqraflarda ətraflı toxunacağıq.

Fikrimizcə, dövlətlər sülhün, insan haqlarının təşviqi və xüsusilə təcavüz və digər sülhə təhlükə hesab edilən əməllərə münasibətdə cəzasızlığın sona çatması üçün müvafiq mexanizmlərin mütərəqqi inkişafına nail olmaqla sülh hüququnun həm insan hüquqları sistemində inkişafına, həm də beynəlxalq hüquqda əhəmiyyətinə və roluna töhfə vermiş olacaqlar.

Əlamətdar haldır ki, sülh hüququnun inkişafına diqqət yetirilməklə, 1981-ci ildə BMT tərəfindən Beynəlxalq Sülh Günü təsis edimiş və ilk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunmuşdur. Elə o vaxtdan etibarən də Beynəlxalq Sülh Günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2002-ci ildə BMT Sülh

günü üçün 21 sentyabr tarixi dəqiq tarix kimi müəyyənləşdirilmiş və bu günü ümumdünya atəşkəs günü elan etmişdir. Hazırda hər il Beynəlxalq Sülh Günü BMT-nin Nyu-Yorkdakı Baş Qərargahında yerləşən "Sülh Zəngi"nin çalınması ilə başlayır. Yaponiya Parlamentinin hədiyyəsi olan bu zəngin üzərində "Yaşasın Mütləq Dünya Sülhü" sözləri yazılmışdır. Dünya ölkələrinin yekdil qərarı ilə əlamətdar gün kimi qəbul edilmiş Beynəlxalq Sülh Gününün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca, üzə çıxır. Sülh naminə aparılan fəaliyyət həyati əhəmiyyət kəsb etsə də, təəssüflər olsun ki, heç də hər yerdə qorunmur, müdafiə edilmir, dünyada milli münaqişələr daha da çoxalır, onların fiziki coğrafiyası genişlənir. Həqiqətən də dünyanın müxtəlif qütblərində yaşayan saysız-hesabsız insanlar üçün sülh hüququ hələ də əlçatmazdır. Sülh hüququ nəinki xalqlar arasında, həmçinin ailələrdə, cəmiyyətdə, ictimaiyyətdə

münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir imkandır. Bu baxımdan qeyd olunmalıdır ki, hər il Azərbaycanda ənənəvi olaraq keçirilən "Sülh aylığı" da əhalinin hüquqi maarifləndirilməsi işinə mühüm töhfələr verməklə, ölkəmizdə insan hüquqları sahəsində müsbət təcrübə formalaşdırır.[9] Sülh ayılığının mütəmadi keçirilməsi həmçinin sülh hüququn da inkişafına da təsirsiz ötüşmür.

Tarixən sülh hüququnun insan hüquqları sistemində roluna dair müxtəlif konsepsiyalar formalaşdırılmışdır. Xüsusilə sülh hüququnun formalaşmasında din amili olduqca mühüm rol oynamışdır. Bu mənada sülh hüququ sülh mədəniyyəti ilə birbaşa bağlıdır. Sülh mədəniyyəti - qeyri-zorakılıq, zor işlətməmək prinsipi dünya dinləri - xristianlıq, buddizm və islamda XVIII-XIX

---

[9] Davamlı sülh insan hüquqlarının səmərəli təmininə xidmət edir (21.09.2016)

http://www.respublica-news.az

əsrlərin Qərbi Avropa filosofları və siyasətşünaslarının əsərlərində özünə geniş yer tapmışdır. Bütün dinlər, bir qayda olaraq, xalqlar arasında, Allah və bəşəriyyət arasında, barışın insan və canlılar arasında ahəngdarlığın ilahi qanun əsasında bərqərar olmasına sosial sülh - ədalət əsasında cəmiyyət daxilində sülhün bərqərar olmasını bəşəriyyətin inkişafında mühüm addım hesab edir. İslam təliminə görə, "barışda Allahın rizası" olur. İslamda qadağan olunan əməllərdən biri sülh bağlanandan sonra müharibəni davam etdirməkdir. Bu barədə Həzrət Əli "Nəhcül-Bəlağə"də belə buyurmuşdur: "Özünlə düşmən arasında bir sülh müqaviləsi bağladıqda, yaxud ona aman paltarı geydirdikdə, əhdinə vəfa et, verdiyin amana riayət et".[10]

İslamşünas alim M. Müstəva Müvavilari özünün "İslam və Qərb mədəniyyəti" əsərində

[10] Nəhcül-bəlağə (A. Mehdiyev, D. Cəfərli, E. Quliyev tərcüməsi), https://az.wikisource.org/

göstərir ki, islam dini sülhsevərliyi insanların batinində bərqərar etmək istəyir. Əgər insanlar daxilən sülh tərəfdarı olmasalar, zahirdə elan olunan sülhün heç bir faydası olmaz. Bəşər öz mənəvi keyfiyyətlərinə görə yüksək səviyyəyə çatmazsa, sülh müqavilələri və əhdnamələrə əməl etmək iman və Allah qanunlarına əsasən olmazsa, həmin müqavilələr gec-tez pozulacaq və sülhsevərlik yalnız şüar olaraq qalacaq. Əgər insanların daxilində vicdani hisslər baş qaldırsa, qəlblərinə mərhəmət nuru hopsa, onlar çəkişmələrin əsl səbəblərini anlayar və bu halda bütün ədalətsizliklər və keşməkeşlər tədricən zəifləyər və nəhayət, tamamilə aradan gedər. Onda həqiqi sülh bəşər cəmiyyətində bərqərar olar. Sülh mədəniyyətinə Şərqdə və Qərbdəki münasibəti müqayisə edən alim islamın sülhpərvərliyinin üstünlüyünü göstərir. İndi də sülhün islam və "mədəni cəmiyyət"lər nəzərindən necə bir anlayış olduğunu araşdıraq. İslamın irəli sürdüyü sülh

proqramı böyük dövlətlərin qəbul etdiyi sülhdən əsaslı şəkildə fərqlənir. Böyük dövlətlərin nəzərincə sülh kiçik dövlətlərin təbii sərvətlərini öz aralarında bölüşdürmək üçün yaradılan şərait deməkdir. Belə sülhlə onlar dünyanın bütün məntəqələrində öz nüfuzlarını daha rahat yaya bilirlər. Onların təşkil etdikləri sülh konfransları və məclisləri zahirdə bu ideyadan bol-bol danışmaq, əslində isə, öz məqsədlərini həyata keçirmək üçün əlverişli şərait yaratmaqdan başqa bir şey deyil. Amma islam dini dünyanın müxtəlif millətlərinin hüquq bərabərliyinə əsaslanan sülh istəyir. Heç bir ayrı-seçkilik olmadan, dövlətləri "böyük" və “kiçik”liyə bölmədən, zəiflər və qüdrətlilər üçün eyni olan, hər cür təcavüz və zoru rədd edən həqiqi sülhün bərqərar olunması islamın ən ali hədəflərindəndir.[11]

Beynəlxalq hüquqda sülh hüququnun elementləri məsələsinə gəldikdə isə, beynəlxalq

---

[11] Ömərov V. İnsan hüquq və azadlıqlarının müdafiəsi və sülh mədəniyyəti. https://sesqazeti.az

hüquqi mənbələrdə sülh hüququnun fundamental insan hüququ olaraq üç əsas komponenti qeyd olunur: yaşamaq hüququ, ləyaqət hüququ, hüquqların səmərəli realizəsinə imkan verən asayiş hüququ.[12] Qeyd olunur ki, bu üç hüquq 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin ayrılmaz hissəsidir.[13] Eyni zamanda, insanların sülh hüququ xüsusi bir fərdi hüquq olaraq 2000-ci illərin əvvəllərindən aktuallaıq kəsb etməkdədir.

Sülh hüququnun elementlərinə normativ hüquqi cəhətdən yuxarıda qeyd etdiyimiz BMT-nin 2017-ci il tarixli İnsanın sülh hüququ haqqında Santiaqo Bəyannaməsinin "Elementlər" adlı 2-ci maddəsində də aydınlıq gətirilir: "1) İnsanların sülh hüququnun tərkib elementləri artıq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, Mülki və

---

[12] The components of the Human right to peace, https://www.grainesdepaix.org/

[13] Universal Declaration of Human Rights, 1948, www.un.org

Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq müddəalarında nəzərdə tutulmuşdur. 2) Fərdlər BMT-nin insan hüquqları üzrə müqavilə orqanlarına, regional insan hüquqları məhkəmələrinə və İnsan Hüquqları Şurasının müvafiq xüsusi prosedurlarına şikayət etməklə insanın sülh hüququnun müxtəlif elementlərini müdafiə edə bilərlər. 3) Təcavüz, soyqırımı, irqçilik, irqi ayrıseçkilik, ksenofobiya və digər əlaqəli qeyri-tolerantlıq formalarına, habelə aparteid, müstəmləkəçilik, neo-müstəmləkəçilik və digər beynəlxalq cinayətlərə məruz qalan bütün şəxslər, xalqlar və azlıq qrupları insanın sülh hüququnun pozuntularının qurbanı olaraq xüsusi diqqətə layiqdirlər.[14]

---

[14]Santiago Declaration on the Human Rights ti Peace, International Journal on World Peace Vol. 28, No. 4 (Deceber 2011), pp. 94-114

Beləliklə, sülh hüququnun mahiyyətinə, elementlərinə münasibətdə yekun olaraq qeyd edilməlidir ki, birincisi, sülh hüququ solidar hüquqların mühüm elementini təşkil etməklə, bu hüququn insan hüquqları sistemində mövqeyi, yeri və rolu tarixən bəşəriyyəti düşündürən fundamental problemlərdən biri sayılır. İkincisi, sülh hüququ geniş mənada ictimai münasibətlərin və dövlətlərarası münasibətlərin, dar mənada isə fərdi münasibətlərin mühüm elementini təşkil etməklə, beynəlxalq sülhün və təhlükəsizliyin təminatı kimi hər zaman dövlətlərin daxili iddiaları, işğalçılıq meyilləri və təcavüzkar niyyətləri ilə tərs mütənasibdir. Üçüncüsü isə dövlətlərin zaman-zaman göstərdiyi səylər, onların kompromis variantlar axtarışı sonda sülh hüququnun fundamental hüquq kimi beynəlxalq hüquqda da təsbit edilməsi ilə nəticələnmişdir. Sülh hüququnun insan hüquqları sistemində mövqeyinə gəldikdə isə qeyd olunmalıdır ki, sülh hüququ insan hüquqları

sistemində yer alan digər hüquqlar və azadlıqlar kimi dövlətdaxili hüququn məhsulu olmaqla, dünyanın hüquq siustemləri, dini norma və prinsipləri, habelə müasir beynəlxalq hüququn normaları ilə daha da inkişaf etdirilmişdir. Çünki, müasir beynəlxalq hüquqda sülh huququnun təminatına nail olmadan, digər fundamental insan hüquqları, o cümlədən yaşamaq hüququ, azadlıq hüququ, işgəncələrə məruz qalmamaq hüququ, qadın və uşaq hüquqlarının təminatından söhbət belə gedə bilməz. Ona görə də sülh hüququ insan hüquqları sistemində önəmli rola malik olmaqla, açar hüquqlardan hesab edilməldir.

## 1.2. Təhlükəsiz yaşamaq hüququnun məzmununa fəlsəfi və hüquqi yanaşma

Təhlükəsiz yaşamaq hüququ insan hüquq və azadlıqlarının iyerarxiyasında xüsusi rola və əhəmiyyətə malik olan hüquqlardan biridir. Ona görə də biz bu paraqrafda ilk növbədə təhlükəsiz

yaşamaq hüququnun məzmununa həm fəlsəfi nöqteyi-nəzərdən, həm də milli və beynəlxalq hüquq normaları kontekstindən yanaşacağıq.

Məsələ burasındadır ki, Azərbaycan milli hüquq ədəbiyyatlarında və müasir beynəlxalq hüquqda bununla əlaqədar terminlərdə müəyyən mənada ziddiyyətlər ortaya çıxmaqdadır. Bu hüquq bir çox hallarda yaşamaq hüququnun tərkib hissəsi kimi və ya şəxsi toxunulmazlıq hüququ kimi, Avropa hüququnda isə azadlıq və təhlükəsizlik hüququ qismində müxtəlif terminlərlə ifadə olunur. Biz bununla əlaqədar 1950-ci il Avropa İnsan hüquqları Konvensiyası kontekstində məsələyə yanaşmağı daha vacib hesab edirik. Konvensiyanın 5-ci maddəsinin ingilis dili mətnində maddənin adı "Right to liberty and security" [15] kimi təsbit olunmuşdur. Bu termin isə Azərbaycan dilinə "Azadlıq və təhlükəsizlik hüququ" kimi tərcümə

[15]European Convention on Human Rights, https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf

edilir. Lakin bizim əksər hüquq ədəbiyyatlarında bu maddə “Azadlıq və toxunulmazlıq hüququ” kimi tərcümə edilir. Fikrimizcə, bu cür tərcümə qeyd edilən məsələnin mahiyyətini və məzmununu tam şəkildə əhatə etmir. Əksinə, bu daha dar interpretasiyalara və bu hüququn sonrakı inkişafına maneələr yarada bilər. Cünki, “security” ifadəsi daha çox “təhlükəsizlik” termini ilə “safety” sözü isə “toxunulmazlıq” anlayışı ilə uyğun gəlir. Bununla əlaqədar 1948-ci il İnsan hüquqları haqqında Universal Bəyannamə də eyni termindən istifadə etmişdir. Belə ki, Bəyannamənin 3-cü maddəsində qeyd olunur: “Hər kəsin yaşamaq, azadlıq və şəxsi təhlükəsizlik hüququ vardır”. [16] Mətnin ingilis dilli versiyasında “security of person” (şəxsi təhlükəsizlik) termini qeyd edilmişdir.

[16] Universal Declaration of Human Rights, https://www.un.org/en/universal-declaration-human-rights

Şəxsi təhlükəsizlik hüququnun fəlsəfi-hüquqi mahiyyəti nədən ibarətdir? Şəxsin təhlükəsizlik hüququ bir çox beynəlxalq hüquqi sənədlərlə və milli konstitusiyalarla təsbit olunmuş əsas insan hüququdur.

Bununla əlaqədar müddəaların bəzi milli konstitusiyalar kontekstində araşdırılmasını məqbul hesab edirik. Bu mənada, Azərbaycan Konstitusiyası, Türkiyə Anayasası, Kanada Konstitusiyası, Cənubi Afrika və dünyanın digər ölkələrinin konstitusiyalarında, Böyük Britaniya və Yeni Zelandiya milli qanunvericilik aktlarında bu hüquqlar təsbit olunmuş və qanunla qorunan insan hüquqları sırasına aid edilmişdir.

Özünün fəlsəfi-hüquqi mahiyyətinə görə, təhlükəsiz yaşamaq hüququ bir çox digər əsas insan hüquq və azadlıqları ilə üzvi surətdə bağlıdır. Britaniya Nyukasl Universitetinin professoru Rona Smitin qeyd etdiyi kimi, hər bir kəsin təhlükəsizlik hüququ azadlıq hüququ ilə bilavasitə əlaqədardır və

qanunsuz olaraq həbs edildiyi təqdirdə insan hüquqları haqqında qanunvericiliklə əhatə edilir. Professorun qənaətincə, şəxsin təhlükəsizliyini işgəncə, qəddar və qeyri-insani cəzanın və rəftarın qadağan edilməsinə əsaslanan hüquqların genişlənməsi kimi də nəzərdən keçirmək olar. Onun fikrincə, həmçinin, şəxsi təhlükəsizlik hüquqları insanı həyati təhlükə törədən davranışdan mühafizə edə və bu hüquq məhbusların hüquqlarının müdafiəsi baxımından da istifadə edilə bilər.[17]

Göründüyü kimi, şəxsi təhlükəsizlik hüququnun məzmunu daha geniş diapazona malik olub, insanın hansı situasiyada olmasından asılı olmayaraq, yəni istər azadlıqda, istərsə də məhkumluqda onun şəxsi təhlükəsizliyi ilə bağlı hərtərəfli təminatların olmasına zəmin yaratmış olur. Bu hüquq şəxsləri insan üçün həyati təhlükə

---

[17] Rhona K.M. Smith, Textbook on International Human Rights, second edition, Oxford University Press, 2005, p. 240. (523)

sayıla bilən və onun hər hansı cəzaya və pis rəftara məruz qalmasına yönəlmiş davranış və fəaliyyətlərdən sığortalayır.

Azərbaycan Respublikasının Konstitusiyası təhlükəsiz yaşamaq hüququna müfəssəl şəkildə izah verir. Konstitusiyanın 31-ci maddəsnin 1-ci bəndində qeyd olunur ki, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Həmin maddənin 2-ci bəndində isə bu hüququn hüquqi məzmuna toxunularaq yazılır ki, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır. Bu maddənin mənasına görə, təhlükəsiz yaşamaq hüququ daha geniş hüquqi məhfum olub, onun məzmununa birincisi, şəxsi həyatın təhlükəsizliyi, ikincisi, insanın fiziki və mənəvi sağlamlığı, üçüncüsü mülkiyyətin təhlükəsizliyi, o cümlədən mənzil toxunulmazlığı, dördüncüsü isə şəxsə qarşı bu və ya digər formalarda hər hansı zor tətbiq

olunmasının qadağan edilməsi aiddir. Həmçinin, xüsusi vurğulamaq lazımdır ki, təhlükəsiz yaşamaq hüququ ilə yanaşı Konstitusiyanın 32-ci maddəsi şəxsi toxunulmazlıq hüququnu, 33-cü maddəsi isə mənzil toxunulmazlığı hüququnu təsbit edir.

Qeyd edək ki, bu problemlə əlaqədar Azərbaycan hüquq ədəbiyyatlarında heç də birmənalı olmayan mövqelər ortaya qoyulmuşdur. Prof. S. Allahverdiyev bu məsələyə münasibət bildirərək qeyd edir ki, toxunulmazlıq hüququ şəxsi hüquqlar dairəsinə daxil olan hüquqlardan biri kimi şəxsin normal fəaliyyət göstərməsi üçün bu hüququn böyük əhəmiyyəti vardır. Onun fikrincə, şəxsiyyətin inkişafı üçün normal şəraitin yaradılması məhz toxunulmazlığın vasitəsilə mümkün olur. S.Allahverdiyev "toxunulmazlıq hüququ" terminindən istifadə edilməsinə üstünlük verməklə, qeyd edir ki, toxunulmazlıq hüququ geniş və ümumiləşdirilmiş anlayış olub, özündə üç cür hüququ birləşdirir: təhlükəsiz yaşamaq

hüququnu; şəxsi toxunulmazlıq hüququnu; mənzil toxunulmazlığı hüququnu. Təhlükəsiz yaşamaq hüququ insan hüquqları - təbii (anadangəlmə) hüquqlar sırasına aiddir. O, şəxsin özündən ayrılmazdır. Təhlükəsiz yaşamaq hüququ onu ifadə edir ki, şəxsin yaşamaq hüququ hər cür təhlükədən, qəsddən və hüquq pozuntusundan qorunur, daha doğrusu, zərərsizləşdirilir. Əgər şəxsin yaşamaq hüququna qəsd edilərsə, onda bu hüquq müdafiə edilir, yəni qəsd edən şəxs barəsində müvafiq tədbirlər görülür. Şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək təhlükəsiz yaşamaq hüququnun pozulması deməkdir. Buna görə həmin hərəkətlərə yol verilməsini Konstitusiya qadağan edir. Şəxsi toxunulmazlıq hüququna görə insan həyatının ailə-məişət və şəxsi münasibətlər kimi sferasına nə dövlət, nə ictimai təşkilatlar, nə də ayrı-ayrı vətəndaşlar müdaxilə edə bilərlər. Həmin sferaya kimsənin nəzarət etməsinə və qarışmasına

yol verilmir. Ailə həyatının sirrini (məsələn, övladlığa götürmənin sirrini və s.) saxlamaq hüququ hər kəsə məxsusdur. Bundan əlavə, hər kəsin şəxsi həyat sirrini (məsələn, yazışma, telefon danışqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq) hüququ vardır. Dövlət buna təminat verir. Amma bəzən, qanunda nəzərdə tutulan hallarda həmin hüquq məhdudlaşdırıla bilər. Həmin hallara aiddir: cinayətin qarşısını almaqdan ötrü; cinayət işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü. Məsələn, cinayət işi üzrə sübutlar əldə etmək üçün şəxsin yazdığı məktublar oxunur və ya onun telefon danışıqlarına qulaq asılır. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır: mənzil toxunulmazlığı kənar şəxslərin mənzilə yalnız onun sahibinin icazə və razılığı ilə daxil olmasının mümkünlüyünü nəzərdə tutur. Vətəndaşın şəxsi həyatı bilavasitə məhz mənzillə bağlıdır. Mənzil toxunulmazlığı təkcə mənzilə yox, həm də şəxsə

məxsus olan anbara, qaraja, zirzəmiyə və digər yerlərə (çünki bu yerlər mənzillə bağlıdır), habelə səfər etdiyi zaman şəxsin qaldığı kupeyə (qatarda olur), kayutaya (gəmidə olur) və s. aiddir. Amma mənzil toxunulmazlığı şəxsin iş yerindəki otaqlara şamil olunmur. Mənzil toxunulmazlığı hüququna görə heç kəs mənzildə yaşayan şəxslərin iradəsi ziddinə mənzilə daxil ola, mənzildə axtarış apara və onu yoxlaya bilməz. Lakin qanunda nəzərdə tutulan hallarda bu hüquq məhdudlaşır. Belə ki, zəlzələ, yanğın və digər fövqəladə hallarda (məsələn, təkcə mənzil sahibini deyil, digər şəxsləri də təhlükə altına qoyan yanğının söndürülməsi), habelə cinayətin açılması və əməliyyat-axtarış tədbirləri görülməsi zamanı məlumat əldə edilməsi zəruri olan hallarda və s. sahibinin razılığı və icazəsi olmadan mənzilə daxil oluna bilər. Mənzilə bir

qayda olaraq, məhkəmə qərarı əsasında daxil olmaq mümkündür.[18]

Təhlükəsiz yaşamaq hüququ ilə bağlı Türkiyə Anayasasında da mübahisə doğuran məqamlar mövcuddur. İlk öncə qeyd edək ki, Türkiyə qanunvericiliyi "şəxsi azadlıq və təhlükəsizlik hüququ" (kişi hürriyeti ve güvenliği) terminindən istifadə edir. 1982-ci ildə qüvvəyə minmiş və 2001-ci ildə düzəliş edilmiş Türkiyə Konstitusiyasının 19-cu maddəsində [19] azadlıq hüququ ilə yanaşı, şəxsin təhlükəsizliyinə də təminat verilir. Bu maddədə qanuna müvafiq olaraq məhkəmələrin qərarlarına əsasən qeyd olunan hüquqlara dair, o cümlədən ruhi və narkoloji dispanserlər, ekstradisiya və s. üçün yol verilən bir sıra

---

[18] Allahverdiyev S. S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik. «Digesta» nəşriyyatı. Bakı, 2006. S. 38-39, 348 səh.

[19] Türkiye Cumhuriyeti Anayasası, https://www.tbmm.gov.tr/anayasa/anayasa_2011.pdf

məhdudiyyətlər vardır. Bu maddə həmçinin, hakimin icazə verdiyi hallarda buna kifayət qədər vaxt olmadığı və ya şəxsin hər hansı cinayətə görə təqsirli bilindiyi hallarla əlaqədar tutulma və həbslə bağlı məhdudiyyətlər qoyur. Qeyd olunan maddə bu hüquqların pozulduğu təqdirdə hökumətin kompensasiya ödəməsinə imkan verir.

Təhlükəsiz yaşamaq hüququ ilə bağlı müddəalar anqlosakson hüquq sistemli ölkələrin milli qanunvericiliklərində də əsas insan hüquq və azadlıqlarının mühüm elementi kimi təsbit olunmuşdur. Böyük Britaniyanın 1998-ci il tarixli İnsan Hüquqları Aktına I Əlavənin 5-ci maddəsindəşəxsin təhlükəsizlik hüququnun bütün elementləri detallı şəkildə qeyd edilmişdir. Xüsusi vurğulamaq lazımdır ki, Britaniya insan hüquqları qanunvericiliyi bu termini həmin maddədə “azadlıq və təhlükəsizlik hüququ” (right to liberty and security) adı altında vermişdir.  Bu maddənin məzmunu aşağıdakı kimi ifadə olunur: “1. Hər

kəsin azadlıq və şəxsi təhlükəsizlik hüququ vardır. Heç kim qanunla müəyyən edilmiş aşağıdakı qaydalar istisna olmaqla, azadlıqdan məhrum edilə bilməz: a) səlahiyyətli məhkəmə tərəfindən məhkum edildikdən sonra bir şəxsin qanuni olaraq tutulması; b) məhkəmənin qanuni qərarına əməl etmədiyi üçün və ya qanunla müəyyən edilmiş hər hansı bir öhdəliyin icrasını təmin etmək məqsədi ilə qanuni həbs və ya tutulma; c) cinayət törətməkdə şübhəli bilinən şəxsin səlahiyyətli hüquqi orqana gətirilməsi məqsədi ilə qanuni olaraq tutulması və ya həbs olunması və ya onun cinayət törətməsinin qarşısını almaq üçün kifayət qədər zəruri olduqda və ya bunu etdikdən sonra qaçması; d) yetkinlik yaşına çatmayan şəxsin təhsilinə nəzarət məqsədi ilə qanuni qaydada həbsi və ya səlahiyyətli hüquqi orqana gətirilməsi üçün qanuni olaraq tutulması; e) yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədi ilə, ruhi xəstə insanlar, alkoqoliklər, narkomanlar və ya köçkünlərin qanuni

olaraq tutulması; f) şəxsin ölkəyə icazəsiz daxil olmasının qarşısını almaq və ya deportasiya və ya ekstradisiya məqsədi ilə şəxsin qanuni olaraq tutulması və ya həbsi”. [20] Qeyd olunan müddəa demək olar ki Avropa ölkələrinin əksəriyyətinin qanunvericiliklərində eyni məzmuna malikdir.

Təhlükəsiz yaşamaq hüququ ilə bağlı əhəmiyyətli müddəalar İslam hüququnda da yer almışdır. Qurani Kərimin Əl-Maidə surəsinin 32-ci ayəsində buyurulur ki, “Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni ölümdən qurtarsa, o, bütün bəşəriyyəti təhlükədən qurtarmış kimi olur”. [21] Göründüyü kimi, İslam

---

[20] Human Rights Act 1998, http://www.legislation.gov.uk/ukpga/1998/42/schedule/1

[21] Qurani-Kərim (V.Məmmədəliyev və Z.Bünyadovun tərcüməsi), Bakı, “Qismət” 2006, səh.73, (478)

hüququ hər bir fərdin təhlükəsiz yaşamaq hüququnu bütün bəşəriyyətin, insanların təhlükəsiz yaşamaq haqqı ilə eyniləşdirir.

İslam hüququnun mənbələrində insanın həyat təhlükəsizliyi və yaşamaq haqqı ən ümdə məsələlərdən biri kimi çıxış edir. Həyat təhlükəsizliyi və yaşamaq hüququ ilə əlaqədar Qurani-Kərim ayəsində xatırlanan "Və kim bir can qurtararsa, sanki bütün insanların həyatını xilas etmiş kimidir" müddəası əslində islam dininin şəxsi təhlükəsizlik hüququna önəminin bariz nümunəsidir. İslama görə insanı ölümdən xilas etməyin və təhlükəsiz həyat hüququnu təmin etmənin bir neçə forması ola bilər. Əgər insanların köməyinizə ehtiyacı olduğunu bilsəniz, xəstəlik və ya yara üçün onun müalicəsini təşkil etməlisiniz. Əgər aclıqdan ölürsə, ölümü qarşısını ala bilməsi üçün onu qidalandırmaq sizin borcunuzdur. Boğulursa və ya həyatı təhlükə altındadırsa, onu xilas etmək sizin borcunuzdur.

Qeyd edək ki, təhlükəsiz yaşamaq hüququ ilə bağlı iudaizmdə də müəyyən müddəalar vardır. Yəhudilərin dini kitabı olan Talmudda oxşar təbiətli bir ayənin olduğunu görürük. Orada deyilir: “Kim İsraillinin həyatını məhv etsə, Müqəddəs Kitabın gözü qarşısında, bütün dünyanı məhv etmiş kimidir. Və kim İsraildə bir insan həyatını qorumaqla qurtarsa, bütün dünyanı xilas etmiş olur”. Qeyd olunmalıdır ki, analoji prinsiplər xristian kanonik hüququnda da xatırlanır.

Təhlükəsiz yaşamaq hüququnun məzmununa fəlsəfi və beynəlxalq hüquqi yanaşmanın ən əsas cəhətlərindən biri də bu elmi kateqoriyaya insan təhlükəsizliyi konsepsiyası kontekstində yanaşmadır. İnsan təhlükəsizliyi konsepsiyası şəxsiyyətin və cəmiyyətin müdafiəsini həm birbaşa fiziki zorakılıq təhlükəsi, həm də dolayı təhlükələr (yoxsulluğun, iqtisadi və siyasi bərabərsizliyin, eləcə də təbii fəlakətlərin, xəstəliklərin nəticələri) kimi qiymətləndirir.

Ölkəxarici təhlükə və ya daxili münaqişələrə məruz qalmaya bilər, lakin tam təhlükəsiz də olmaz, ona görə ki, qanunun aliliyini tam təmin etmək iqtidarında deyildir və ya ona görə ki, əhalinin böyük bir hissəsi aclıq nəticəsində öz evlərini tərk etmək məcburiyyətindədir, xəstəlik nəticəsində vəfat edir və ya yaşamaq üçün zəruri şeylərdən məhrumdur. İnsan təhlükəsizliyi konsepsiyası insan hüquqlarının möhkəmlənməsinə xidmət edir, çünki o, həyatda qalmaq, insan ləyaqəti və əsas hüquq və azadlıqları (ehtiyac və qorxudan azad olmaq, öz yerinə qərar qəbul etmək hüququ) təmin edən sistemi dəstəkləyir. Nəticə əldə etmək üçün bu konsepsiya iki əsas strategiyadan istifadə edir: hüquqların reallaşması üçün imkanların müdafiəsi; hüquqların reallaşması üçün imkanların təmin olunması. Müdafiə insanları birbaşa təhlükədən qoruyur, eləcədə təhlükəsizliyi təmin edən norma, proses və institutlar yaradır. Hüquqların reallaşması üçün imkanların təmin olunması

insanlara öz potensialından geniş istifad edərək, tam hüquqlu şəxs kimi məsələlərin qəbulu prosesində iştirakına imkan yaradır. İmkanların müdafiə və təminatı bir çox situasiyalarda bir-birini tamamlayır və zəruridir.

2003-cü ildə BMT-nin insan təhlükəsizliyi üzrə xüsusi qrupu "İnsan təhlükəsizliyi bu gün" adlı məruzə dərc etmişdir. Məruzə insan təhlükəsizliyinə nail olmaq və onu qoruyub saxlamaq istiqamətində əsas sualların təhlilinə həsr edilmişdir:

-Silahların yayılması da daxil olmaqla zorakı münaqişələrdə insanların müdafiəsi;

-Öz iqtisadi vəziyyətlərini yaxşılaşdırmaq niyyəti ilə və ya ozünü münaqişələrdən, insan hüquqlarının ciddi pozuntusundan müdafiə üçün qaçmaq məcburiyyətində olmuş insanların müdafiəsi və onlara insan hüquqlarının reallaşdırılmasına imkan yaradılması;

-Münaqişə sonrası vəziyyətlərdə yaşayan, o cümlədən müharibə səbəbli dağıntıların bərpa olunması ilə bağlı mürəkkəb vəziyyətdə olan insanların müdafiəsi və onlara insan hüquqlarının reallaşdırılmasına imkan yaradılması;

-Bütün dünyada minimal həyat səviyyəsini təmin etməkləiqtisadi təhlükəsizliyin dəstəklənməsivəinsanlarasəfalətdən qurtarmaqimkanının verilməsi;

-Baza tibbi xidmətə hamının çıxışının dəstəklənməsi; infeksion xəstəliklərlə mübarizəyə, səfalətin yaratdığı təhdidlərə, zorakılıq nəticəsində yaranmış sağlamlıq problemlərinə xüsusi diqqət yetirilir;

-Bütün insanlara ümumi baza təhsilinə çıxış imkanlarının yaradılması;

-Qlobal vətəndaşlıqla yanaşı, fərdilik və müəyyən qruplara aid olma hüququnun uzlaşdırılması.[22]

Beləliklə, şəxsi təhlükəsizlik hüququnun məzmunu daha geniş diapazona malik olub, insanın hansı situasiyada olmasından asılı olmayaraq, yəni istər azadlıqda, istərsə də məhkumluqda onun şəxsi təhlükəsizliyi ilə bağlı hərtərəfli təminatların olmasına zəmin yaratmış olur. Ona görə də təhlükəsiz yaşamaq hüququnun təminatında dövlət bilavasitə pozitiv öhdəlik daşıyır. Təhlükəsiz yaşamaq hüququ mütləq hüquqlar kateqoriyasına aid olmaqla, bu hüquq şəxsləri insan üçün həyati təhlükə sayıla bilən və onun hər hansı cəzaya və pis rəftara məruz qalmasına yönəlmiş davranış və fəaliyyətlərdən sığortalayır. Ümumiyyətlə qeyd olunmaləıdır ki, "toxunulmazlıq hüququ" termini

---

[22] Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008: http://eycb.coe.int/compasito/ru/contents.html

əvəzinə geniş mənada “təhlükəsiz yaşamaq hüququ” terminindən iistifadə edilməsi məqbul olardı. Çünki, təhlükəsiz yaşamaq hüququ insan hüquqları - təbii (anadangəlmə) hüquqlar sırasına aiddir. O, şəxsin özündən ayrılmazdır. Təhlükəsiz yaşamaq hüququ onu ifadə edir ki, şəxsin yaşamaq hüququ hər cür təhlükədən, qəsddən və hüquq pozuntusundan qorunur, daha doğrusu, zərərsizləşdirilir. Əgər şəxsin yaşamaq hüququna qəsd edilərsə, onda bu hüquq müdafiə edilir, yəni qəsd edən şəxs barəsində müvafiq tədbirlər görülür. Yəni dövlət bu hüququn pozulmasına görə bilavasitə pozitiv öhdəliləıər daşıyır. Şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək təhlükəsiz yaşamaq hüququnun pozulması deməkdir. Ona görə də hesab edirik ki, insan hüququ kimi təhlükəsiz yaşamaq hüququ özünün həm fəlsəfi mahiyyətinə, həm də hüquqi məna yükü etibarilə mühüm və fundamental haqlardandır.

### 1.3. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlar və beynəlxalq hüquqi normalar

Beynəlxalq hüquqda insan hüquqlarının təminatı məsələləri beynəlxalq qurumların və bu sahədə mütərəqqi norma və prinsipləri inkişaf etdirmədən qeyri-mümkündür. Bu mənada sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlar və beynəlxalq hüquqi normalar bir biri ilə qarşılıqlı əlaqədə olan beynəlxalq hüquqi kateqoriyalar kimi çıxış edir.

Yuxarıdakı paraqraflada da qeyd edildiyi kimi, müasir beynəlxalq hüquqda sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə ən mühüm beynəlxalq təsisat qismində biz Birləşmiş Millətlər Təşkilatını qeyd edə bilərik. Həmçinin, beynəlxalq hüquqda mühüm norma qismində sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə fundamental sənəd olaraq 1945-ci il BMT

Nizamnaməsi və 1948-ci il Universal İnsan hüquqları Bəyannaməsi göstərilə bilər.

BMT 1945-ci ildə "gələcək nəsilləri müharibə əzablarından qurtarmaq", "insan şəxsiyyətinin ləyaqət və dəyərlərinə, kişilər və qadınlar arasında hüquq bərabərliyinə yenidən inam yaratmaq", "beynəlxalq hüquq müqavilə və sənədlərinə hörmət və ədalətin hökm sürdüyü bir şərait yaratmaq", "daha geniş azadlıqlar əsasında sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına dəstək" məqsədilə yaradılmışdır. Yəni, birmənalı şəkildə qeyd edə bilərik ki, BMT dünyada sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə ilkin və ən əsas beynəlxalq təsisatdır.

Bununla yanaşı, BMT-nin ixtisaslaşmış müəssisələrinin da fəaliyyətinə nəzər salsaq, görərik ki, sülh və təhlükəsiz yaşamaq hüququ ilə bağlı bu qurumlar tərəfindən bir sıra tədbirlər həyata keçirir. BMT-nın strukturlarından olan

YUNESKO və YUNİSEF-in sülh hüququ üzrə qarşılarına xüsusi vəzifə qoyulmuş, bu qurumlar tərəfindən sülh hüququnun həyata keçirilməsi, xüsusilə insanların bu hüquqa dair maarifləndirmə və təlimlərin təşkili vasitəsilə nail olunması ən ümdə vəzifələrini təşkil edir.

Burada mühüm bir məsələni xüsusi vurğulamaq lazımdır ki, istənilən hüququn təminatı, o cümlədən sülh və təhlükəsiz yaşamaq hüquqlarının təminatı insanların maarifləndirilmə səviyyətindən asılı bir məsələdir. Ona görə qeyd edilən qurumlardan YUNİSEF sülh təhsili məktəb və ya başqa maariflənmdirmə təşəbbüsü ilə vaxtaşırı çıxış edir. Bu qurumun qeyd olunan hüquqların təmin olunmasına yönəlmiş fəlaiyyət istiqamətləri bunlardır: “Sülh bölgələri” rolunda çıxış edərək uşaqlara zorakı münaqişələrdən azad mühit təklif edir; Uşaq hüquqları Konvensiyasında öz əksini tapmış əsas uşaq hüquqlarını təmin edir; təhsil cəmiyyətinin üzvləri arasında sülh və hörmət

mühiti yaradır; idarəetmə qaydalarında və onların tətbiqində bərabərlik və qeyri-diskriminasiya prinsipləri nümayiş etdirir; yerli mədəniyyətdə tətbiq olunan sülh quruculuğu biliklərindən, o cümlədən münaqişəni həll etməyin səmərəli və qeyri-zorakı üsullarından istifadə edir; cəlb olunmuş bütün tərəflərin hüquqlarına və şəxsiyyətinə hörmətlə yanaşaraq münaqişələri həll edir; imkan dairəsində tədris proqramına sülh, insan hüquqları, sosial ədalət və digər qlobal məsələləri daxil edir; sosial ədalət və sülh dəyərlərinin açıq müzakirəsi üçün forum təşkil edir; sülhməramlı vərdişlərdən təlim mühitində və həyatda praktik istifadə imkanları verir; bütün müəlimlərin sülh, ədalət və hüquq məsələlərində peşəkar və davamlı inkişafı üçün şərait yaradır.[23] Göründüyü kimi bu qurum daxilində sülh və təhlükəsiz yaşamaq hüququ insan hüquqları

---

[23] Peace and security agenda, https://www.unicef.org/emergencies/index_peace.html

sistemində xüsusi önəm verilən və hər zaman maarifləndirilməyə zəruri olan hüquq kimi nəzərə alınmışdır.

Sülh və təhlükəsiz yaşamaq hüququnun təminatı ilə bağlı mühüm fəaliyyət həyata keçirən YUNESKO-nun da işinin böyük hissəsi sülh, insan hüquqları və demokratiya uğrunda təhsilin inkişafına həsr olunmuşdur. 1990-cı ilin əvvəllərindən YUNESKO "sülh mədəniyyəti" üçün təhsil konsepsiyasının inkişafı ilə məşğuldur. Məqsəd "sülh mədəniyyətini inkişaf etdirməklə insan həyatına hörmət, azadlıq, ədalət, əməkdaşlıq, dözümlülük, insan hüquqları, kişi və qadın bərabərliyi kimi ümumi dəyərlərə əsaslanan dünyaya yeni baxış formalaşdırmaq", eləcə də "bu məqsədə çatmaq üçün təhsili və tədqiqatı dəstəkləməkdir".[24]

---

[24] UNESCO's work on education for peace and non-violence: building peace through education, https://unesdoc.unesco.org/ark:/48223/pf0000160787

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə ən mühüm beynəlxalq institutlardan və ümumilikdə mütərəqqi beynəlxalq və regional hüquqi normaların yarandığı qurumlardan biri də Avropa Şurasıdır. İnsan hüquqları vəəsas azadlıqların müdafiəsi barədə Avropa Konvensiyasının preambulası sülh və insan hüquqları arasında əlaqənin vacibliyini vurğulayaraq, qeyd edir ki: ... əsas azadlıqlar ədalət və ümumbəşəri sülhün əsasıdır. Bu azadlıqlar o zaman ən yaxşı şəkildə təmin olunur ki, həm sırf demokratik siyasi rejim olsun, həm də insan hüquqlarına riayət olunsun. Konvensiyanın 5-ci maddəsində hər bir kəsin azadlıq və təhlükəsizliyinə, xüsusən də azadlıqdan məhrum edilmə cəzasına dövlətin qarışacağı təqdirdə təminat verilir. Avropa Şurası xalqlar arasında tolerantlığın, qarşılıqlı anlayış və sülhün möhkəmlənməsin əistiqamətlənmiş bir sıra tədbirlər, o cümlədən insan hüquqları təhsili,

demokratik vətəndaşlıq təhsili, mədəniyyətlərarası və dinlərarası dialoqun təşkili kimi məsələləri həyata keçirir. 2007-ci ildə Avropa Şurası "Mədəniyyətlərarası dialoq haqqında ağ kitab" dərc etmişdir ki, bura Avropadaxili və Avropa ilə qonşu regionlar arasında mədəniyyətlərarası dialoqa davamlı siyasi dəstəyin göstərilməsi prinsipləri daxildir.[25]

Müasir beynəlxalq hüquqda sülh və təhlükəsizliyin, həmçinin sülh hüququnun və təhlükəsiz yaşamaq hüququnun təminatında xüsusi önəm daşıyan təşkilatlardan biri də Şimali Atlantika Müqaviləsi Təşkilatıdır (NATO). Özünün xüsusi missiyası və nizamnamə məqsədi baxımından hərbi-siyasi təhlükəsizliyin qorunub saxlanmasına xidmət edən NATO kimi bir qurumda sülh və təhlükəsiz yaşamaq hüququnun təminatının daha səmərəli nəticələrlə proqnozlaşdırılması

[25] European Convention on Human Rights,
https://www.echr.coe.int/Documents/Convention_ENG.pdf

mümkündür. Çünki, NATO-dakı islahatların ən önəmli meyarlarından biri Avropa-Atlantik və digər bölgələrdə sülhə dəstək və böhran yönətimi əməliyyatlarını öhdəsinə götürmə istiqamətində qərarlardır.[26]

Xüsusi vurğulamaq lazımdır ki, sülh hüququ və təhlükəsiz yaşamaq hüququ qarşılıqlı təhlükəsizlik problemi, müasir beynəlxalq hüququn güc tətbiqi və təcavüz faktoru ilə birbaşa əlaqəli olan məsələlərindəndir. Bununla əlaqədar beynəlxalq hüquq elmində xüsusi doktrina - qarşılıqlı təhlükəsizlik konsepsiyası formalaşmışdır. Qeyd olunan konsepsiyanın iki əsas istiqaməti - Qrotsian və Kant qolunun mövcudluğunu qeyd edən hüquq üzrə elmlər doktoru Ə. Əliyev vurğulayır ki, Qrotsian konsepsiyası imkan verir ki, təcavüz və digər təhlükə mənbəyi olan hər hansı bir dövlətə və ya dövlətlər qrupuna qarşı belə təhdidlər

---

[26] NATO"nun dönüşümü. Brussels. NATO-2004.

və təhlükələr mövcud olduğu halda, digər tərəf uyğun preventiv tədbirlər görsün.[27] Digər tərəfdən isə bu konsepsiyanın tərəfdarları yuxarıda irəli sürülən müddəaların tam əksinə olaraq təsdiq edir ki, qarşılıqlı təhlükəsizliyin əldə olunmasına yönələn tədbirlər güc tətbiq etmək və güc hədəsi ilə deyil, qarşılıqlı razılıq əsasında formalaşdırılmalıdır. Mahiyyət etibarilə Qrotsian konsepsiyasında irəli sürülən sonuncu ideya müasir dövrün sülh hüququnun və təhlükəsiz yaşamaq hüququnun təminatları tendensiyası ilə daha çox üst-üstə düşür.

Qeyd edək ki, mühüm rola malik olan NATO-nun 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" haqqında çərçivə sənədi də regionda sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün mühüm beynəlxalq hüquqi təminat rolunda çıxış edir.

---

[27] Əliyev Ə. İ. Beynəlxalq təhlükəsizlik və insan hüquqlarının təminatı məsələləri. Diplomatiya və hüquq jurnalı № 8 (014) noyabr 2007.

Proqram çərçivəsində tərəfdaşlar arasında təhlükəsizlik sahəsində yeni münasibətlər formalaşdırılır, sənədin iştirakçıları hər bir dövlətin ərazi bütövlüyü və siyasi müstəqilliyi əleyhinə güc tətbiq etməkdən imtina edir, mövcud sərhədlərə hörmətlə yanaşır, mübahisəli məsələləri dinc vasitələrlə həll etməyi öhdələrinə götürürlər və birgə sülhməramlı, humanitar aksiyalarda iştirak etmək imkanı qazanırlar.[28] Ona görə də hesab edirik gələcəkdə istər sülhü hüuqqun, istərsə də insanların təhlükəsiz yaşamaq hüququn real təmin olunmasına regional təhlükəsizlik təşkilatı olan NATO-nun mühüm rolu və əhəmiyyəti danılmazdır.

Sülh və təhlükəsiz yaşamaq hüququnun real təmin olunmasına mühüm amillərdən biri də bu sahədə mövcud olan beynəlxalq hüquq normalarıdır. Yuxarıda biz sülh və təhlükəsizlik

---

[28] Azerbaijan seven years of conflict in Nagorno-Karabagh. Human Rights Watch/Helsinki, New York, 1994.

hüququ ilə bağlı 1948-ci il Universal İnsan hüquqları Bəyannaməsində və 1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasında təsbit olunmuş müddəaların şərhini verdik.

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququ ilə bağlı həm normayaratma fəaliyyətinə, həm də praktiki fəaliyyət sferasına görə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Yekun Aktı (1 Avqust 1975-ci il) insanların təhlükəsizliyinə hər hansı bir təhdid və ya cəhddən azad olaraq həqiqi və davamlı sülh içində yaşamasını qeyd edir və insan hüquqlarına və əsas azadlıqlara "sülh, ədalət və rifah üçün vacib amil" kimi hörmət göstərir.

Sülh hüququ haqqında ilk qeyd BMT İnsan Hüquqları Komissiyasından gəlir. Komissiya 27 fevral 1976-cı il tarixli 5 (XXXII) saylı qətnaməsində hər kəsin "beynəlxalq sülh və təhlükəsizlik şəraitində yaşamaq və iqtisadi, sosial və mədəni hüquqlardan, vətəndaş və siyasi

hüquqlardan tam istifadə etmək" hüququnu təsdiqləyir. Bu, sülh və insan haqlarının qarşılıqlı asılılığının göstəricisidir.

BMT Baş Assambleyasının qətnaməsi sülh hüququnun əsas mənbəyidir. 1978-ci ilin dekabrında Baş Assambleya "Cəmiyyətlərin sülh içində yaşamağa hazırlanması haqqında Bəyannamə" qəbul etmişdir. BMT xalqlarının gələcək nəsilləri müharibə bəlasından xilas etmək əzmini və beynəlxalq sülh və təhlükəsizliyi qorumaq üçün əsas məqsədlərini xatırladaraq, hər bir millətin (millətlərin) və hər bir insanın "sülh içində yaşamaq üçün ayrılmaz hüququ"nu təsdiqləyir.

Bundan əlavə sülh hüququna dair normalar 1984-cü il Sülh hüququ haqqında Bəyannamədə qeyd olunur. Bu sənəddə BMT-nin əsas məqsədlərini xatırladır və təsdiq edir ki, müharibəsiz həyat, maddi rifah, inkişaf və tərəqqinin əsas beynəlxalq şərtidir. Xalqlar üçün dinc bir həyatın təmin

edilməsini hər bir dövlətin müqəddəs borcu hesab edir, planetimizin xalqlarının sülh üçün müqəddəs bir hüququna sahib olduqlarını təntənəli şəkildə elan edir və bu hüququn qorunması və həyata keçirilməsinin təşviqini hər bir dövlətin əsas vəzifəsi hesab edir.

Sülh hüququ Baş Assambleyanın gündəliyində 2002-ci ildən bəri “Xalqların sülh hüququnun təşviqi haqqında" 57/216 saylı qətnamə ilə bərpa edilmişdir mahiyyət etibarilə bu sənəd 1984-cü il Sülh Bəyannaməsinin bütün müddəalarını bir daha təsdiqləmişdir. [29]

Son illərdə sülh hüququ və təhlükəsiz yaşamaq hüququ ilə bağlı normayaratma fəaliyyətinin daha da intensivləşməsini müşahidə etmək mümkündür. Qeyd olunan məsələ ilə bağlı mühüm sənədlərdən biri İnsan Hüquqları Şurası tərəfindən hələ 2016-cı ildə təklif olunmuş və BMT-nin Baş Assambleyası

[29] Peace, Right to, International Protection, https://opil.ouplaw.com

tərəfindən 19 dekabr 2017-ci il tarixli, 71/189 saylı Qətnaməsi ilə qəbul edilmiş Sülh hüququ haqqında Santiaqo Bəyannaməsidir. Santiaqo Bəyannaməsinə görə dövlətlər insanın sülh və təhlükəsizlik hüququnun təminatının əsas vəzifə daşıyıcılarıdır. Bu o məqamlara daha çox aiddir ki, dövlətlər münaqişələrin köklü səbəblərini həll etməli, şəxsiyyətin təhlükəsiz həyat şəraitinin təmin olunmasnı, şikayətlərin vaxtında həll edilməsini və zorakılığa səbəb olmamasını təmin etmək üçün profilaktik strategiya hazırlamalıdırlar. Eyni zamanda beynəlxalq hüququn əsas prinsiplərinə müvafiq olaraq dövlətlər vicdanla danışıqlar aparmaq və mübahisələri zorakı olmayan üsullarla həll etmək öhdəliyinə malikdirlər. Dövlətlər həəmçinin, beynəlxalq münasibətlərdə güc tətbiq etməkdən və ya güc tətbiq etmək hədəsindən çəkinmək üçün hüquqi öhdəliklər yerinə yetirirlər. Ümumilikdə isə Santiago Bəyannaməsinə əsasən dövlətlər beynəlxalq sülh və təhlükəsizlik, insan

hüquqları və inkişaf sahələrində Birləşmiş Millətlər Təşkilatının bu üç təməl sütununun səmərəliliyini gücləndirmək öhdəliyi də daşıyırlar. [30] Bu sənəd sülh hüququnun əsas mənbələrindən biri sayılır.

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq təsisatlardan biri də beynəlxalq və regional məhkəmə instansiyalarıdır. Beynəlxalq məhkəmələrin qərarları sülh və təhlükəsiz yaşamaq hüququ üzrə mühüm presedentlər müəyyən etməklə bu sahədə beynəlxalq hüquqi normaların inkişafına da öz töhfəsini verməkdədir. Buna misal olaraq son illərdə Avropa İnsan hüquqları Məhkəməsinin fəaliyyətini bariz nümunə kimi qeyd edək bilərik.

Beləliklə sülh hüququ və təhlükəsiz yaşamaq hüququ ilə bağlı beynəlxalq təsisatlar və normalarla bağlı belə bir ümumi fikri əsaslandıra bilərik ki, BMT və onun ixtisaslaşmış təşkilatları başqa

---

[30] The Santiago Declaration on the Human Right to Peace, www.jstor.org

olmaqla, digər regional qurumların, o cümlədən beynəlxalq məhkəmə instansiyalarının fəaliyyəti bu hüquqların təminatına yönəlmiş və dövlətlər insanın sülh və təhlükəsizlik hüququnun təminatının əsas vəzifə daşıyıcılarıdır. Dövlətlər şəxsiyyətin təhlükəsiz həyat şəraitinin təmin olunmasnı və sülhün pozulmasına və zorakılığa səbəb olan halları aradan qaldırmaq üçün üçün profilaktik strategiyaya malik olmalıdırlar.

# II FƏSİL

# SÜLH HÜQUQU VƏ TƏHLÜKƏSİZ YAŞAMAQ HÜQUQUNUN TƏMİNATI ÜZRƏ MİLLİ TƏCRÜBƏ: BEYNƏLXALQ NORMALARA İMPLEMENTASİYA

*2.1. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı digər insan hüquqlarının realizəsi üçün vacib şərt kimi*

*2.2. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə milli təcrübə: cari vəziyyət və mövcud problemlər*

## 2.1. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı digər insan hüquqlarının realizəsi üçün vacib şərt kimi

Müasir beynəlxalq hüquqda hər hansı bir insan hüququnun real təminatı ayrı-ayrılıqda

effektiv ola bilməz. Burada müxtəlif insan hüquqlarının bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqda götürülməsi, eyni zamanda bu hüquqların daha səmərəli həyata keçirilməsi üçün dövlətdaxili və beynəlxalq hüququ normalarının qarşılıqlı əlaqəsi mühüm şərtdlərdən biri hesab edilir. Ümumiyyətlə müasir dünyada sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsi beynəlxalq hüquq normalarının ölkədaxili hüquqa implementasiyası ilə üzvi surətdə bağlıdır. Qeyd olunan məsələnin tədqiq olunan mövzu ilə sıx əlaqəsini nəzərə alaraq bu fəsildə biz sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə Azərbaycan Respublikasının milli qanunvericilik və dövlət orqanlarının təcrübəsi kontekstində bu hüquqların həyata keçirilməsi ilə bağlı beynəlxalq normalara implementasiya problemlərinini araşdırmağa çalışacağıq.

Ona görə də ilk növbədə, sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatının digər insan hüquqlarının realizəsi üçün vacib şərt olması tendensiyasından çıxış edərək, digər insan hüquqları ilə sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun qarşılıqlı əlaqəsinə diqqət yetirilməsini zəruri hesab edirik.

Yuxarıdakı paraqraflarda qeyd olunduğu kimi, insan hüquqlarının real təminatı, insan ləyaqətinin qorunması, cəmiyyətdə insan haqlarına hörməti artırəılması üçün sülh hüququnun mövcudluğu mühüm şərt kimi çıxış edir. Əslində beynəlxalq hüquq nöqteyi-nəzərindən sülh hüququnun mahiyyətinə yanaşsaq, bu hüquq olmadan, bu hüququn normativ əsası formalaşdırılmadan digər insan hüquqlarının – mülki və siyasi, sosial, iqtisadi və mədəni hüquqların və azadlıqların təminatı qeyri-mümkündür. Geniş anlamda beynəlxalq sistem sülh hüququnu təmin edə bilməzsə, dar mənada fərdi

insan hüququ əlbəttə, faydasız və mənasız olacaqdır. Məhz ona görə də, 1948-ci il Universal İnsan hüquqları Bəyannaməsinin 28-ci maddəsində "Hər bir şəxsin bu Bəyannamədə qeyd olunmuş hüquq və azadlıqlar çərçivəsində ictimai və beynəlxalq qaydada tam yaşamaq hüququ vardır"[31] müddəası təsbit edilmişdir. Çünki, sülh huququnun təminatına nail olmadan, digər insan hüquqlarının, o cümlədən yaşamaq hüququ, azadlıq hüququ, işgəncələrə məruz qalmamaq hüququ kimi fərdi hüquqların, eyni zamanda ayrı-ayrı qrupların hüquq və azadlıqlarının real təminatından söhbət belə gedə bilməz. Ona görə də, tam əminliklə demək olar ki, sülh hüququ insan hüquqları sistemində önəmli rola malikdir və bu hüququ açar hüquqlardan saymaq olar.

Sülh hüququ ilk növbədə insanın təhlükəsiz yaşamaq hüququ ilə bilavasitə əlaqəlidir. Çünki,

[31]Universal Declaration of Human Rights, https://www.un.org/en/universal-declaration-human-rights/

təhlükəsiz yaşamaq hüququnun real təminatı üçün bilavasitə istənilən təhdid və ya güc tətbiqinin qadağan edilməsindən başqa, müharibələr, silahlı münaqişələr və digər kütləvi zorakılıq aktlarının qarşısını almaq üçün beynəlxalq hüquqla dövlətlərin üzərinə yüksək vəzifələr qoyulur. Beləliklə, müharibə təhlükəsinin qarşısını almaq və beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərilən bütün səylər yaşamaq hüququnun qorunmasının ən vacib şərti və zəmanəti kimi çıxış edir. Başqa sözlə, dövlətlərin insanın təməl hüquqlarından biri olan yaşamaq hüququna hörmət etməsi, xalqların sülh şəraitində yaşamaq hüququnu qorumaq vəzifəsini də əhatə edir, çünki kütləvi zorakılıq və müharibənin səbəb olduğu qətllər özbaşına həyat itkisi kimi qəbul edilə bilər. Santiaqo Bəyannaməsinin “İnsan təhlükəsizliyi hüququ” adlanan 6-cı maddəsində qeyd olunur ki, fərdlərin insan təhlükəsizliyi, o cümlədən qorxu və ehtiyacdan azad olmaq hüququ

vardır. Bütün xalqlar və fərdlər özəl və ictimai mühitdə təhlükəsiz və sağlam bir şəraitdə yaşamaq hüququna malikdirlər. Ehtiyacdan azad olmaq dayanıqlı inkişaf və iqtisadi, sosial və mədəni hüquqların əldə edilməsini nəzərdə tutur. [32] Göründüyü kimi, insanın təhlükəsiz yaşamaq hüququ, onu əhatə edən ictimai və sosial-iqtisadi və mədəni mühitin dinc, sülh, əmin-amanlıq baxımından sağlam olmasından bilavasitə asılıdır və beynəlxalq hüquq bu dəyərləri süh hüququ adı altında həm fərdlərə, həm də xalqlara şamil edir.

Bu kontekstdə sülh hüququnun və təhlükəsiz yaşamaq hüququnun müqayisəli təhlilini apararkən pozitiv və neqativ sülh anlayışlarına da xüsusi diqqət yetirmək lazımdır. Bu çərçivədə sülh yalnız müharibə və silahlı qarşıdurmaların olmaması ilə məhdudlaşmır, həmçinin buraya zorakılığı əngəlləyən bərabərlik və sosial ədalət şəraitinin

[32] The Santiago Declaration on the Human Right to Peace, www.jstor.org

yaradılmasına yönəlmiş pozitiv sülh də aid edilir. Pozitiv sülh insanların hüquq və azadlıqlardan qanunsuz məhrum edilməsinin, insanların digər insanlar üzərində dominantlığının və ya hegemonluğunun, yoxsulluğun, xəstəliklərin və s. qarşısının alınması və bu problemlərə son qoyulması üçün mühüm tədbirləri özündə ehtiva edir.

İnsan hüquqları sırasında yaşamaq hüququ ilə yanaşı sağlamlıq hüququ da sülh və təhlükəsiz yaşamaq hüququ ilə əlaqəsi mühüm əhəmiyyət kəsb edir. Təhlükəsiz həyat, sağlamlıq və sülh hüquqlarının bir-biri ilə əlaqəsi məsələsinə Sülh şəraitində yaşamaq hüququ haqqında Bəyannamə layihəsinin 1-ci maddəsində toxunulur: "Hər kəs bütün insan hüquqlarının və əsas azadlıqların, xüsusən də bütün insan hüquqlarının, sülhün və inkişafın tam şəkildə həyata keçirildiyi bir şəraitdə yaşamaq hüququnun tanıdılması, qorunması və

hörmət edilməsi hüququna malikdir”. [33] Bu qarşılıqlı hüquqları və onların əsas sosial şərtlərini həyata keçirmək üçün birgə insan inkişafı tələb olunur.

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üçün vacib şərtlərdən biri də insan hüquqları kontekstində insan ləyaqətinin insan inkişafını istiqamətləndirməsinin əsas dəyər olaraq nəzərdən keçirilməsidir. Hüquq elmləri doktoru, Massaçusets Universitetinin professoru Donna J. Perry insan ləyaqətini insan həyatı, sağlamlıq və sülh hüquqlarının təməl nüvəsi hesab edərək yazır ki, müasir insan hüquqları paradiqması

---

[33] United Nations Human Rights Council. Report of the Open-Ended Intergovernmental Working Group on a Draft United Nations Declaration on the Right to Peace; held June 30-July 4, 2014, UN Doc. A/HRC/27/63 (July 4, 2014). P.18

əslində insanın ləyaqətinə əsaslanır.[34] Qeyd olunan mövqeyin hüquqi əsasları isə yuxarıda qeyd etdiyimiz kimi Üniversal İnsan hüquqları Bəyannaməsinin preambulasında da təsdiq edilmişdir.

İnsan hüquqları sistemində sülh hüququ məsələsi gender bərabərliyi və qadın hüquqları baxımından da diqqət çəkir. Müasir dünyamızda qadınlar da zorakılığın əsas qurbanlarıdır və yuxarıda qeyd olunan sənəddə vurğulanır ki, "sülh hüququ uğrunda mübarizədə qadınlar bərabər tərəfdaş olmalıdır".[35] Sülh və təhlükəsiz yaşamaq

---

[34]Donna J. Perry, Christian Guillermet Fernández, David Fernández Puyana. The Right to Life in Peace: An Essential Condition for Realizing the Right to Health, https://www.hhrjournal.org/2015/06/the-right-to-life-in-peace-an-essential-condition-for-realizing-the-right-to-health/

[35] Declaration on the Right to Peace : resolution / adopted by the General Assembly., https://digitallibrary.un.org/record/855187

hüququ qadın və uşaq hüquqlarının həyata keçirilməsi üçün mühüm təməl rolunu oynayır. Bununla əlaqədar müasir beynəlxalq hüquqda mütərəqqi normalar 1989-cu il Uşaq hüquqları Konvensiyasında öz əksini tapmışdır. Uşaq hüquqları Konvensiyasının 29-cu (d) maddəsində qeyd olunur ki, uşağın təhsili azad cəmiyyətdəanlaşma, sülh, dözümlülük, kişi və qadın bərabərliyi, bütün xalqlarla, etnik, milli, dini qruplarla, eləcə də yerli əhali ilə dostluq ruhunda şüurlu həyata hazırlığa istiqamətlənməlidir. [36] Son dövrlər sülh və təhlükəsizlik hüququ kontekstində dövlətlər qadınlara qarşı ayrı-seçkilik yaradan milli qanunlara və siyasətlərə yenidən baxmağı və məişət zorakılığına, qadın və uşaq alverinə, gender əsaslı

---

[36]Convention on the Rights of the Child, https://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx

zorakılığa qarşı qanunvericilik normaları qəbul etməyi öhdələrinə götürürlər.

İnsan ləyaqəti ilə bağlı mühüm müddəalar digər beynəlxalq sənədlərdə, o cümlədən müxtəlif peşə etik kodekslərinin əsasını təşkil edir. [37] Qarşılıqlı olaraq sülh içində yaşamaq da insan ləyaqəti prinsipinə əsaslanır. İnsan ləyaqəti konsepsiyası müharibə fenomeni ilə əlaqədar BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) Konstitusiyasının üçüncü preambular paraqrafına daxil edilmişdir: "Artıq sona çatan böyük və dəhşətli müharibə insanların ləyaqət,

---

[37] American Nurses Association. Code of ethics for nurses with interpretive statements, Provision 1 http://www.nursingworld.org/mainmenucategories/ethicsstandards/codeofethicsfornurses/code-of-ethics.pdf; American Medical Association, Principles of medical ethics, Art. 1 (1957/2001). http://www.ama-assn.org/ama/pub/physician-resources/medical-ethics/code-medical-ethics/principles-medical-ethics.page?

bərabərlik və qarşılıqlı hörmət prinsiplərinin rədd edilməsi və onların yerindəinsanların və irqlərin bərabərsizliyi doktrinasının cəhalət və xurafat yolu ilə təbliğat vasitəsilə bir müharibə mümkün edib.[38]

Sülh və təhlükəsiz yaşamaq hüququ inkişaf və sağlam ətraf mühit hüquqları ilə üzvi surətdə bağlıdır. İnsan hüququ, yəni fundamental fərdi hüquq qismində sülh hüququnu BMT-nin 7 iyul 2017-ci il tarixli "İnsanın sülh hüququ haqqında Santiaqo Bəyannaməsi" elan edir. Bəyannamənin "Hüquq sahibləri" adlanan 1-ci maddəsində qeyd olunur ki, fərdlər, qruplar, xalqlar, azlıqlar və bəşəriyyətin sülh hüququ vardır. Bu, inkişaf və ətraf mühit hüquqları da daxil olmaqla, bütün qəbul edilmiş insan hüquqlarından istifadə etmək üçün vacib şərtdir. Həmin maddənin 2-ci bəndində qeyd olunur ki, insanın sülh hüququ ayrılmaz, universal, bölünməz, bir-birindən asılı və əlaqəli hüquqdur. 3-

[38] UNESCO Constitution (November 16, 1945). http://portal.unesco.org

cü bənddə isə vurğulanır ki, insanın sülh hüququ heç bir fərqləndirmə və ayrı-seçkilik olmadan həyata keçirilməlidir[39].

Sülh və təhlükəsiz yaşamaq hüququnun həmçinin təhsil hüququ ilə də qırılmaz əlaqəsi vardır. Santiaqo Bəyannaməsinin 5-ci maddəsi bu məsələyə toxunaraq qeyd edir: "Bütün xalqlar və fərdlər Bəyannamə və Mədəniyyətlər arasında Sülh və Dialoq Mədəniyyəti üzrə Fəaliyyət Proqramı çərçivəsində hərtərəfli sülh və insan hüquqları təhsili almaq hüququna malikdirlər". Sülh naminə təhsil və ictimailəşmə müharibə və zorakılıqdan qurtulan şəxsiyyət üçün tələb olunan bir şərtdir.

Son illərdə sülh və təhlükəsiz yaşamaq hüququnun insanların ifadə azadlığı, internetə çatım hüquqları ilə də dolayı əlaqəsi yaranmışdır. Virtual aləmdə kiber-təhlükəsizlik son məqamda insanın təhlükəsiz yaşamaq və fəaliyyət göstərmə haqqı

---

[39] The Santiago Declaration on the Human Right to Peace, http://www.transconflict.com

kimi mühüm önəm kəsb edir. Bu mənada informasiya cəmiyyətində hər kəs təhlükəsiz və rahat şəkildə informasiya çatım əldə etməklə, həm sülh hüququ, həm də təhlükəsiz yaşamaq hüququ, şəxsi həyat, ifadə azadlığı hüququ fərqli məna daşıyacaq. Bu xüsusilə COVİD-19 xəstəliyinin pandemiya dövründə özünü tam olaraq təsdiq etdi. Bu mənada hüquq elmləri üzrə fəlsəfə doktoru S. Məcidov qeyd edir ki, hər kəs kibərməkandan təhlükəsiz şəkildə istifadə edərək, öz rahatlığı və haqlarını həyata keçirmək imkanı əladə edir, ətraf aləm haqqındatez və əlçatan bilgilərə sahib olur, ifadə və informasiya azdlığını reallaşdırır, elektron kitabxanalara daxil olaraq mütaliə edə bilir, distant təhsillə özünün təhsil hüququnu reallaşdırır, e-maillə sürətli poçt məlumatları alır və ötürür, elektron xidmətlər vasitəsilə dövlət orqanlarına, o cümlədən məhkəmələrə asan müraciət imkanları,

habelə digər hüquq və üstünlüklər əldə edir.[40] Bütün bunlar əlbəttə, təhlükəsiz yaşamaq hüququ və dolayısı ilə sülh hüququ ilə əlaqəli lan məsələlər kimi çıxış edir.

Beləliklə, buradan aşkar surətdə sülh hüququnun və təhlükəsiz yaşamaq hüququnun mülki və siyasi hüquqlara, eyni zamanda, sosial, iqtisadi və mədəni hüquqlarla sıx qarşılıqlı əlaqəsini və bu hüquqların biri-biri ilə qarşılıqlı asılılığını görmək mümkündür. Ona görə də qeyd olunmalıdır ki, sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı digər insan hüquqlarının realizəsi üçün vacib şərt kimi çıxış etməklə, əslində onların həyata keçirilməsi üçün əlverişli şərait yaradır və bazis rolunu oynayır.

---

[40] Məcidli S.T. İnternet hüququ və etikası. Dərs vəsaiti. Bakı. Elm və təhsil nəşriyyatı 2013, s.40. (224 səh)

## 2.2. Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə milli təcrübə: cari vəziyyət və mövcud problemlər

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə Azərbaycan Respublikasının milli hüququnda və dövlətçilik praktikasında kifayət qədər yetkin mövqelər, prinsiplər, milli təcrübə və qanunvericilik normaları mövcuddur. Ümumiyyətlə qeyd edək ki, Azərbaycan dövləti tarixən sülhsevər dövlət olmuş öz qonşuları ilə daim sülh və əmin-amanlıq şəraitində yaşamağa üstünlük vermişdir. Eyni zamanda, konstitusion təminatlar əsasında ölkəmizdə hər kəsin təhlükəsiz yaşamaq hüququ praktiki-hüquqi baxımdan təmin olunur. Bu isə ölkəmizdə bu sahədə mühüm normalar sisteminin və milli təcrübənin formalaşmasına şərait yaratmışdır.

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı ilə bağlı müddəalar qeyd

olunduğu kimi, ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın preambulasında qeyd olunur: "Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir: ...- ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək".[41] Göründüyü kimi, Azərbaycan milli

[41]Azərbaycan Respublikasının Konstitusiyası, www.e-qanun.az

qanunvericiliyi bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini,insanların azadlığının və təhlükəsizliyinin bərqərar edilməsini istəyərək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək prinsipini özünün əsas fəaliyyət istiqaməti olaraq müəyyən etmişdir.

Bundan əlavə, Konstitusiyamız Azərbaycan Respublikasının sülhpərvər siyasətinin və müharibədən beynəlxalq münaqişələrin həlli vasitəsi kimi imtinanı əsas tutan müddəanı da özündə ehtiva edir. Belə ki, Konstitusiyanın 9-cu maddəsinin 2-ci bəndində vurğulanır: "Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir." Baxmayaraq ki, bu gün Azərbaycan Respublikası Ermənistanın hərbi təcavüzünə məruz qalan ölkədir, lakin onun qanunlarında sülhün təminatı ilə bağlı müddəanın

təsbit olunması və milli siyasətində müharibədən imtinanın əsas fəaliyyət istiqaməti kimi əsaslanılması sülh hüququnun təminatının bariz nümunəsi kimi qəbul edilməlidir.

Sülh və təhlükəsiz yaşamaq hüququnin təminatı ilə bağlı milli təcrübə konstitusiyanın yuxarıda şərh etdiyimiz digər maddələrində də yer almışdır. Həmin hüquqlar sırasında Konstitusiyamızın 31-ci maddəsi ilə hər kəsin təhlükəsiz yaşamaq hüququnun təsbit edildiyi, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətməyin qadağan olunduğu vurğulanmışdır. Təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi isə öz növbəsində Konstitusiyanın 29-cu maddəsində təsbit olunmuş mülkiyyət hüququ, 33-cü maddəsində mənzil toxunulmazlığı, 35-ci maddəsində əmək hüququ, təhlükəsiz və sağlam şəraitdə işləmək hüququ, 39-cu maddəsində əks

olunmuş sağlam ətraf mühitdə yaşamaq və digər konstitusion hüquq və azadlıqların təminatına zəmin yaratdığı diqqətə çatdırılmışdır.

Bundan əlavə, sülh və təhlükəsizlik hüququnun təminatı məsələləri ölkəmizdə qəbul olunan digər normativ hüquqi aktlarda, ayrı-ayrı dövlət qurumlarının fəaliyyət planlarında da qeyd olunmuşdur.

İlk növbədə qeyd edək ki, hüquqi-demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu yolu ilə gedən Azərbaycan sülh mədəniyyətinin bərqərar olduğu bir məkandır. Azərbaycanda sülh mədəniyyətinin formalaşmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. Ulu Öndər böyük Atatürk kimi Cahanda sülh, ölkədə sülh" prinsipinə sadiq dahi şəxsiyyət idi. Ulu Öndər deyirdi: "İyirminci yüzilliyin

sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır".[42]

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, sülhsevər xarici siyasət kursunun əsas leytmotivini dünyada ərazi bütövlüyü prinsiplərinə sadiqlik, siyasi müstəqilliyə qarşı güc tətbiq etmənin yolverilməzliyi, terrorçuluğun bütün təzahürlərinə qarşı barışmazlıq, dinlərarası dialoqun, multikulturalizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, ölkəmizin ərazisində xarici ölkələrin hərbi qüvvələrinin digər ölkələrin təhlükəsizliyinə təhdid vasitəsi kimi istifadə edilməsinin qeyri-mümkünlüyü, insan hüquq və azadlıqlarına hörmət kimi sülhsevər prinsipləri təşkil edir.

---

[42] Ömərov V. İnsan hüquq və azadlıqlarının müdafiəsi və sülh mədəniyyəti. https://sesqazeti.az/news/kivdf/497413.html

Qeyd olunmalıdır ki, ölkəmizdə keçirilən Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, Beynəlxalq Şahmat Olimpiadası, I Avropa Oyunları, "Formula-1 Avropa Qran-Pri" yarışları, Beynəlxalq Humanitar Forumlar, habelə Davos İqtisadi Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısı, İslam Əməkdaşlığı Təşkilatına üzv Ölkələrin Nazirlərinin Toplantısı, Dünya Dinləri Liderlərinin Zirvə görüşləri əlamətdar hadisə, uğurlu ölkə təcrübəsi formalaşdırmaqla yanaşı, sivilizasiyalar arası dialoqa, regionda əldə edilən irəliləyişlərə dəstək, gələcək strateji hədəflərə qlobal yanaşma üçün mühüm töhfə olmaqla ölkəmizdə sülüh və təhlükəsizlik hüququnun təminatı istiqamətində nümunə sayıla biləcək milli təcrübə kimi şıxış edir.

Ölkəmizdə sülh və təhlükəsizlik hüququnun təminatının daha bir bariz nümunəsini bütün dünyanın "COVİD-19" pandemiyası ilə mübarizə

apardığı şəraitdə daha aydın şəkildə gördük. Bu günümüzün aktual problemi kimi korronovirus epidemiyası ilə mübarizədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti, müvafiq sərəncamları və görülən tədbirlər nəticəsində ölkəmizdə insanların təhlükəsiz və sağlam yaşamaq hüququ təmin olunmuşdur.

Sülh və təhlükəsizlik hüququnun təminatı üzrə milli təcrübənin formalaşmasında İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) institutunun da mühüm rolu vardır. Onun insan hüquqlarının, o cümlədən təhlükəsiz yaşamaq hüququnun müdafiəsinin müxtəlif sahələrində səmərəli fəaliyyəti yüksək qiymətləndirilir, bu qurum sülh və təhlükəsizlik hüququnun təminatı üzrə bir sıra işlər həyata keçirir, bu barədə aidiyyəti dövlət qurumları və QHT-lərlə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və müsbət təcrübə mübadiləsinin aparılması, müvafiq qanunvericiliyin

təkmilləşdirilməsi, birgə maarifləndirmə və təbliğat işlərini təşkil etmişdir.

Ombudsman və dövlət qurumları tərəfindən Azərbaycan Respublikasında hər il 21 avqust - 21 sentyabr tarixlərində ənənəvi xarakter daşıyan "Sülh aylığı" əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının, o cümlədən təhlükəsiz yaşamaq hüququnun təbliğinə xidmət edir. "Sülh aylığı" insanlar arasında hüquq mədəniyyəti ilə yanaşı, sülh mədəniyyətini təbliğ etməklə Dayanıqlı İnkişaf Məqsədlərinə xidmət edir. "Sülh aylığı" çərçivəsində müxtəlif qurumlartərəfindən çoxsaylı tədbirlər həyata keçirilmişdir.

Sülh aylığı çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Ədliyyə Akademiyasında, cəzaçəkmə müəssisələrində insan hüquqlarının qorunması, o cümlədən əhalinin hüquq düşüncəsinin və hüquq

mədəniyyətinin inkişaf etdirilməsi, sülh və dözümlülüyün təbliği istiqamətində “İnsanların sülh şəraitində yaşamaq hüququ” və bu kimi müxtəlif tədbirlər təşkil edilmişdir. Bundan başqa, sülh və dözümlülüyün təbliği məsələlərində əhəmiyyətli vasitələrdən biri olan ictimai iştirakçılıq mexanizminə diqqət yetirilərək, Ədliyyə Nazirliyi tərəfindən “İctimai iştirakçılıqla bağlı sənədlər toplusu” dərc edilmiş, bir sıra qurumlara və vətəndaş cəmiyyəti təşkilatlarına təqdim olunmuşdur.Aylıq çərçivəsində Daxili İşlər Nazirliyi tərəfindən peşə hazırlığı məşğələlərində şəxsi heyətə “Beynəlxalq sülh günü”nün yaranma tarixi və əhəmiyyəti, “İnsan hüquqları haqqında ümumi bəyannamə”, “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldanrəftar və ya cəza əleyhinə Konvensiya”, “İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) haqqında” Konstitusiya qanunu, “İnsan hüquqları və azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası”, “Hər

hansı bir formada tutulan və həbs olunan şəxslərin müdafiəsinin Əsas Prinsplәri" haqqında ətraflı məlumat verilmişdir.Müdafiə Nazirliyi tərəfindən Aylıq çərçivəsində Beynəlxalq Sülh Gününün əhəmiyyətinin və Azərbaycan dövlətinin sülhsevər siyasətinin, insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəm verilməsi şəxsi heyətə çatdırılmış, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində "Hüquqi düşüncələr, vətənpərvərlik, milli-mənəvi dəyərlər, sülh və insan hüquqları", "Xalqımızın milli-mənəvi dəyərləri", "İnsan hüquq və azadlıqları", "İnsan haqları" və "Beynəlxalq humanitar hüquq" mövzusunda söhbətlər aparılmış, ayrı-seçkiliyə yolverilməzliyin, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə hərbi qulluqçular arasında tematik gecə keçirilmişdir. Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyasında tədris olunan "İnsan hüquqları", eləcə də "Konstitusiya hüququ",

“Cinayət hüququ”, “Cinayət-prosesual hüquq”, “Cəza-icra hüququ” və s. hüquq fənləri müstəvisində kursant və dinləyicilər, eləcə də əməliyyat-döyüş hazırlığı çərçivəsində məşğələlərə cəlb olunan əməkdaşlar sülhün təmin edilməsi, insan hüquqlarının müdafiəsi, habelə sülh və insanlıq əleyhinə cinayətlərin qarşısının alınması sahəsində qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı bir çox beynəlxalq konvensiyalarla tanış edilmişdir. Daha sonra, “Əsas insan və vətəndaş hüquqları və azadlıqları”, “İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatı”, “İnsan hüquqları ilə bağlı beynəlxalq hüquqi aktların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri” və s. mövzularda mühazirələr oxunmuş, sülh və insan hüquqlarının təbliği istiqamətdə maarifləndirmə işləri aparılmışdır.

“Sülh aylığı” çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə

Müvəkkilinin, Aparatın əməkdaşlarının, Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə silsilə tədbirlər Bakı, Gəncə, Lənkəran, Şəki və Mingəçevir şəhərlərində, eləcə də Qəbələ, Oğuz, Zaqatala, Qax, Göygöl, Goranboy, Cəlilabad, Masallı, Astara, Quba, Şabran və Qusar rayonlarında davam etdirilmiş və bununla bağlı mütəmadi olaraq KİV-lərə məlumat verilmişdir. Ombudsmanın nümayəndələri yerlərdə təşkil olunmuş tədbirlərdə insan hüquqlarına və sülh mədəniyyətinə dair müxtəlif mövzularda məruzələr, çıxışlar etmişlər.Ümumilikdə Ombudsman təsisatı tərəfindən 110-dan çox bəyanat verilmiş və nüfuzlu beynəlxalq təşkilatlara ünvanlamışdır. Həmin bəyanatlarda Azərbaycan dövlətinin sülhsevər siyasət yürütdüyü, respublikamızın Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar

olduğunu dəfələrlə bəyan etdiyi, lakin təcavüzkar Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam etdiyi bildirilmişdir.[43]

Sülh və təhlükəsiz yaşamaq hüququnun təminatı ilə bağlı ölkəmizin beynəlxalq hüquqi əməkdaşlıq şəraitində də bu sahədə bir çox milli təcrübəsi formalaşmışdır. Beynəlxalq təşkilatların - BMT-nin, YUNESKO-nun nizamnamələrində sülh mədəniyyəti öz əksini tapmışdır. BMT nizamnaməsində göstərilir: "Birləşmiş Millətlərin xalqları, gələcək nəsilləri müharibə fəlakətindən xilas etmək qətiyyətilə insanların əsas hüquqlarına, insan şəxsiyyətinin ləyaqət və dəyərinə inam hissini yenidən tətqiq etmək və bu məqsədlərlə dözümlülük nümayiş etdirmək və mehriban qonşular kimi bir-biri ilə dinc yanaşı yaşamaq əzmindəyik".

---

[43] Davamlı sülh insan hüquqlarının səmərəli təmininə xidmət edir, http://www.respublica-news.az

1998-ci ilin sonunda isə yenə də YUNESKO-nun təşəbbüsü ilə 2000-ci ili rəsmən Sülh Mədəniyyəti İli elan etmişdir. Bununla əlaqədar olaraq, Nobel mükafatları laureatlarının təşəbbüsü ilə 2000-ci il sülh manifesti hazırlandı və YUNESKO bu təşəbbüsü bəyəndi. Sülh mədəniyyəti qeyri-zorakılığı, əsas hüquqlara və azadlıqlara hörmət, qarşılıqlı anlaşmaya, dözümlülüyə və həmrəyliyə, qadınların fəal iştiraka cəlb edilməsinə və onlara hakim funksiyaların tapşırılmasına, azad məlumat axınının qəbul edilməsinə və mübadiləsinə əsaslanmış ümumi məqsədlər, məqamlar, nəzərlər və davranışlar məcmusudur. Onu da deyək ki, Azərbaycan Respublikası Sülh Manifestini imzalayan ilk dövlətlərdən biridir.[44]

---

[44] Ömərov V. İnsan hüquq və azadlıqlarının müdafiəsi və sülh mədəniyyəti.

https://sesqazeti.az/news/kivdf/497413.html

Beləliklə, sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə ölkəmizin milli hüququnda və dövlətçilik praktikasında kifayət qədər yetkin milli təcrübə və qanunvericilik normaları var, eyni zamanda, konstitusion təminatlar əsasında hər kəsin təhlükəsiz yaşamaq hüququ praktiki-hüquqi baxımdan təmin olunur. Sülh və təhlükəsizlik hüququnun təminatı üzrə milli təcrübənin formalaşmasında dövlət qurumlarının və Ombudsman təsisatının mühüm rolu təqdirəlayiqdir. Respublikamızda insan hüquqlarının, o cümlədən təhlükəsiz yaşamaq hüququnun müdafiəsinin müxtəlif sahələrində səmərəli fəaliyyəti yüksək qiymətləndirilir, sülh və təhlükəsizlik hüququnun təminatı üzrə bir sıra işlər həyata keçirilir, dövlət qurumları və QHT-lərlə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və müsbət təcrübə mübadiləsinin aparılması, müvafiq

qanunvericiliyin təkmilləşdirilməsi, birgə maarifləndirmə və təbliğat işlərini təşkil edilir. Sülh və təhlükəsizlik hüququnun təminatının daha bir bariz nümunəsini bütün dünyanın “COVİD-19” pandemiyası ilə mübarizə apardığı şəraitdə daha aydın şəkildə görmək mümkündür. Bu günümüzün aktual problemi kimi korronovirus epidemiyası ilə mübarizədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti, müvafiq sərəncamları və görülən tədbirlər nəticəsində ölkəmizdə insanların təhlükəsiz və sağlam yaşamaq hüququ təmin olunmuşdur.

# III FƏSİL
# CƏNUBİ QAFQAZDA SÜLH PROSESİNİN BEYNƏLXALQ HÜQUQİ MƏSƏLƏLƏRİ

*3.1. Cənubi Qafqazda sülh prosesinə təsir edən amillər*

*3.2. Regionda törədilən transmilli cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləri*

## 3.1. Cənubi Qafqazda sülh prosesinə təsir edən amillər

Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması təkcə region üçün deyil, bütövlükdə universal təhlükəsizlik sistemi üçün mühüm məsələdir. Ona görə də, Ermənistan üzərində qələbədən sonra Azərbaycan üçün ən ümdə

diplomatik missiya məhz iki dövlət arasında sülh və təhlükəsizlik mühitinin yaradılmasıdır.

Qeyd edilməlidir ki, sülh prosesinə yönəlik ilk beynəlxalq hüquqi sənəd olan 10 noyabr 2020-ci il tarixli Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış Üçtərəfli Bəyanata görə hərbi əməliyyatların tam dayandırılması, bölgədə sülhməramlı kontingentin yerləşdirilməsi, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verilməsi sülh və təhlükəsizlik baxımından əsaslı beynəlxalq hüquqi öhdəliklərdir.

Sülh, təhlükəsizlik və etimad quruculuğuna dair ikinci mühüm sənəd 7 dekabr 2023-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin

Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə bəyanatı çıxış edir. Həmin sənəddə qeyd olunur ki, Azərbaycan Respublikası və Ermənistan Respublikası regionda çoxdan gözlənilən sülhün əldə olunması üçün tarixi fürsətin yarandığı fikrini bölüşür. İki ölkə münasibətləri normallaşdırmaq, suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında sülh sazişinə nail olmaq niyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində iki ölkə arasında etimad quruculuğu istiqamətində ciddi addımların atılmasına dair razılıq əldə olunub.

Humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, Azərbaycan Respublikası 32 erməni hərbçini azad edir.

Ermənistan Respublikası öz növbəsində humanizm dəyərlərini rəhbər tutaraq və xoşməramlı addım olaraq, 2 azərbaycanlı hərbçini azad edir.

Xoş niyyətin təzahürü olaraq, Ermənistan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyinə öz namizədliyini geri götürərək, Azərbaycan Respublikasının namizədliyini dəstəkləmişdir. Azərbaycan Respublikası və Ermənistan Respublikası ümid edirlər ki, Şərqi Avropa Qrupuna daxil olan digər ölkələr də Azərbaycanın namizədliyini dəstəkləyəcək. Xoş niyyətin təzahürü olaraq, Azərbaycan Respublikası Ermənistanın Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə namizədliyini dəstəkləyir.

Azərbaycan Respublikası və Ermənistan Respublikası yaxın gələcəkdə əlavə etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi üçün müzakirələri davam etdirəcəklər və beynəlxalq

ictimaiyyəti iki ölkənin qarşılıqlı etimadın yaradılmasına töhfə verəcək, bütün Cənubi Qafqaz regionuna müsbət təsir göstərəcək səylərini dəstəkləməyə çağırırlar.[45]

Ümumiyyətlə qeyd edək ki, Ermənistan və Azərbaycan arasında sülhə nail olmaq üçün bir sıra prinsipial məsələlərin beynəlxalq hüquqi cəhətdən leqallaşması zəruridir:

-Yekun sülh müqaviləsinin imzalanması üçün tərəflər heç bir vasitəçi olmadan prosesə başlamalıdırlar.

-Hərbi əsirlərin qaytarılması və mina təhlükəsizliyinin təminatı üçün tərəflər ciddi addımlar atmalıdırlar.

---

[45] Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması, https://azertag.az/xeber/azerbaycan_respublikasi_prezidentinin_administrasiyasi_ve_ermenistan_respublikasi_bas_nazirinin_aparatinin_birge_achiqlamasi-2844025

-İki ölkə arasında sərhədlərin delimiztasiya və demarkasiya məsələləri öz həllini tapmalıdır.

-İki ölkə arasında iqtisadi, ticarət və s münasibətlərin ilkin elementləri formalaşdırılmalıdır.

-Azərbaycan Prezidenti cənab İlham Əliyevin "Cənubi Qavqaz evi" ideyası sülh üçün təməl konsepsiya hesab edilməlidir.

## 2.3. Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləri

Müasir beynəlxalq hüquqda, sülh və təhlükəsizliyə, insan hüquq və azadlıqlarının təminatına, o cümlədən sülh hüququ və təhlükəsiz yaşamaq hüququna ən böyük və ciddi təhdidləri beynəlxalq cinayətlər yaradır. Bu mənada

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlər nəinki, Azərbaycan Respublikası, həmçinin Cənubi Qafqaz regionu da daxil olmaqla, bütövlükdə Avropa ölkələri və bütün bəşəriyyət üçün təhlükə hesab edilir. Ona görə də bu paraqrafda biz Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətlərinə toxunacağıq.

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətlərindən ən başlıcası bu cinayətlərin milli qanunvericiliyə düzgün implemetasiya məsələləridir. Bu sahədə tanınmış alim, hüquq elmləri üzrə fəlsəfə doktoru Rahim Məmmədov qeyd edir ki, "beynəlxalq cinayətlərin əksəriyyəti,

deمək olar ki, hamısı xalqımızın başına gətirilib. Ərazimiz işğal olunub, yəni təcavüz faktı var. Təkcə Xocalıda deyil, Azərbaycanın müxtəlif bölgələrində soyqırımı törədilib. Müharibə cinayətləri, insanlıq əleyhinə cinayətlər törədilib". Bu cinayətlərin Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə transformasiya məsələsinə toxunan hüquqşünas alim qeyd edir ki, 2000-ci ildə yeni cinayət məcəlləmiz qüvvəyə minəndə gördük ki, CM-nin 7-ci hissəsinin xüsusi bölməsi sülh və insanlıq əleyhinə cinayətlər adı ilə başlayır və 100-cü maddədən 119-cu maddəyə qədər olan hissədə həm təcavüz, həm soyqırımı, həm insanlıq əleyhinə cinayətlər, həm də müharibə cinayətlərindən bəhs edilir"[46].

İlk növbədə qeyd etmək lazımdır ki, sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün müasir beynəlxalq hüquqda ən ağır beynəlxalq

---

[46] Rahim Məmmədov. İnsanlıq əleyhinə cinayətlər, http://1905.az

cinayətlərdən biri təcavüz cinayətidir. Regionda isə 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi təcavüz cinayəti sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün bu gün də ən böyük təhlükə mənbəyi olaraq qalmaqdadır.

Hüquq elmləri üzrə fəlsəfə doktoru S. Məcidov Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar və onların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləri əlaqədar qeyd edir ki, müstəqil dövlətçiliyimiz üçün siyasi-diplomatik və demokratik tərəqqi baxımından son 20 il əlamətdar hadisələrlə zəngin olmuş, ölkəmiz müxtəlif nüfuzlu beynəlxalq təsisatların, həmçinin BMT-nin işində də fəal iştirak etmişdir.[47] Belə ki, sülh və təhlükəsiz yaşamaq hüququ ilə bağlı Azərbaycan

---

[47]Məcidli S.T. “Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918-2018-ci illər)”. Bakı: 2018. Səh.84, 245 səh.

Respublikasınınmilli siyasətində ən mühüm istiqamət beynəlxalq təşkilatlarla həyata keçirilən fəaliyyətdir. 24 oktyabr 2011-ci il tarixdə BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə görə Azərbaycan 2012-2013-cü illərdə Şərqi Avropa bölgəsini Təhlükəsizlik Şurasında təmsil edən qeyri-daimi üzv seçilmişdir. Ölkə Prezidenti İ. Əliyev BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini xalqımızın bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və ən sanballı qələbə adlandırmışdır: “Bu qələbə bizim həm ölkə daxilində, həm də beynəlxalq aləmdə gördüyümüz bütün işləri əks etdirir. Müstəqilliyin 20 ili ərzində biz buna nail olmuşuq ki, 155 ölkə bizim namizədliyimizi dəstəkləmişdir. Əlbəttə, bu məsuliyyət bizim üzərimizə yeni funksiyalar qoyur. Təhlükəsizlik Şurasında üzvlüyümüzün praktik səmərəsi olacaqdır. Özü də təkcə ölkəmizin maraqlarını müdafiə etmək üçün yox. Biz həm də qlobal miqyasda sülhün, təhlükəsizliyin,

əməkdaşlığın möhkəmlənməsi işinə töhfəmizi verəcəyik”.[48] Dövlət başçısı bəyan etmişdir ki, çalışacağıq qarşıdaki iki il ərzində həm Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində, həm də qlobal miqyasda sülhün, əməkdaşlığın qorunmasında bu nüfuzlu qurumun işinə töhfələr verək. Göründüyü kimi, artıq beynəlxalq birliyin nüfuzlu aktoru olmaqla Azərbaycan nəinki Ermənistanın Azərbaycana hərbi təcavüzü məsələsini, eyni zamanda bütün beynəlxalq birliyin sülh və təhlükəsizlik problemlərinin həllinə qadir və cavabdeh dövlət kimi çıxış edir. Bu isə Azərbaycanın sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə həm beynəlxalq hüquqi fəaliyyətdə, həm də milli siyasətdə söz sahibi olmasının bariz nümunəsidir.

---

[48] Prezident İlham Əliyev: Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi müstəqil dövlətimizin bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir, https://azertag.az

Beləliklə, təcavüzə məruz qalmış Azərbaycan BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun olaraq TŞ qarşısında Ermənistanın məsuliyyəti məsələsini qaldıra bilər və TŞ təcavüzkara qarşı məcburiyyət tədbirləri görmək səlahiyyətinə malikdir. Eyni zamanda, sülh və təhlükəsizliyə münasibətdə, o cümlədən təcavüzə dair BMT Baş Assambleyasının da beynəlxalq hüquqda və beynəlxalq münasibətlər sistemində özünəməxsus rolu var və BMT Nizamnaməsinə uyğun olaraq, Baş Assambleya situasiyaların dinc yolla nizama salınması üçün tədbirlər görülməsi ilə bağlı tövsiyələr vermək səlahiyyətinə malikdir. Digər tərəfdən, Ermənistan dövlətinin beynəlxalq hüquqi məsuliyyəti və onun rəhbər şəxslərinin fərdi qaydada mühakimə olunması üçün BMT çərçivəsində qəbul olunan qərarlara və BMT TŞ tərəfindən çıxarılan qətnamələrə əsasən Azərbaycana qarşı törədilən təcavüzə, habelə soyqırımı, insanlıq əleyhinə cinayətlər və müharibə cinayətlərinə görə ad hoc

əsaslarla xüsusi Beynəlxalq Tribunalın yaradılması imkanları da nəzərdən keçirilə bilər. Fikrimizcə Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərlə əlaqədar beynəlxalq məhkəmələr tərəfindən ədalətli qərarın qəbul edilməsi ölkəmizdə və ümumilikdə regionda həm xalqların, həm də fərdlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün müstəsna əhəmiyyət kəsb edəcək.

Qeyd olunduğu kimi, regionda və ölkəmizdə sülh hüququnun və təhlükəsiz yaşamaq hüququnun təminatı isə təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Ölkə başçısının istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyondan çox qaçqın və məcburi köçkünlərin icmaları ilə hər dəfə görüşəndə səsləndirdiyi və

bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunudəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini nümayiş etdirir. 1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, buna ermənilər tərəfindən əməl edilmir. Cəbhə bölgəsində baş verən hadisələr, təxribatlar, mülki əhaliyə qarşı silahlı hücumlar ermənilərin təcavüzkar və sülhə yönəlməyən siyasət yürütdüklərini bir daha sübut edir. Bu isə təbii ki, sülh və təhlükəsizlik hüququnun təminatına ən böyük maneələrdən biridir.

Sülh və təhlükəsiz yaşamaq hüququ üçün müasir beynəlxalq hüquqda ən təhlükəli beynəlxalq cinayətlərdən biri də soyqırımı cinayətidir. Bu cinayət zaman-zaman Ermənistanın Azərbaycan

Respublikasına qarşı törətdiyi cinayətlərdən olub sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün bir çox fəsadlar yaratmışdır. Azərbaycanın XX əsr tarixinə diqqət yetirsək ermənilər tərəfindən azərbaycanlıların sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun pozuntusuna dair yüzlərlə faktlar görə bilərik.

Bütün XX əsr boyu sülh və təhlükəsizlik, insanların dinc yanaşı yaşamaq hüququ ermənilər tərəfindən 1918-ci il mart soyqırımları (Bakı, Quba, Şamaxı, Cavad və Astara bölgələrində), Bağanıs Ayrım soyqırımı (24 mart 1990-cı il), Qaradağlı soyqırımı (17 fevral 1992-ci il), Xocalı soyqırımı (26 fevral 1992-ci il), Ağdaban soyqırımı (8 aprel 1992-ci il) ilə kobud və kütləvi şəkildə pozulmuşdur.

1918-ci il mart soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar bu cinayətlərə beynəlxalq hüquqi və siyasi məsuliyyətin reallaşması üçün imkanlar açır. Məsələn, Şamaxıda 1918-ci ilin

mart-aprel aylarında öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərində 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Elmi tədqiqatlarla müəyyən edilib ki, erməni cinayətkarları - S.Şaumyan, S.Lalayev, Z. Arestisyan, T.Əmirov və A.Əmiryan qardaşlarının rəhbərliyi ilə Şamaxı şəhərində təqribən 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfər qətlə yetirilib. Şamaxı qəzasından didərgin düşənlərin

sayı isə 18 min nəfərdən çox olub.[49] Qeyd olunan cinayətlərin fəsadları bu gün də qalmaqdadır və beynəlxalq təşkilatlar çərçivəsində araşdırılmaması müasir dövrdə sülh və təhlükəsiz yaşamaq hüququ üçün ağır fəsadlar yaradır.

Bu sahədə mühüm elmi araşdırmalar aparan azərbaycanlı alim, hüquq üzrə elmlər doktoru, professor Əmir Əliyev "Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil" əsərində qeyd edir ki, 1918-ci il hadisələri və ermənilərin soyqırımı siyasəti təkçə azərbaycanlıların məhv edilməsi ilə məhdudlaşmır, eyni zamanda Azərbaycanda yaşayan digər etnik və milli qrupların da qətlə yetirilməsinə gətirib çıxarmışdır.[50] Hüquqşünas alim öz mövqeyini Azərbaycan yəhudi icmasının ölkə Prezidentinə

[49] Həqiqət anı: azərbaycanlıların 1918-ci il soyqırımından 100 il ötür, http://www.ikisahil.com

[50] Əliyev Ə.İ. "Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil". Bakı-2018.

ünvanladığı məktubda göstərilən faktlarla (orada qeyd olunur ki, 1918-1919-cu illər ərzində törədilən Quba soyqırımı zamanı 3 minə qədər yəhudi qətlə yetirilmişdir) əsaslandırmış və qeyd etmişdir ki, bu fakt öz-özlüyündə ermənilərin xalqımıza qarşı soyqırımı siyasətinin miqyasının genişliyini və niyyətin bütövlükdə məhvetmə olduğunu tam aydın şəkildə sübut edir. Göründüyü kimi, bu cinayətlərin fəsadlarından biri də xalqlar arası sülh və təhlükəsizliyi təhdid altında qoymasıdır.

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlar XX əsrin sonlarında daha qabarıq şəkildə özünü büruzə vermişdir. 24 mart 1990-cı ildə Qazax rayonunun Bağanıs Ayrım kəndinə silahlı hücum edərək, müxtəlif cinayətlər törətmişlər. Təkçə Qazax rayonunun 7 kəndini (Bağanıs Ayrım -24 mart 1990, Xeyrimli – 08 mart 1992, Barxudarlı-27 aprel 1992, Sofulu -27 aprel 1992, Qızıl Hacılı – 11

may 1992, Yuxarı Əskipara – 06 iyun 1992, Aşağı Əskipara – 14 iyun 1992) işğal etmişlər. Dördüncüsü isə, bu silahlı hücumun nəticəsi olaraq, Bağanıs Ayrımda məhz türk kökənli insanlar kütləvi soyqırıma məruz qalmışdır.

Bundan sonrakı fəsadlar Azərbaycanın digər bölgələrində də özünü göstərmişdir. 1992-ci il fevralın 17-də Ermənistan Xankəndində yerləşən Rusiyaya məxsus 366-cı motoatıcı alayın köməkliyi ilə respublikamızın Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücum edərək, orada yaşayan etnik azərbaycanlılara qarşı soyqırım aktı həyata keçirdi. Ermənistan silahlı qüvvələri tərəfindən Qaradağlı kəndinə edilən təcavüz aktı nəticəsində 118 nəfər əhalisi olan kəndin hamısı əsir götürülüb, əsirlərdən 66 nəfəri amansızlıqla, ağır işgəncələrlə qətlə yetirilib, 2 ailədən hər birindən 4 nəfər həlak edilib.

42 ailə, ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb.[51]

Sülhə və təhlükəsiz yaşamaq hüququna xələl gətirən ən ağır cinayətlərdən biri 1992-ci il 26 fevral tarixində Ermənistan tərəfindən azərbaycanlılara törədilmiş Xocalı soyqırımıdır. Bu cinayət geniş əhatəliliyi və sistematikliyi ilə fərqlənən, dunya dövlətləri tərəfindən hələ də cinayət olaraq tam etiraf olunmayan beynəlxalq cinayətdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alay şəhərə hücum edərək insanların sülh hüququ və təhlükəsiz yaşamaq hüququ kobud şəkildə pozulmuş, insanlar xüsusi qəddarlıqla qətlə yetirilməklə ən ağır beynəlxalq cinayət törədilmişdir. Bu soyqırımı nəticəsində, rəsmi rəqəmlərə görə, 613 nəfər

[51] Qənirə Paşayeva, Şaiq Aslanov. Qaradağlı Soyqırımı: Şahidlərin dili ilə. Bakı, "Elm və təhsil", 2013, səh.5

öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. Bunların içərisində 8 ailə tamamilə məhv edilmiş, 56 insan işgəncə ilə öldürülmüş, 27 ailənin yalnız 1 üzvü qalmış, 25 uşaq hər iki valideynini itirmiş, 130 uşaq valideynlərindən birini itirmiş, 230 ailə öz başçısını itirmiş, 487 insan şikəst olmuş (onlardan 76 nəfər həddi-buluğa çatmamışlardır), 1275 insan əsir götürülmüş, 150 nəfərin taleyindən indiyə kimi heç bir məlumat yoxdur.[52]

Qeyd olunmalıdır ki, Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyil, sülh və bəşəriyyət əleyhinə törədilmiş qanlı cinayətdir. Xalqımıza qarşı törədilən bu soyqırımı ilkin olaraq azərbaycanlıların, sonra isə bütün bəşəriyyətin sülh hüququna və insanların təhlükəsiz yaşamaq haqqına qarşı beynəlxalq cinayət hesab olunur.

---

[52] Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması, https://azertag.az/

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi bu cinayətin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadları faktlar əsasında qeyd etdik. Bu cinayətin fəsadlarının aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətlərinə münasibətdə isə qeyd olunmalıdır ki, arqumentlər bizə əsas verir ki, müxtəlif vaxtlarda azərbaycanlılara qarşı törədilən yuxarıda adlarını sadaladığımız beynəlxalq cinayətlərə görə konkret iddialarla çıxış edilməlidir. Çünki, bu faktlar bütün beynəlxalq sənədlərin tələblərini kobudcasına pozan və orada nəzərdə tutulan cinayət tərkiblərinə uyğun gələn, xarici ölkə parlamentlərində tanınacaq kifayət qədər detallar, video, audio və mətbu materialları özündə əks etdirir. Baş verən cinayətlərə kompleks yanaşmaqla ad hoc hərbi tribunal və ya digər xüsusi məhkəmə mexanizmlərinin yaradılmasını zəruri hesab edirik.

Erməni vəhşiliklərini əks etdirən materialların beynəlxalq təşkilatlar qarşısında nümayiş

etdirilməsi məqsədi ilə xarici ölkələrdə bir sıra tədbirlər həyata keçirən Heydər Əliyev Fondu soyqırımla bağlı materialların xaricdə sərgisini, ingilis dilində nəşr olunan kitab və bukletlərin yayımını təşkil etmişdir. Xüsusilə, hər il Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən və əsas məqsədi Xocalı qətliamının bəşəriyyətə qarşı törədilmiş ən ağır cinayət kimi dünyada tanıdılması olan "Xocalıya ədalət" beynəlxalq kampaniyası uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrindən könüllülər qoşulmuş, kampaniyanın eyniadlı saytının birinci səhifəsində dünya liderlərinə, beynəlxalq təşkilatlara ünvanlanan petisiyanı yüz minlərlə insan imzalamışdır.

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadların aradan qaldırılması üzrə milli siyasətin əsas istiqamətləriilə bağlı ölkə Prezidentinin verdiyi

tapşırıqlar qarşımızda yeni vəzifələrin reallaşdırılmasını zəruri edir.

Bu cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadların aradan qaldırılması üçün hərbi cinayətkarların məsuliyyətə cəlb olunmasıdır. Beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğu Xocalı soyqırımı ilə bağlı aparılan cinayət təqibi zamanı 7 minədək istintaq hərəkəti həyata keçirilib, o cümlədən 1771-i şahid və 2699-u zərərçəkmiş şəxs qismində olmaqla 4470 nəfər dindirilib, 800-dən artıq müxtəlif növ ekspertiza keçirilib, digər istintaq hərəkətləri icra olunub.[53] Nəticədə 39 nəfər rəsmi şəxsin və 8 mülki vətəndaşın Xocalı soyqırımında iştirakı tam sübuta

---

[53] Hərbi Prokurorluqda Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar elmi-praktiki konfrans keçirilib, https://azertag.az/

yetirilib və onların əksəriyyətinin Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü (soyqırım) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilməsi barədə qərar çıxarılıb.

Ümumiyyətlə, Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlardan danışarkən sülh və insanlıq əleyhinə cinayətlərin tərkibinə də toxunmaq zəruridir. Professor N.A. Traynin belə cinayətləri üç müstəqil növə ayırır: sülh əleyhinə cinayətlər, müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər. [54] Qeyd olunan cinayətlərə Nürnberq tribunalının Nizamnaməsində aydınlıq gətirilmişdir. Nürnberq Beynəlxalq hərbi Tribunalı Nizamnaməsinin 6-cı maddəsində Tribunalın yurisdiksiyasına aşağıdakı beynəlxalq cinayətlər aid

---

[54]Трайнин А.Н. Защита мира и уголовный закон. - М., 1969. S.123. (337)

edilmişdi:[55] sülh əleyhinə cinayətlər – təcavüzkar müharibənin və ya beynəlxalq müqavilə, saziş və etimadnamələri pozmaqla müharibənin planlaşdırılması, hazırlanması, başlanması və ya yuxarıda sadalanan fəaliyyətin hər hansı birinin həyatakeçirilməsinə yönəlmiş ümumi planda və qəsdlərdə iştirak etmək; müharibə cinayətləri – müharibə qanun və ya adətlərini pozmaq, bu pozuntularla işğal olunmuş ərazinin mülki əhalisini öldürmək, işgəncə vermək, qula çevirmək və ya başqa məqsədlə aparmaq, hərbi əsirlər və ya dənizdə olan şəxsləri öldürmək və ya onlara işgəncələr vermək, girovları öldürmək, ictimai və ya şəxsi əmlakı talamaq, şəhər və kəndləri mənasız dağıtmaq, hərbi zərurətlə əlaqədar olmayan talançılıqvə başqa cinayətlər; insanlıq əleyhinə cinayətlər – müharibəyə qədər və ya müharibə

---

[55] Bassioini M. Cherif. International Crimes: Jus Cogens and Obligatio Erga Omnes // Law & Contemp. Prob, 1996. S.86, (456)

zamanı adamöldürmə, işgəncə vermə, kölə vəziyyətinə salma, deportasiya və digər qeyri-insani hərəkətlər və ya siyasi, irqi və ya dini motivlərə əsasən, mülki əhalini təqibetmə.

Ermənistanın Azərbaycan Respublikasına qarşı törətdiyi cinayətlərin sülh hüququ və təhlükəsiz yaşamaq hüququ üçün yaratdığı fəsadlardan danışarkən ermənilərin digər cinayətləri də diqqətdən yayınmamalıdır. Bunlardan biri də insanlıq əleyihinə cinayətlərdir. Ermənistan tərəfindən törədilən insanlıq əleyhinə cinayətlər aşağıdakı qrup cinayətlərdir: 1) Ermənistanın deportasiya cinayətləri;2) Ermənilərin törətdiyi işgəncə cinayətləri; 3) Ermənilərin adamöldürmə və əhalini məhvetmə cinayətləri və s.[56]

Prof. Ə. Əliyev qeyd edir ki, Ermənistanın tarixən orada yaşayan azərbaycanlılara qarşı

---

[56] Məcidli S.T. "Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918-2018-ci illər)". Bakı: 2018. Səh 177, 245 səh

törətdiyi insanlıq əleyhinə cinayətlərə gəldikdə, burada hansısa növ əməlin həyata keçirilməsindən deyil, baş vermiş həmin cinayətləri kompleks və bir-biri ilə qarşılıqlı əlaqədə nəzərdən keçirmək zəruridir. Belə ki, ilk öncə adamöldürmə formsında törədilən bu cinayətlər sonradan əhalinin məhv edilməsi və depotasiyaya çevrilmişdir. Şübhəsiz ki, baş verən cinayətlər həm də insanlıq əleyhinə cinayətlərin tərkib hissəsi kimi kütləvi şəkildə işgəncə, təqibetmə, adamların məcburi yoxa çıxarılması, habelə digər qeyri-insani hərəkətlərə yol verilməsi kimi ictimai təhlükəli əməllərin törədilməsi ilə müşayiət edilmişdir.[57]

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnu pozan cinayətlərdən biri də müharibə cinayətləridir. Ermənilərin transmilli cinayətlərini, o cümlədən müharibə və hərbi cinayətlərini araşdıran yuxarıda qeyd etdiyimiz birgə istintaq-əməliyyat qrupunun

[57] Əliyev Ə.İ. "Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil". Bakı-2018.

məlumatında bildirilir ki, qeyd olunan hadisələr üzrə cinayət işlərinin istintaqı zamanı beynəlxalq humanitar hüquqla müdafiə olunan mülki və digər şəxslərə qarşı amansız rəftar edildiyindən Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə sıx əlaqə yaradılmış, Dövlət Komissiyasından daxil olmuş siyahının istintaq materialları ilə müqayisəsi aparılmışdır. Əsirlikdən azad olmuş, lakin indiyədək dindirilməmiş şəxslərin dindirilməsi, erməni silahlı birləşmələrinin üzvləri tərəfindən əsir və girov götürülərək işğal olunmuş Dağlıq Qarabağ, eyni zamanda, Ermənistanın ərazisində beynəlxalq hüquq normalarına zidd olaraq Azərbaycan Respublikasının vətəndaşlarına işgəncələr vermiş, qəddar və qeyri-insani rəftar etmiş, onların ləyaqətlərini alçaltmış, fiziki ağrılar və psixi istirablar vermiş şəxslərin dairəsinin müəyyənləşdirilməsi yönündə, habelə bir sıra epizodlar üzrə şübhəli şəxslər barədə digər zəruri

sənədlərin işə əlavə olunması ilə bağlı tədbirlər həyata keçirilir".[58]

Təhlükəsiz yaşamaq hüququnun pozulması və beynəlxalq hümanitar hüquq normalarının pozulması ilə müşayiət olunan və beynəlxalq ekoloji təhlükəsizlik problemi ilə bilavasitə əlaqəli olan Ermənistanın müharibə cinayətlərindən biri də Sərsəng su anbarına ermənilərin qanunsuz müdaxiləsidir. Göründüyü kimi Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini işğal etməklə və işğal altında olan əraziləri hərbi zərurət olmada dağıtmaqla həm də müharibə cinayətləri törətmişlər.[59] Bu isə birbaşa sülh hüququnun və təhlükəsiz yaşamaq hüququn kobud pozuntusudur. Bununla əlaqədar professor Əmir Əliyev qeyd edir

---

[58] 80377 saylı cinayət işi erməni vəhşiliklərini əks etdirən faktlarla zəngindir , Azərbaycan.- 2009.- 29 oktyabr.- S. 5.

[59] Allahverdiyev Ə. Sərsəng su anbarına ermənilərin qanunsuz müdaxiləsi: Müharibə cinayətləri və beynəlxalq ekoloji təhlükəsizlik problemi, http://1905.az

ki, Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərini təhlil edərkən ilk növbədə ətraf mühitə genişmiqyaslı, uzunmüddətli və ciddi ziyan vurulmasına səbəb olan qəsdən hücumların edilməsini xüsusilə vurğulamaq lazımdır.[60]

Beləliklə, ermənilərin Azərbaycana qarşı törətdikləri bütün cinayətlərinin yalnız son dövrlər üçün və yalnız bəzilərini misal olaraq çəkdik. Bütün digər təfərrüatları ilə beynəlxalq konvensiyaların transmilli cinayətlərinə aid olan bütün müddəaları Ermənistanın işğal altında olan ərazilərdə törətdiyi əməllərə şamil olunur və bu cinayətlər onların bütün əməllərinin tərkibində sülh hüququn və təhlükəsiz yaşamaq hüququnun real pozuntusu özünü açıq şəkildə, hətta bütün dünya ictimaiyyətinin etiraf etdiyi şəkildə biruzə verir, baş verən bütün cinayətlərin fəsadları isə hələ də qalmaqda davam edir.

---

[60] Əliyev Ə.İ. "Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil". Bakı-2018.

# IV FƏSİL
# SÜLH ƏLEYHİNƏ CİNAYƏTLƏR.

*4.1. Sülh əleyhinə cinayətlərin anlayışı və təsnifatı*

*4.2. Sülh və təhlükəsizlik əleyhinə cinayətlər (təcavüz, genosid, terror, müharibə cinayətləri və s.)*

## 4.1. Sülh əleyhinə cinayətlərin anlayışı və təsnifatı

Sülh əleyhinə cinayətlər özünün elmi-praktiki mahiyyətinə görə müasir beynəlxalq hüquqda, o cümlədən beynəlxalq cinayət hüququnda kifayət qədər ciddi konsepsiyalardan biri hesab edilir.

Buna görə də, beynəlxalq və milli hüquqda mühüm əhəmiyyəti nəzərə alınaraq, beynəlxalq cinayətlərin, o cümlədən sülh və insanlıq əleyhinə cinayətlərin anlayışına diqqət yetirək.

Tanınmış beynəlxalq hüquq alimlərindən M. Cherif Bassiouni, F.Martens, F.List, N.Korkunov, A. Traynin, A. Zahar, İ. Lukaşuk və başqaları[61] beynəlxalq cinayətlərlə bağlı maraqlı konseptual fikirlər irəli sürmüş və təməl prinsiplər işləyib hazırlamışlar. Ümumiyyətlə, bu sahəni tədqiq edən beynəlxalq hüquqşünas alimlərə görə, beynəlxalq cinayətlərə bir dövlətin digər dövlətlərə və dünya nizamına qarşı müharibə elan etmədən və kifayət qədər əsaslar olmadan həyata keçirdikləri zorakılıq istəklərini və zoraıkılıq hərəkətlətini aid etmək olar.

---

[61] International Criminal Law, by M. Cherif Bassiouni (Editor) Published December 15th 2008 by Martinus Nijhoff Publishers; Martens, F. De (1883). Traité de droit international traduit du russe par Alfred Lèo. Paris: Librairie A. Marescq. Aine. Retrieved 25 October 2017 – via Internet Archive.; International Criminal Law: A Critical Introduction by Alexander Zahar, Göran Sluiter. Oxford University Press, 2007.

Beynəlxalq cinayətin tərifi müxtəlif mənbələrdə[62] fərqli tərzdə verilir. Məsələn, nüfuzlu hüquq portalı “Duhaime's Law Dictionary” beynəlxalq cinayəti “birdən artıq dövlətin sülh və ya təhlükəsizliyinə təsir edən və ya beynəlxalq qurumların təhqiqat və ittihamı əsasında təbiəti etibarilə ictimai təhlükəli sayılan əməl” [63] kimi xarakterizə edir.

Professor M.İ Lazerev beynəlxalq cinayəti hər bir xalqın müstəqilliyinə və onlar arasında dinc müna-sibətlərə qəsd edən əməl kimi xarakterizə

---

[62] International Criminal Law, Book by Ilias Bantekas and Susan Nash, Originally published: 2001; International Criminal Law, Textbook by Douglas Guilfoyle, Published: 2016; An Introduction to International Criminal Law and Procedure, Textbook by Darryl Robinson, Elizabeth Wilmshurst, Hakan Friman, and Robert Cryer, Published: 2007.

[63] International Crime Definition, http://www.duhaime.org

edir.[64] Professorla bu mənada razılaşmaq olar ki, əslində beynəlxalq cinayətin qəsd obyekti beynəlxalq sülh və təhlükəsizlik, dolayısı ilə dövlətin müstəqilliyi və suverenliyi, dinc yanaşı yaşama və s. çıxış edir.

Qeyd edək ki, beynəlxalq cinayətlər əslində bütün hallarda xalqlararası sülh və əmin amanlığı pozmaqla, bütövlükdə insanlığa, bəşəri dəyərlərə qarşı yönələn əməllər sayılır. Təsadüfi deyl ki, görkəmli beynəlxalq hüquqşünas alim, professor A.N.Traynin beynəlxalq cinayətin anlayışını verərkən, onları insanlıq əleyhinə cinayətlər adlandırırdı. Əlbəttə, müasir beynəlxalq hüquqda "bəşəriyyət" və "insanlıq" terminləri ilə də bağlı müəyyən mübahisələr və fikir ayrılıqları qalmaqdadır.

---

[64] Лазарев М. И. Империалистические военные базы на чужих территориях и международное право. М.: Изд-во ИМО.. 1963

Hüquq üzrə elmlər doktoru, professor Lətif Hüseynova görə isə “beynəlxalq cinayət – ayrı-ayrı dövlətlərin hüquqlarını və qanuni mənafelərini, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını kobud və ya kütləvi şəkildə pozan, hüquqi tərkibi beynəlxalq hüquq normalarında müəyyən olunmuş, beynəlxalq hüquqa zidd olan əmələ deyilir”.

Aydındır ki, ictimai qaydanın tənzimlənməsi və cəmiyyətin cinayətkər qəsdlərdən qorunması məqsədi ilə hər bir ölkənin öz milli cinayət hüquq sistemi və normaları mövcuddur. Bəs, o zaman cinayətkalıqla mübarizədə beynəlxalq cinayət hüququnun missiyası nədən ibarətdir?

Beynəlxalq cinayət hüququnu beynəlxalq hüququn yeni sahəsi kimi xarakterizə edən prof. L.Hüseynov yazır ki, bu sahədə ayrı-ayrı normalar artıq XIX əsrdə yaranmağa başlamışdır: “Beynəlxalq cinayət məcəlləsinin ilk layihəsi hələ 1832-ci ildə ortaya çıxmışdı, lakin o zaman söhbət, əsas etibarilə, narkotik maddələrlə alver, qul alveri

və s. kimi cinayətlərdən gedirdi. Sözü gedən hüquq sahəsinin inkişafına birinci dünya müharibəsi müəyyən təkan verdi. Belçika, İngiltərə, Rusiya və Fransa hökumətlərinin yaratdıqları xüsusi istintaq komissiyaları Almaniya tərəfindən müharibədə adət və qanunların kütləvi şəkildə və kobud pozulması faktlarını aşkara çıxardı".

Göründüyü kimi, beynəlxalq cinayətlərin əslində beynəlxalq hüquqda yaranma tarixi daha öncəki dövrlərə gedib çıxır. Lakin "sülh və bəşəriyyət əleyhinə cinayətlər" konsepsiyası (Qeyd edək ki, 2 iyul 2001-ci il tarixli Qanunla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin VII bölməsinin və on altıncı fəslinin adlarında "bəşəriyyət" sözü "insanlıq" sözü ilə əvəz edilmişdir) isə II dünya müharibəsindən sonrakı beynəlxalq hüquq qaydasının məhsuludur. Xüsusi qeyd olunmalıdır ki, sülh əleyhinə olan cinayətlər bilavasitə müharibələrdən sonra beynəlxalq münasi-bətlər sistemində özünü biruzə verir və bu

cinayətlərə görə yursidiksiyanın həyata keçirilməsi də məhz bu proseslərin nəticəsi kimi meydana gəlir. Məsələn, fərdi qaydada şəxsin beynəlxalq cinayət məsuliyyəti məsələsi ikinci dünya müharibəsindən sonra reallaşmışdır.

Bu isə öz növbəsində məhz sülh və bəşəriyyət əleyhinə cinayətlərdə təqsirli bilinən şəxslərin beynəlxalq hüquqi məsuliyyətinə aid bir məsələ kimi meydana gəldi. II dünya müharibəsində beynəlxalq sülh və təhlükəsizliyin pozulmasına görə təqsirləndirilən şəxslər üçün xüsusi beynəlxalq tribunallar - Nürnberq (1945) və Tokio (1946) tribunalları təsis edildi. Sülh və insanlıq əleyhinə cinayətlər üzrə yurisdiksiyanın həyata keçirilməsi ilə bağlı müstəsna presedent hüququ da məhz bu tribunalların təcrübəsində formalaşdı.

Terminoloji baxımdan burada bir neçə məsələyə aydınlıq gətirilməsi zəruridir. Beynəlxalq hüquq ədəbiyyatlarında "sülh əleyhinə cinayətlər", "insanlıq əleyhinə cinayətlər" elmi baxımdan bir-

birindən fərqləndirilir.[65] Hətta bəzi mənbələrdə bu kateqoriya cinayətlər “sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər” də adlandırılır.

Beynəlxalq hüquq əbəbiyyatlarında beynəlxalq cinayətlər aşağıdakı əsas qruplara bölünür:

1. Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər (təcavüz, genosid, Brləşmiş Millətlər Təşkilatı (BMT) heyətinə qarşı cinayətlər, terrorizm, müharibə cinayətləri və s.)

2. Dövlətin iqtisadi və sosial inkişafına zərər yetirən cinayətlər (saxta pul və qiymətli kağızların hazırlanması, qanunsuz gəlirlərin leqallaşdırılması,

---

[65] The International Criminal Court: An Introduction, Book by Andrew Novak, Published: 2015; An Introduction to the International Criminal Court, William A. Schabas, Cambridge University Press-2017; The Nuremberg Military Tribunals and the Origins of International Criminal Law, Book by Kevin Jon Heller, Published: 2011.

narkotiklərin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq və s.)

3. İnsanlıq əleyhinə cinayətlər (adamöldürmə, əhalini məhv etmə, deportasiya, ayrı-seçkilik, köləlik, qul alveri, qadın və uşaq alveri, fahişəliyin üçüncü şəxslər tərəfindən istismarı, işgəncələr, insan hüquqlarının sistematik və kütləvi şəkildə pozulması və s).

4. Açıq dəniz və kontinental şelf rejiminə qarşı yönəlmiş cinayətlər (dəniz gəmiçiliyinin təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizdə kömək göstərməmək, kontinental şelf üzərində yerləşən stasionar platformaların təhlükəsizliyi əleyhinə yönəlmiş qeyri-qanuni aktlar, dənizin zərərli maddələrlə çirkləndirilməsi və s. )

5. Hava nəqliyyatının təhlükəsizliyinə qarşı yönəlmiş cinayətlər və s.[66]

Qeyd edək ki, bu beynəlxalq cinayətlərdən biz yalnız sülh və insanlıq əleyhinə cinayətlərlə bağlı məqamlara toxunacağıq.

Daha sonra 1994-cü ildə BMT Beynəlxalq hüquq komissiyası tərəfindən “Sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayətlər Məcəlləsi” qəbul olundu. Sülh və insanlıq əleyhinə cinayətlər üzrə beynəlxalq yurisdiksiya 1993-cü ildə Yuqoslaviya və 1994-cü ildə Ruanda ad hoc beynəlxalq cinayət tribunallarında həyata keçirildi.

Nəhayət, 1998-ci ilin iyul ayında Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (Roma Statutu) qəbul olundu və bu proses hal hazıra qədər davam etməklə, beynəlxalq cinayətlər, o cümlədən sülh və insanlıq əleyhinə cinayətlər məsələsi, habelə

---

[66] Международное публичное право. Учебник, 2-е изд. , перераб. и доп: Ред К. А. Бекяшева, М. : ТК ВЕЛБИ, Проспект, 2003

onların təsnifatı, yurisdiksiya şərtləri ilə bağlı yekun razılaşmalar əldə edildi.

XX əsr ərzində sülh və insanlıq əleyhinə cinayətlərlə bağlı bir sıra mühüm beynəlxalq müqavilələr də imzalanmışdır ki, onlar da əsas etibarilə qeyd olunan cinayətlərin mahiyyəti və onlara görə mühakimə icraatı üzrə milli və beynəlxalq hüquqi əməkdaşlığı şərtləndirir. Bunlardan: Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında 1948-ci il Konvensiyası; Müharibə qurbanlarının müdafiəsinə dair 1949-cu il Cenevrə Konvensiyaları; Aparteid cinayəti ilə mübarizə və onun cəzalandırılması haqqında 1973-cü il Konvensiyası; İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə 1984-cü il Konvensiyası; Nürnberq, Tokio, Yuqoslaviya və Ruanda tribunallarının Hokmləri və Nizamnamələri; Beynəlxalq Cinayət Məhkəməsinin Statutu; Beynəlxalq Cinayət Polisi Təşkilatının

(İnterpol) Nizamnaməsi və s. müqavilə, pakt və konvensiyaları qeyd etmək olar.

Beləliklə, müasir beynəlxalq hüququn inkişaf meyillərini nəzərə alaraq, biz beynəlxalq cinayətə, sülh və insanlıq əleynə cinayətlərə ümumi şəkildə şərti olaraq aşağıdakı anlayışı verə bilərik: Beynəlxalq toplumun qanuni maraq və mənafeləri, insan hüquq və azadlıqları, habelə sülh və təhlükəsizlik əleyhinə yönələn transmilli ictimai təhlükəli xarakterə malik olan və beynəlxalq cinayət hüquqi yuridiksiyanın şamil olnduğu əməllər beynəlxalq cinayətlər hesab edilir. Sülh və insanlıq əleyhinə cinayətlər isə beynəlxalq cinayətlərin əsas növü olub, dövlətlər arasında sülhə və əmin-amanlığa, ümumbəşəri dəyərlərə, insana və insanlığa qarşı yönələn birbaşa qəsdlə xarakterizə olunan transmilli cinayətlərdir.

Beynəlxalq hüquqda sülh və insanlıq əleyhinə cinayətlərin müvafiq əlamətlər üzrə

təsnifləşdirilməsi onların tərkib elementləri baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə qeyd edək ki, ədəbiyyatlarda "beynəlxalq cinayət" və "beynəlxalq xarakterli cinayət" kateqoriyaları fərqləndirilir. Əslində bu cür bölgü bir qədər formal mahiyyət kəsb edir. Sülh və insanlıq əleyhinə cinayətlər kontekstində isə biz müstəna dərəcədə "beynəlxalq cinayət" və ya "transmilli cinayət" konsepsiyasına üstünlük verməliyik.

Beynəlxalq xarakterli cinayətlər ilə sülh və insanlıq əleyhinə cinayətlər arasında fərqin vacibliyini qeyd edən hüquq üzrə fəlsəfə doktoru R.K.Məmmədov transmilli cinayətlər terminə aydınlıq gətirərək yazır ki, bu cür əməllərin sırasına terrorizm, adamları girov götürmə[67] və s. aid edilir.

---

[67] Məmmədov R. K. Beynəlxalq cinayət hüququ və Azərbaycan Respublikasının cinayət qanunvericiliyi. Bakı. NAT Co MMC, 2012.

Qeyd olunmalıdır ki, beynəlxalq cinayətlərin təsnifatı ilə bağlı müasir beynəlxalq hüquqda son və qəti normalar Roma Statutunda müəyyən olundu. Belə ki, 17 iyul 1998-ci il tarixli Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 5-ci maddəsinə müvafiq olaraq, məhkəmənin yurisdiksiyasına aid olan bu cinayətlər bütövlükdə beynəlxalq ictimaiyyətin maraqlarına toxunan ən ağır cinayətlər hesab olunur və aşağıdakı kimi təsnif edilir:

a) genosid cinayəti;

b) insanlıq əleyhinə cinayətlər;

c) müharibə cinayətləri;

d) təcavüz cinayəti.[68]

Əlbəttə, beynəlxalq cinayətlərin bu təsnifatı müasir beynlxalq hüquq elmi və praktikası tərəfindən də məqbul hesab edilir və fikrimizcə, beynəlxalq hüquqi yursidiksiyanın həyata

---

[68] Rome Statute of the İnternational Criminal Court, http://legal.un.org/icc/statute/99_corr/cstatute.htm

keçirilməsi baxımından bu variantın kifayət qədər səmərəli bölgü olması danılmazdır.

Sülh və insanlıq əleyhinə cinayətlər özü-özündən ən sadə təsnifata ayrılır: 1) Sülh əleyhinə cinayətlər – təcavüz, soyqırımı, müharibə cinayətləri. 2) İnsanlıq əleyhinə cinayətlər – insan alveri, aparteid, deportasiya, işgəncə, köləlik, girov götürülmə, adamöldürmə, əhalini məhv etmə və s.

Təbii ki, birinci kateqoriya daha çox ictimai təhlükəliliyi ilə xarakterizə olunur və burada qəsd obyekti qismində dövlətlərarası münasibətlər, xalqların dinc yanaşı yaşaması, xalqın, millətin bütövlükdə beynəlxalq sistemdə varlığı və taleyi, beynəlxalq əmin amanlıq, təhlükəsizlik və s. kimi daha qlobal mahiyyətli məsələlər tanınır.

İkinci kateqoriya – insanlıq əleyhinə cinayətlər isə daha çox müasir dövrün beynəlxalq hüquq norma və prinsiplərində etiraf olunan cinayətlərdir. Hüquq üzrə fəlsəfə doktoru Ə.Allahverdiyev hesab edir ki, "insanlıq əleyhinə cinayətlərə aid normalar

həm beynəlxalq, həm də milli səviyyədə kifayət qədər təfsir və tətbiq edilməmişdir. Doğrudur, Yuqoslaviya Beynəlxalq Cinayət Tribunalı (YBCT) və Ruanda Beynəlxalq Cinayət Tribunalının (RBCT) təcrübəsi bu baxımdan xüsusi əhəmiyyət kəsb edir, bununla belə, onların presedent hüququ insanlıq əleyhinə cinayətlərin hamısını əhatə etmir. "Qarışıq" və ya "beynəlmiləlləşdirilmiş" tribunalların da bu sahədə töhfəsi hələ ki, nəzərəçarpacaq səviyyədə deyil. Ayrı-ayrı ölkələrin məhkəmələrində nadir hallarda insanlıq əleyhinə cinayətlərlə bağlı işlərə baxılsa da, Azərbaycan Respublikasının məhkəmələri tərəfindən, hələ bu günə qədər Cinayət Məcəlləsinin müvafiq maddələri (105-113-cü maddələr) bir dəfə də olsun tətbiq edilməmişdir".[69]

[69] Allahverdiyev Ə. V..Beynəlxalq hüquqda insanlıq əleyhinə cinayətlər. Dərs vəsaiti. Bakı. "Elm və təhsil" nəşriyyatı, 2017.

Qeyd olunanları nəzərə alaraq, biz sülh əleyhinə cinayətlərin təsnifatına uyğun olaraq, Ermənistan tərəfindən törədilən təcavüz, soyqırımı, müharibə cinayətləri, habelə bəşəriyyətin təhlükəsizliyi üçün təhdid sayılan digər cinayətlərin beynəlxalq hüquqi təhlilini verməyə çalışacağıq.

## 4.2. Sülh və təhlükəsizlik əleyhinə cinayətlər (təcavüz, genosid, terror, müharibə cinayətləri)

Sülh və təhlükəsizlik əleyhinə cinayətlərə bir qayda olaraq təcavüz, soyqırımı, müharibə cinayəti və terror cinayəti aid edilir. Bu səbəbdən də biz bu cinayətlərin əsas elementləri üzərində dayanacaqğıq.

Beynəlxalq sülh və təhlükəsizliyin əleyhinə ən aöır cinaət təcavüz hesab edilir. Ona görə də tarixi aspektlər nəzərə alınmaqla, müasir beynəlxalq münasibətlərdə təcavüzün beynəlxalq hüquqi anlayışının və bu cinayətlə bağlı digər məqamların elmi cəhətdən araşdırılması xüsusilə zəruridir.

İlk növbədə qeyd etmək lazımdır ki, təcavüz beynəlxalq münasibətlər sisteminə əhəmiyyətli təsir imkanlarına mailk olan hüquqi-siyasi anlayışdır. Yəni bu əməl ikili - cinayət-hüquqi və siyasi təbiəti ilə diqqəti cəlb edir. Onun tərkib elementlərinin araşdırılması üçün problemə kompleks yanaşma tələb olunur. Belə ki, ən səmərəli yol tədqiqatların beynəlxalq və milli hüquq, beynəlxalq münasibətlər və tarix elmləri kontekstində aparılmasıdır. Burada əsas missiya isə müasir beynəlxalq hüququn üzərinə düşür. Birincisi ona görə ki, bir çox beynəlxalq hüquqi sənədlərdə artıq bu əməl beynəlxalq cinayət olaraq tanınmışdır. İkincisi, təcavüz beynəlxalq sferada həyata keçirilən, subyektlərini beynəlxalq sistemin aktorları təşkil edən və həmçinin, törədilən hüquq pozuntusuna görə məsuliyyətin birbaşa həmin subyektlərin üzərinə yönəldiyi transmilli, kriminal xarakterli konkret hərəkət və hərəkətsizlikdən ibarət olan cinayət əməlidir.

Təcavüz ən təhlükəli beynəlxalq cinayətlərdən biri və hətta birincisi hesab edilir. [70] Lakin, beynəlxalq hüquq pozuntuları üzrə ümumqəbul olunmuş konseptual bölgüdə təcavüz cinayətinin "beynəlxalq cinayətlər" sırasına aid edilməsinə baxmayaraq, bu əmələ faktiki münasibətdə daha çox "beynəlxalq xarakterli cinayət" kimi "yumşaq" yanaşma tendensiyası müşahidə edilir. Yəni, hal-hazırda təcavüz cinayəti özünün beynəlxalq təhlükəlilik dərəcəsinə görə, məsələn, terror cinayətindən üstün olmasına baxmayaraq, onunla mübarizənin səmərəliliyi ondan geri qalır. Eyni zamanda, beynəlxalq cinayət kimi bu əməlin statusu uzun müddətdir ki, müzakirə predmeti olaraq qalmaqdadır. Bu kriminal əməlin hər hansı dövlətin BMT Nizamnaməsi ilə bir araya sığmayan fəaliyyəti qismində tanınmasına, digər dövlətin və ya xalqın ərazi bütövlüyü, siyasi müstəqilliyi və

---

[70] Бирюков П.Н. Международное право. Учебное пособие, М. Юристь, 2000.

suverenliyinə qarşı hər hansı real gücün tətbiq olunmasını özündə ehtiva etməsinə baxmayaraq, hazırda mövcud olan çoxsaylı təcavüz, birbaşa silahlı hücum və digər sülh və bəşəriyyət əleyhinə cinayət faktları hələ də BMT Təhlükəsizlik Şurası tərəfindən özünün dəqiq müəyyən olunmuş hüquqi qiymətini almamışdır. Hüquq üzrə elmlər doktoru, professor R.F.Məmmədov müasir beynəlxalq münasibətlər praktikasında Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı törədilən təcavüzkar hərəkətləri və müharibə cinayətlərini bunun ən bariz nümunəsi kimi qeyd edir.[71]

Müasir beynəlxalq hüquqda təcavüz probleminə dair mövqelər birmənalı deyildir. Bu, həmçinin bir çox dövlətlər tərəfindən təcavüzün müəyyən

---

[71] Мамедов Р. Самоопределение по-армянски, или о том как армянские сепаратисты из Нагорного Карабаха в очередной раз грубо игнорирует международное право. Мнение (Баку) 1997, № 1, с. 9-12.

olunması ilə bağlı Beynəlxalq Cinayət Məhkəməsinin Hazırlıq Komissiyasında irəli sürülmüş təkliflərdə [196], habelə təcavüz cinayətinin anlayışının müəyyən olunması və Məhkəmənin bu cinayətə görə yurisdiksiyasının həyata keçirilməsi üzrə 11 iyun 2010-cu il tarixdə Roma Statutuna düzəlişlərə dair İcmal Konfransında (Kampala, Uqanda, 31 may-11 iyun 2010) iki həftəlik gərgin müzakirələrdə də özünü bariz şəkildə göstərmişdir.[72]

Təcavüz cinayətin hüquqi mənbələrini beynəlxalq adət və konvensiyalar, beynəlxalq tribunal və beynəlxalq təşkilatların qətnamələri, həmçinin ayrı-ayrı elmi təfəkkür sahiblərinin doktrina və konsepsiyaları təşkil etdiyindən öncə onların tarixi xronoloji ardıcıllıqla və məntiqi-sistematik üsullarla izahına diqqət yetirmək zəruridir.

---

[72] The Crime of Aggression, http://www.iccnow.org

Termin olaraq "təcavüz" latın dilində "aggressio" sözündən əmələ gəlib, müasir dillərdə müvafiq olaraq rus dilində "aqressiya" ingilis dilində "aggression" və s. istifadə olunmaqla hərfi tərcümədə "hücum", "basqın" mənalarını ifadə edir. Terminin hərfi mənasından yuxarıda qeyd etdiyimiz kimi, dövlətlərin meydana gəldiyi zamandan və onlar arasındakı əlaqələrin (biri-birinin ərazisinə hücum etmə və işğal etmə) yarandığı andan bu əməlin beynəlxalq münasibətlər sistemində zorakı mahiyyətli olması bir daha təsdiq olunur. Bu beynəlxalq kriminal əməl adətən, "silahlı təcavüz" kimi təqdim edilir. Nürnberq və Tokio Tribunallarının hökmlərində isə "təcavüzkar müharibə" terminindən istifadə olunur.[73] Bu da onunla əlaqədardır ki, "soyuq müharibə" dövrünün başlanmasına qədər beynəlxalq münasibətlər

---

[73] Нюрнбергский процесс: Сборник материалов. В 8-и томах. Том 1. М., «Юридичекая литература» 1987.

sistemində silahlı münaqişələr və müharibələr prioritet təşkil etmişdir.

Müasir beynəlxalq hüquqi yanaşmalarda isə "təcavüz" termininə münasibətdə dualist mövqe nümayiş etdirilir. Bu mövqeyə görə terminoloji baxımdan "aggression" (təcavüz) "act of aggression" (təcavüz aktı) və "crime of aggression" (təcavüz cinayəti) olmaqla iki formada ifadə olunur.[74] Buradan "təcavüz aktı" ifadəsinin bir dövlət tərəfindən digərinə qarşı törədilən akt kimi nəzərdən keçirildiyi aydın olur. "Təcavüz cinayəti" isə bu aktı kriminallaşdıraraq, belə bir müddəanı əsas götürür ki, dövlət abstrakt varlıq olmaqla özü-özlüyündə təcavüz aktı törədə bilməz. Belə mövqe bu əmələ görə fərdi cinayət məsuliyyətinin meydana çıxmasını şərtləndirir.

"Müharibə və sülh terminlərdə və təriflərdə" lüğətində təcavüzə aşağıdakı kimi anlayış verilir:

[74] Evans M. International Law. Oxford: Oxford University Press. 2003.

“Təcavüz beynəlxalq hüquqi anlamda bir dövlətin (dövlətlər qrupunun) digər dövlətə (dövlətlər qrupuna) qarşı onun işğalı, əsarət altına alınması və ya onun suverenliyinin, ərazi bütövlüyünün, siyasi və iqtisadi müstəqilliyinin pozulması yolu ilə öz şərtlərinin qəbul olunmasına məcbur etdirmək üçün qeyri-qanuni silahlı qüvvə tətbiq edilməsilə xarakterizə olunur”.[75] Bu tərifdən çıxan nəticəyə görə, təcavüz cinayəti konkret formalarda – işğal, əsarət altına alma və konkret üsullarla - suverenliyi, ərazi bütövlüyünü, siyasi və iqtisadi müstəqilliyi pozmaqla silahlı gücün tətbiq edilməsində ifadə olunur. Tərif həmçinin, qeyd olunan formalarda silahlı güc tətbiqini qeyri-qanuni hesab etməklə, “qanuni silahlı qüvvə tətbiqinə” də bəraət qazandırır. Bu məqama isə biz sonrakı paraqraflarda humanitar müdaxilə, insan hüquqları və demokratiyanın pozulmasına qarşı mübarizə,

---

[75] Словарь "Война и мир в терминах и определениях". http://encycl.yandex.ru

özünümüdafiə və təcavüzün qarşılıqlı münasibətlərini nəzərdən keçirərkən aydınlıq gətirəcəyik.

Təcavüz beynəlxalq təhlükəli cinayət əməli olmaqla, ölkələr arasındakı dinc əlaqələrə və sülhün möhkəmləndirilməsinə mənfi təsir edir. Dövlətlər tərəfindən bütün tarixi dövrlərdə etiraf olunan bu fikirlər özünün rəsmi ifadəsini təcavüzü beynəlxalq cinayət kimi xarakterizə edən və tanıyan bir sıra sənədlərdə tapmışdır. Bu sıradan ilk olaraq 27 avqust 1928-ci ildə Parisdə imzalanan Briand-Kelloq Paktı çıxış edir. Bu müqavilədə bəyan olunurdu: "Elə bir zaman gəlib yetişib ki, müharibədən açıq imtina artıq milli siyasətin aləti kimi nəzərdən keçirilməlidir... İnanırıq ki, dövlətlər biri-biri ilə qarşılıqlı əlaqələrində yalnız dinc vasitələrin axtarışında olmalıdır... razılığa gələn Ali Tərəflər öz təmsil etdikləri xalqların adından təntənəli surətdə bəyan edirlər ki, onlar beynəlxalq münaqişələrin həlli zamanı müharibəyə rəvac

verənləri mühakimə edir və bir alət kimi milli siyasətdə müharibədən imtina edirlər”.[76]Göründüyü kimi, bu Paktda təcavüz cinayətinin birbaşa adı çəkilməsə də, müharibənin başlanma səbəbi olan və konfliktlərin əsasını təşkil edən təcavüz aktlarına görə məsuliyyətin müəyyən olunması beynəlxalq sistemdə öz ilk rəsmi hüquqi ifadəsini məhz bu sənəddə tapmışdır.

Qeyd edək ki, müharibədən imtinanın beynəlxalq sənədlərdə və milli qanunlarda rəsmiləşməsi özü-özlüyündə beynəlxalq münasibətlərdə təcavüz cinayətinin istisna edilməsinə səbəb ola bilər. Bunun dövlətdaxili hüquqa implementasiyası və bəzi ölkələrin konstitusiyalarında öz rəsmi ifadəsini tapması beynəlxalq hüququn uğuru kimi qiymətləndirilməlidir. Bəzi dövlətlərin ikinci dünya

---

[76] Международное уголовное право. Под общей редакцией академика В.Н.Кудрявцева. Москва «Наука» 1999.

müharibəsindən sonra qəbul edilmiş konstitusiyalarında müharibədən “sözsüz imtina”nın bəyan olunması dövlət siyasətinin vasitəsi kimi çıxış etməyə başladı. Məsələn, Yaponiyanın 1947-ci il Konstitusiyasının 9-cu maddəsinə görə yapon xalqı özünün milli hüququ kimi müharibədən əbədi olaraq imtina edir, bu məqsədə nail olmaq üçün quru, dəniz, hərbi hava, eləcə də digər müharibə vasitələrinə bərabər qüvvələri gələcəkdə yaratmayacağını bəyan edir, dövlətin müharibə aparmaq hüququ konstitusion qaydada tanınmır.[77] Lakin göstərilən formulun əksəriyyət dövlətlərin konstitusiyalarında təsbit olunmaması təcavüz cinayətinin qarşısının alınmasının səmərəliliyinə mənfi təsir edən amil hesab edilir.

Buna görə də, problemdən çıxış yolu kimi dövlətlərin bir çoxu öz konstitusiyalarında

[77] The Constitution of Japan, https://japan.kantei.go.jp

müharibədən qismən imtinanı nəzərdə tutan müddəaları təsbit etdilər. Rusiya Federasiyasının (RF) Konstitusiyasında müəyyən qeyd-şərtlər çərçivəsində müharibənin aparılmasına bəraət qazandırılır və qeyd olunur ki, RF Prezidentinin təcavüz və təcavüzə bilavasitə təhlükələr zamanı hərbi vəziyyət elan etmək səlahiyyətləri vardır. RF Konstitusiyasının 87-ci maddəsinin II bəndində göstərilir: "Rusiya Federasiyası əleyhinə təcavüz və ya təcavüzə bilavasitə təhlükələr zamanı Rusiya Federasiyasının Prezidenti bütövlükdə Rusiya ərazisində və onun ayrı-ayrı yerlərində bu barədə Federasiya Şurası və ya Dövlət Dumasına təcili məlumat verməklə hərbi vəziyyət elan edir".[78] Fikrimizcə, bu müddəalar təcavüzə məruz qalan tərəf kimi ölkəmizin özünümüdafiə hüququnu reallaşdırmaq məqsədilə gələcək səmərəliliyi baxımından müsbət dəyərdirilməlidir.

---

[78] Конституция Российской Федерации http://www.constitution.ru

Almaniya Konstitusiyasının 155-a maddəsinin I abzastında isə qeyd olunur ki, “Federasiya ərazisinin silahlı təcavüzə məruz qalması və ya bilavasitə təcavüz təhlükəsi altında olması, yəni müdafiə vəziyyəti anı Federal hökumətin vəsatəti və Bundesratın razılığı ilə Bundestaq tərəfindən verilən səslərin üçdə iki və ya ən azı üzvlərin səs çoxluğu ilə müəyyən edilir”. IV abzastda bildirilir ki, Federasiya ərazisnin silahlı təcavüzə məruz qalması və səlahiyyətli Federal orqanların birinci abzastın birinci cümləsinə uyğun olaraq, bunu müəyyən və elan edə bilməməsi hallarında müəyyənetmə təcavüzün başlandığı andan edilmiş və bəyan olunmuş sayılır. Federal Respublika Prezidenti imkan yaranan kimi bu anı elan edir. V abzastda isə göstərilir ki, müdafiə vəziyyəti təsbitinin elan edilməsindən sonra Federasiya ərazisinə silahlı təcavüz olarsa, Federal Respublika Prezidenti Bundestaqın razılığı ilə müdafiə vəziyyətinə aid olan və beynəlxalq hüquqa

əsaslanmış izahlar verə bilər.[79] Müasir reallıqlar nəzərə alınmaqla qeyd olunan xarici ölkə konstitusiyalarında nəzərdə tutulmuş bu məqamların Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 30-cu bəndinə əlavə edilməsi daha məqsədəuyğun olardı. Xatırladaq ki, həmin bənd Konstitusiyada belə ifadə olunur: "Azərbaycan Respublikasının Prezidenti... Azərbaycan Respublikasının Milli Məclisinin razılığı ilə müharibə elan edir və sülh bağlayır". Müvafiq bəndin Azərbaycan Respublikasının Konstitusiyasında aşağıdakı kimi ifadə edilməsi əhəmiyyətli hesab olunur: "Azərbaycan Respublikasının Prezidenti... Azərbaycan Respublikasının Milli Məclisinin razılığı ilə dövlətə qarşı silahlı təcavüz, habelə digər təhlükələr mövcud olduğu hallarda müdafiə vəziyyətinin yaranmasını nəzərə alaraq, müharibə elan edir və

---

[79] Basic Law for the Federal Republic of Germany, https://www.btg-bestellservice.de

bunların nəticəsi olaraq sülh bağlayır”. Bu dəyişikliyi ona görə zəruri hesab edirik ki, birincisi dövlətimiz faktiki olaraq Ermənistan tərəfindən birbaşa hərbi təcavüzə məruz qalmış və bu reallıq nəzərə alınmaqla təcavüzlə bağlı bu məzmunlu müddəanın Əsas Qanunda əks olunması məsələnin hüquqauyğun həllinə yardımçı ola bilər. Eyni zamanda, BMT Nizamnaməsində təcavüz baş verdiyi halda dövlətin silahlı qüvvə tətbiq etməsi haqqında müddəa öz əksini tapmışdır. İkincisi, Konstitusiyada əks olunan “Prezident... müharibə elan edir” formuluna “dövlətə qarşı təcavüz, habelə digər təhlükələr mövcud olduğu hallarda və müdafiə vəziyyətində” ifadəsinin əlavə olunması ilə sülhsevər bir dövlət kimi Azərbaycan Respublikası milli siyasətdə təcavüzkar müharibədən imtina etməsini rəsmi təsbit etmiş olar və müharibədən yalnız özünümüdafiə məqsədi üçün istifadə edilməsini şərtləndirər. Bu müddəanın xüsusilə DQ konflikti üzrə danışıqların diplomatik üsul və

vasitələrinin tükəndiyi halda və müharibə variantının labüd olacağı təqdirdə praktiki beynəlxalq hüquqi əhəmiyyəti danılmazdır. Üçüncüsü, Konstitusiyanın 151-ci maddəsinə görə Azərbaycan Respublikasında Əsas Qanun beynəlxalq müqavilələrdən üstün hüquqi qüvvəyə malik olduğu üçün, bununla təcavüzə qarşı mübarizədə daha etibarlı hüquqi imkanlar əldə etmək mümkündür.

Bir sıra beynəlxalq sənədlərdə də müharibədən imtinanı və təcavüz hərəkətlərinin qadağan olunmasını nəzərdə tutan konkret müddəalar öz əksini tapmışdır. İlk beynəlxalq hüquqi sənəd qismində Millətlər Cəmiyyətinin müqavilə praktikasında mövcud olan Təcavüzkar müharibələr haqqında 24 sentyabr 1927-ci il tarixli Bəyannaməni göstərə bilərik. Bu Bəyannamə təcavüzkar müharibəni "cinayət xarakterli və beynəlxlaq hüquqla bir araya sığmayan" elan etsə də, "təcavüz" və "təcavüzkar müharibə"

anlayışlarına heç bir aydınlıq gətirməmişdir. 1929-cu ildə Buxarestdə Cinayət Hüququ üzrə Beynəlxalq Assosiasiyanın Konqresində təcavüzə görə cinayət məsuliyyətinə cəlbetmə məsələsini özündə ehtiva edən qətnamə qəbul olunmuş, beynəlxalq hüquqi cəza sisteminin yaradılması, eləcə də bu əmələ görə fərdi cinayət məsuliyyəti zəruri hesab edilmişdir. Qeyd etmək lazımdır ki, hələ 1907-ci il Haaqa Konvensiyasında bu sənədin nəinki müharibə adətlərinin pozulmasına görə qaydalar müəyyən etməsi, həmçinin orada bu pozuntuların hüquqi mühakimənin predmeti olmasının vacibliyi də nəzərdə tutulmuşdur. Lakin, bu Konvensiya müharibə qaydalarını tənzimlədiyi və müharibənin ağır nəticələrini aradan qaldırmaq istiqamətində fəaliyyət göstərdiyi üçün təcavüzə görə məsuliyyət məsələsini ikinci plana keçirmişdir. 1929-cu il Cenevrə Konvensiyasının 29-cu maddəsi daha dəqiqliklə bəyan edir ki, razılığa gələn Ali Tərəflərin hökumətləri mövcud

Konvensiya ilə ziddiyyət təşkil edən, müharibəyə bəraət verən hər hansı hərəkətə qarşı zəruri tədbirlərin görülməsini öz qanunvericiliklərinə daxil edirlər. Müharibə qayda və adətlərinin pozulmasına görə cinayət məsuliyyəti prinsipi Sakit Okean və Uzaq Şərq problemlərinə dair Silahlanmanın Məhdudlaşdırılması üzrə Vaşinqton Konfransının qətnaməsində də öz ifadəsini tapmışdır.[80] Beləliklə, qeyd edə bilərik ki, Haaqa və Cenevrə Konvensiyalarının göstərişlərinə və Vaşinqton Konfransının qətnamələrinə uyğun olaraq müharibə qayda və adətlərinin pozulmasına görə cinayət məsuliyyətinə cəlbetmə məcburi öhdəlik kimi müəyyən edilmişdir. Eyni zamanda, burada xüsusi bir məqamı da qeyd etmək lazımdır ki, təcavüzə görə beynəlxalq hüquqi cəza sisteminin yaradılması və bu əmələ görə fərdi cinayət

---

[80] Societes des Nations. Conference pour la reduction et la Limitation des armaments. Documents de la Conference., vol. 2, p. 679 (doc. Conf.D/C.G.108)

məsuliyyəti məsələsinin ilkin konseptual modeli məhz bu sənədlər vasitəsilə formalaşmışdır.

Zaman-zaman beynəlxalq hüquqda təcavüzün konvension tərifinin qəbul edilməsinə müəyyən cəhdlər edilsə də, bu problem siyasi maraqlardan irəli gələrək daim həll olunmamış qalmışdır. 1933-cü ildə belə bir cəhd Təcavüzün tərifi haqqında Konvensiyanın qəbul olunması ilə edilmiş, lakin sənəd qüvvəyə minməmişdir.[81] Fikrimizcə, sənədin beynəlxalq hüquqi baxımdan baş tutmaması həmin dövrün beynəlxalq münasibətlərinin xüsusiyyətlərindən irəli gələn amil hesab oluna bilər. Digər tərəfdən, həmin dövrdə belə bir Konvensiyanın qəbul edilməsinə sosial təlabat da mövcud olmamışdır.

Təcavüz cinayəti özünün növbəti və geniş əhatəli hüquqi ifadəsini II Dünya müharibəsindən sonra Nürnberq və Tokio Hərbi Tribunallarının

[81] Бирюков П.Н. Международное право. Учебное пособие, М. Юристь, 2000.

Nizamnamə və Hökmlərində tapmışdır. Bu sənədlərdə ilk dəfə olaraq təcavüzün planlaşdırılması, hazırlanması, təşəbbüsü və onun törədilməsinə görə fərdi qaydada cinayət məsuliyyətinə cəlbetmə halları da reallaşmışdır. Lakin, o zaman "təcavüz" anlayışının müəyyənolunma zərurəti yox idi, çünki mühakimə olunan alman və yapon liderləri mütləq mənada "təcavüzkar" hesab olunur və cəzaya məhkum idilər.

Təcavüzlə mübarizə üzrə növbəti və daha mühüm əhəmiyyətli beynəlxalq hüquqi sənəd BMT Nizamnaməsi hesab edilir. 1945-ci ildə qəbul olunmuş BMT Nizamnaməsində ilk növbədə təcavüzlə birbaşa əlaqəsi olan beynəlxalq hüququn ən mühüm prinsipi – güc tətbiq etməmək və güclə hədələməmək prinsipi öz əksini tapmışdır.[82] Eyni zamanda, Nizamnamədə nəzərdə tutulan digər

---

[82] Charter of the United Nations, http://www.un.org

prinsiplər də bu və ya digər şəkildə təcavüz faktoru ilə bilavasitə əlaqədardır. Xüsusi vurğulamaq lazımdır ki, təcavüzün müasir beynəlxalq hüququn mühüm institutu kimi formalaşmasında və ona hüquqi qiymətin verilməsində BMT Nizamnaməsinin xüsusi rolu və çəkisi vardır.

Təcavüzün anlayışına münasibət məsələsində aktivlik və əksər təşəbbüslər universal beynəlxalq təşkilat qismində BMT-yə məxsusdur. Baş Məclisdə, Təhlükəsizlik Şurasında, habelə onun komitə və komissiyalarında təcavüzlə bağlı məsələlər müzakirə predmeti olmaqla, dövlətlər tərəfindən müxtəlif təkliflər irəli sürülmüş və bütün bunlar təcavüzün müasir beynəlxalq hüquq institutu kimi formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Məsələn, Beynəlxalq Hüquq Komissiyasının üçüncü sessiyasında Yunanıstan nümayəndəsi J.Spiropulos "Təcavüzün tərifinin mümkünlüyü və əhəmiyyəti" adlı məruzəsində yeni bir doktrina ilə - "təcavüzün təbii anlayışı" konsepsiyası ilə çıxış

etmişdir.[83]Bu konsepsiyanın mahiyyəti ondan ibarət idi ki, təcavüzün törədilmə üsulları dəyişildiyindən və təcavüzkarın müəyyən edilməsi konkret şəraitdən asılı olduğundan onun hüquqi anlayışı natamam olacaqdır. Məhz buna görə də, belə tərifin mümkünlüyü inkar olunur. Əlbəttə, təcavüz faktı hüquqi mühakimələr əsasında deyil, konkret hərəkətlərlə - dövlətin ilkin zorakılıq aktları törətməsi və bu güc tətbiqini təcavüzkar niyyətlə etməsi faktları ilə təsdiq edilə bilər.

Təcavüzün siyasi-hüquqi təbiəti ilə bağlı dilemma bu cinayətə münasibətdə uzun bir zaman ərzində Qərb və keçmiş sovet rejimi arasında konfrantasiya və ideoloji mübarizədə də özünü göstərmişdir. Ona görə də bu cinayətə münasibətdə BMT strukturlarında baş vermiş bəzi tarixi-siyasi nüanslara diqqətin yetirilməsini zəruri hesab edirik. BMT Baş Məclisinin 1952-ci il sessiyasında

[83] International Law Commission - 3rd session (1951), http://untreaty.un.org

Avropa dövlətləri təcavüzun tərifinə münasibətdə sovet təşəbbüsünün əleyhinə çıxış etmiş və belə hesab edirdilər ki, müasir elmi-texniki inkişaf şəraitində təcavüzlə bağlı bütün təzahürlərin əvvəlcədən nəzərə alınması və təcavüz aktlarının geniş siyahısının müəyyən olunması qeyri-mümkündür. Hətta təcavüzün hüquqi tərifi təhlükəli və zərərli hesab edilir, onun ad hoc əsasda müəyyən olunma prinsipi irəli sürülürdü. Qeyd olunmalıdır ki, təcavüzlə bağlı belə siyasi mövqelər, habelə sistemlərarası konfrantasiyalara söykənən problemlər və onun hüquqi müəyyənliyinə təhlükələr hər zaman olduğu kimi, bu gün də qalmaqdadır.

Təcavüzlə bağlı siyasi və hüquqi mübarizənin nəticəsi olaraq, BMT Baş Məclisinin 31 yanvar 1952-ci il tarixli Qətnaməsinə əsasən təcavüzün tərifi və şərhi layihəsinin hazırlanması məqsədilə Xüsusi Komitə yaradılmış, bir il sonra sovet nümayəndə heyəti bu komitəyə təcavüzün forma və

növləri ilə bağlı layihə təqdim etmişdir. Həmin sənədi təcavüzün forma və növlərinin müəyyən olunması baxımından irəliyə doğru atılmış addım hesab etmək olar. Layihədə təcavüzkar fəaliyyətin konkret formaları göstərilir ki, bunlar vasitəsilə də təcavüzü növlərə ayırmaq mümkündür. Orada təcavüzün birbaşa, dolayı, iqtisadi və ideoloji növləri fərqləndirilmişdir. Qeyd edək ki, təcavüzün tərifinə iqtisadi və ideoloji amilin daxil edilməsi o zaman ABŞ, Böyük Britaniya, Fransa və Niderland nümayəndələrinin etirazına səbəb olmuşdu. Təcavüzun anlayışının növləri haqqında məsələ də ilk dəfə Beynəlxalq Hüquq Komissiyasında və Xüsusi Komitədə müzakirəyə çıxarılmış və mübahisəyə səbəb olmuşdur. Orada təcavüzun tərifinin "ümumi və ya abstrakt", "konkret" və "qarışıq" tərif adlı növləri təklif edilmişdir. [84] Əlamətdar haldır ki, qeyd olunan layihə birincisi,

---

[84] Question of Defining Aggression, http://untreaty.un.org

təcavüzün növləri probleminə aydınlıq gətirmiş, ikincisi isə bu cinayətin müxtəlif aspektlərdən şərhini əsaslandıran müxtəlif anlayışların verilməsi üçün elmi zəmin yaratmışdır.

Təcavüz cinayəti ilə bağlı araşdırmaların tarixi təkamülündə ABŞ, Avstraliya, Böyük Britaniya, İtaliya, Kanada və Yaponiya tərəfindən irəli sürülən "6-lar layihəsi"nin xüsusi rolu olmuşdur. Orada təklif edilmişdir ki, silahlı gücün tətbiqinin təcavüz qismində tanınması üçün əsas prinsip ilkinlik prinsipi deyil, təcavüzkar niyyət (animus aggressionis) meyarı, yəni silahlı güc tətbiq edən dövlətin məqsədi meyarı hesab edilməlidir. Fikrimizcə, bu yanaşma elmi cəhətdən düzgün və əsaslandırılmış hesab edilə bilər. Çünki, yuxarıda da qeyd etdiyimiz kimi, əgər təcavüzdə niyyət ölkənin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi əleyhinə yönəlməyibsə, bütün hallarda silahlı güc hansı miqyasda tətbiq olunsa belə, burada təcavüz cinayətindən söhbət gedə bilməz. Bütün

ziddiyyətlərə və fikir ayrılıqlarına baxmayaraq, son nəticədə Təcavüzün Tərifi layihəsi BMT Baş Məclisinin 14 dekabr 1974-cü il 3314 (XXIX) saylı Qətnaməsi ilə təsdiq edilmişdir. Təcavüzün Tərifi preambula və səkkiz maddədən ibarətdir.[85]

Preambulada göstərilir ki, Baş Məclis təcavüzün tərifini bəyənir və inanır ki, gələcəkdə onun qəbulu potensial təcavüzkara əhəmiyyətli təsir edəcək, təcavüz aktlarının konstatasiyasını və onların dayandırılması üçün tədbirlər görülməsini asanlaşdıracaq, həmçinin təcavüz qurbanlarının hüquq və qanuni maraqlarının mühafizə edilməsinə kömək göstərəcək. Tərifin preambulasında təcavüz aktlarının müəyyən edilməsində BMT Təhlükəsizlik Şurasının (TŞ) diskresion səlahiyyətlərinin möhkəmliyi təsdiq olunur. Orada

---

[85] Действуюущие международное право. В 8-и томах. Составители Ю.М.Колосов и Э.С.Кривчикова. Том 1. М., Издательство Москвовского независимого института международного права. 1999.

qeyd edilir ki, BMT Nizamnaməsinin 39-cu maddəsinə görə, TŞ sülhə hər hansı təhlükənin, sülhün hər hansı pozulma hallarının və ya təcavüz aktlarının mövcudluğunu müəyyən edir və tövsiyələr verir və ya 41 və 42-ci maddələrə müvafiq olaraq beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi və bərpası üçün lazım olan tədbirlərin görülməsi məsələsini həll edir.[86] Qeyd olunmalıdır ki, təcavüzlə mübarizədə BMT Nizamnaməsinin 39-cu maddəsinin xüsusi rolu və əhəmiyyəti danılmazdır. Ümumiyyətlə, həmin maddəyə istinad edilərək bu cinayətin məhz beynəlxalq sülh və təhlükəsizliyə təhdid kimi müəyyən olunması ilə bağlı TŞ-nin xüsusi səlahiyyətlərə malik olması beynəlxalq hüquqda birmənalı hesab edilmir.

---

[86] Устав Организации Объединенных Наций от 26 июня 1945 г. / Международное право в документах / Сост.: Н.Т. Блатова, Г.М. Мелков. М., 2000.

Sənədin 1-ci maddəsində qeyd olunmuşdur ki, "təcavüz bir dövlətin digər dövlətin suverenliyi, ərazi bütövlüyü və ya siyasi müstəqilliyi əleyhinə və ya bu tərifdə müəyyən olunduğu kimi, bu və ya digər şəkildə BMT Nizamnaməsi ilə bir araya sığmayan silahlı güc tətbiq etməsidir". Bu fikirin təcavüzün anlayışı ilə bağlı sonrakı elmi təşəbbüslərə bilavasitə təsiri olmuş və bu müddəa qeyd olunan cinayətin elmi tərifləri üçün əsas kimi çıxış etmişdir.

Qeyd olunan qətnamə beynəlxalq hüquqda praktiki əhəmiyyətinə görə təkrarsızdır. Sənədin hüquqi məzmununa görə, dövlətin silahlı güc tətbiq etməsi yalnız iki halda təcavüz aktı kimi qiymətləndirilir: birincisi əgər o, beynəlxalq silahlı konfliktlər çərçivəsində baş verirsə; ikincisi, BMT Nizamnaməsi ilə bir araya sığmırsa. Burada elmi cəhətdən mühüm paradiqma hesab olunan "beynəlxalq silahlı konflikt" anlayışı ən azı iki

beynəlxalq hüquq subyekti arasında baş verən hərbi qarşıdurma və əməliyyatlar kimi başa düşülür.

Təcavüzün anlayışı konkret bir dövlətin daxili işlərinə aid olan, vətəndaş müharibələrinə və daxili münaqişələrə, yəni BMT Nizamnaməsində ifadə olunduğu kimi, mahiyyət etibarilə dövlətin daxili səlahiyyətinə aid olan işlərə şamil edilmir. Ona görə də, əgər bu və ya digər dövlətdə ayrıca əhali qrupları arasında baş verən daxili konfliktlər nəticəsində hərbi əməliyyatlar gedirsə, bu zaman döyüşən tərəflərdən heç biri təcavüzkar elan edilə bilməz. Çünki, təcavüz cinayətində əsas amil daha çox silahlı hücumun kim tərəfindən deyil, həmin hücümun məhz hansı niyyətlə edilməsidir. Tərifə əsasən, təcavüzkar və təcavüz qurbanı qismində suveren dövlətlər tanınır. 1-ci maddəyə izahlı qeyddə göstərilir ki, bu tərifdə "dövlət" termini birincisi, tanınma haqqında məsələnin qabaqcadan həll edilməsindən və ya BMT üzvü olub-olmamasından asılı olmayaraq istifadə edilir,

ikincisi isə münasib olan yerdə "dövlətlər qrupu" anlayışı daxil edilir. Bununla əlaqədar D.Donskoyun qeyd etdiyi kimi, "beynəlxalq hüquq subyektliyi əldə edən və öz sərəncamında olan silahlı qüvvələrə malik beynəlxalq təşkilatların da təcavüz törətməsinin mümkünlüyünü istisna etmək olmaz. Ancaq, son nəticədə istənilən beynəlxalq təşkilat dövlətlərdən ibarətdir və onlar belə aksiyanın icraçıları olacaqlar. ( məsələn NATO yox, NATO dövlətləri)".[87] Göründüyü kimi, bu cinayətin subyekti qismində hətta hər hansı dövlət və ya dövlətlər qrupu olmayan lakin, onların təhriki ilə istənilən təşkilati-hüquqi birliyin (şirkət, dini icma, ictimai qurum və s.) burada vasitə kimi istifadə olunmasından da danışmaq mümkündür.

Beləliklə, bir dövlət tərəfindən digər dövlətə qarşı silahlı gücün istifadə olunması yalnız belə güc

---

[87] Донской Д. Агрессия – вне закона. Об общепризнанном определении агрессии. М.: Изд-во "Межд. отношения", 1976.

tətbiqinin BMT Nizamnaməsi ilə bir araya sığmadığı halda təcavüz aktı kimi qiymətləndirilə bilər. Yəni, bu əməlin Nizamnamədə nəzərdə tutulan məqsəd, prinsip və müddəaların pozulması ilə törədilmiş olması zəruru hesab edilir. Başqa sözlə, təcavüz aktı güc tətbiq etmə hüququnu aradan qaldıran və dolayısı ilə müasir beynəlxalq hüquq çərçivəsində sülhə və beynəlxalq təhlükəsizliyə zərər vuran hərəkəti ifadə edir.[88] Eyni zamanda, təcavüz anlayışının silahlı güc tətbiqi ilə eyniləşdirilməsi yolverilməzdir və bu BMT Nizamnaməsi ilə ziddiyyət təşkil edir. Belə ki, BMT Nizamnaməsi beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün silahlı güc tətbiqinin nəinki mümkünlüyünü, həmçinin zəruriliyini nəzərdə tutur. Eyni zamanda, Nizamnamə silahlı hücum zamanı fərdi və kollektiv

[88] International Crimes, Peace, and Human Rights: The Role of the International Criminal Court. Dinah Shelton ed., Ardsley, NY: Transnational Publishers, 2000.

özünümüdafiə hüququnu tanıyır və bir dövlətin digər dövlətə qarşı güc tətbiqinə təcavüz aktı kimi yalnız silahlı gücün belə tətbiqi BMT Nizamnaməsini birinci olaraq pozduğu halda baxılır. Bununla əlaqədar 1974-cü il tarixli 3314 saylı Qətnamənin 2-ci maddəsində göstərilir ki, Nizamnaməni pozaraq dövlət tərəfindən silahlı gücün ilkin tətbiqi təcavüz aktını təsdiq edən prima facie hesab edilir. Həmin maddədə qeyd olunmuş "digər müvafiq hallar" ifadəsi isə iki mühüm kriteriyanı nəzərdə tutur: qanunsuz silahlı güc tətbiqi və təcavüz aktları arasında həddin müəyyən edilməsi TŞ-yə həvalə olunur; silahlı qüvvələrin tətbiqi məhdud miqyasda və ya təsadüfi hallarda, hətta bu hərəkətlər sülhün pozulması və sülhə təhlükə kimi dəyərləndirilsə də, təcavüz qismində tanınmaya da bilər. Bu, beynəlxalq hüquqda "sərhəd insidenti" anlayışı ilə əhatə olunan silahlı güc tətbiqini özündə ehtiva edir.

Mühüm elmi və praktiki mahiyyət kəsb edən məsələ təcavüzkar niyyət - animus aggressionis meyarı ilə bağlıdır. Belə bir niyyəti təsdiq olunmayan dövlət bütün hallarda, hətta silahlı gücü birinci olaraq tətbiq etmiş olsa belə, təcavüzə görə beynəlxalq hüquqi məsuliyyət daşımayacaq. Təcavüzkar niyyət ilkin olaraq silahlı güc tətbiq edən dövlətin müəyyən olunması üçün həlledici faktor hesab edilməli və məhz bu faktora əsaslanmaqla dövlətin hərəkətinin cinayət xarakteri barədə əsaslı mühakimə irəli sürülməlidir.

1974-cü il tarixli Qətnamənin 3-cü maddəsinə görə təcavüz hərəkətlərinə aid edilmişdir: bir dövlətin silahlı qüvvələrlə başqa dövlətin ərazisinə soxulması və ya hücumu, yaxud bu cür zorla soxulma və ya hücumun nəticəsi olan hər hansı hərbi işğal və ya zor işlətməklə başqa dövlətin ərazisinin və ya onun bir hissəsinin istənilən ilhaqı; dövlətin silahlı qüvvələrlə başqa dövlətin ərazisini bombardman etməsi və ya dövlətin hər hansı bir

silahı başqa dövlətin ərazisinə qarşı tətbiq etməsi; dövlətin limanları və sahillərinin başqa dövlətin silahlı qüvvələri tərəfindən blokadaya alınması; dövlətin silahlı qüvvələrlə başqa dövlətin quru dəniz və hava qüvvələrinə və ya dəniz və hava donanmalarına hücumu; bir dövlətin saziş yolu ilə başqa dövlətin ərazisində yerləşən hərbi qüvvələrini nəzərdə tutulmuş şərtləri pozmaqla tətbiq etməsi və ya saziş müddəti bitdikdən sonra da bu silahlı qüvvələri qəbul edən dövlətin ərazisində saxlamaqda davam etməsi; ərazisini başqa dövlətin sərəncamına vermiş və onun bu ərazidən üçüncü dövlətə qarşı təcavüz aktı törətməyə imkan verən dövlətin hərəkəti; dövlətin silahlı quldur, təxribatçı və terrorçu dəstələri təşkil edib, onları başqa dövlətdə daxili çevriliş etmək üçün və ya təcavüzkarın öz mənafeyinə uyğun olaraq onun siyasətini dəyişdirməklə oraya göndərilməsi.

Eyni zamanda qeyd olunmalıdır ki, sənəddə təsbit edilmiş təcavüz hərəkətlərinin siyahısı hələ

tam deyil və BMT Təhlükəsizlik Şurası Nizamnaməyə əsaslanaraq digər hərəkətləri də təcavüz qismində müəyyən edə bilər.

Bu sənədin məntiqinə əsasən vurğulamaq zəruridir ki, dövlətin ərazisinə soxulma, hücum və bunların nəticəsi olan hərbi işğal, ilhaq, beynəlxalq müqavilə və ya sazişin bitməsi ilə silahlı qüvvələrin dövlət ərazisidən çıxarılmaması, liman və sahillərin blokadası, quru dəniz və hava qüvvələrinə olan basqınlar, bombardman və dövlət əleyhinə istənilən silah tətbiqi birbaşa təcavüz hesab olunur. Dövlətin bilavasitə silahlı dəstələr, təxribat və terror qrupları ilə digər dövlətin ərazisində öz təcavüzkar niyyətini həyata keçirməsi isə dolayı təcavüzdür. Ona görə də təcavüzün – törədilmə formasından asılı olaraq birbaşa və dolayı təcavüz olmaqla iki növünü, məzmunundan asılı olaraq isə iqtisadi, informasiya və ekoloji təcavüz kimi qruplaşdırmağı məqsədəuyğun hesab edirik.

Ümumilikdə 1974-cü il tarixli Qətnamədə təcavüz beynəlxalq hüquqi məsuliyyətə səbəb olan sülh və təhlükəsizlik əleyhinə cinayət kimi dəyərləndirilir və orada “təcavüzkar müharibə beynəlxalq sülh əleyhinə cinayətdir” ifadəsinin birbaşa qeyd olunması təcavüzlə beynəlxalq mübarizədə mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, təcavüzlə bağlı belə dəyərləndirmə onun cəzalanmalı əməl olması istiqamətində sonrakı inkişafı üçün hüquqi təkan olmuşdur.

Təcavüzün konkret olaraq sülh əleyhinə cinayət olması fikri müasir hüquqi nəzəriyyə və təcrübədə geniş şəkildə dəstəklənir. Professor İ.İ.Lukaşukun təbirincə, təcavüz – sülh əleyhinə cinayət olub, dövlət və onun vəzifəli şəxsi tərəfindən törədilən təcavüzün planlaşdırılması, hazırlanması, başlanması və aparılmasında və bu barədə əmrin verilməsində ifadə olunur. Nürnberq Tribunalının Nizamnaməsində yalnız təcavüzkar müharibədən söhbət gedir, ayrıca güc tətbiq olunma aktlarından

danışılmır. Bununla belə, təcavüzün 1974-cü il tərifi müvafiq faktların qiymətləndirilməsi zamanı məhkəmələr tərəfindən nəzərə alınmır. Təcavüzün tərifində dövlətin suverenliyinə, ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı güc tətbiq olunması prinsipial əhəmiyyət kəsb edir. [89] Fikrimizcə müasir beynəlxalq hüquqda məhz faktların qiymətləndirilimləsi üçün bu qətnamənin mühüm faydası danılmazdır. Eyni zamanda nəzərə alınmalıdır ki, bu qətnamə hazırda təcavüzlə bağlı qüvvədə olan yeganə beynəlxalq hüquqi sənəddir və beynəlxalq məhkəmə instansiyalarında bu qətnaməyə xüsusi istinadlar edilir.

Qətnamə təcavüz cinayəti ilə mübarizə vasitələrinin arsenalını tamamlayaraq, beynəlxalq sülh və təhlükəsizliyin möhkəmlənməsinə özünün əhəmiyyətli töhfəsini vermişdir. Sənəddə təcavüzün ümumi anlayışına aydınlıq gətirilmiş, təcavüz

---

[89] Лукашук И.И. Международное право. Особенная часть. М. Издотелство БЕК, 1998.

hərəkətlərinin əsas təsnifat meyarları göstərilmiş, əsas təcavüz aktları sadalanmaqla, bu tərifin güc tətbiqinin hüquqauyğun xarakter daşıdığı məqamlara şamil edilmədiyi vurğulanmışdır.

Elmi və təcrübi mübahisə doğuran maraqlı məqamlardan biri də bu qətnamənin imperativ və deklorativ xarakteri haqqında mülahizələrdir. Birincisi, bu Tərif BMT Baş Məclisinin ayrıca qətnaməsi olaraq qəbul edilmişdir. Bu qurumun qətnamələri onları qəbul edən subyektlər üçün öz iradələrinə hörmət əlaməti olaraq məhz beynəlxalq sülh və təhlükəsizliyə aid olduğu üçün məcburi xarakter daşımalıdır. İkincisi, bu sənəd o zaman BMT-yə daxil olan 138 dövlətin hamısı tərəfindən konsensus əsasında qəbul olunub. Üçüncüsü isə təcavüz birbaşa sülh və təhlükəsizlik əleyhinə cinayət hesab olunduğu üçün onun haqqında Baş Məclisin çıxardığı qətnamə TŞ-nin məşğul olduğu məsələlər dairəsinə aid edilməlidir. Qeyd edək ki, təcavüzün müəyyən olunması üzrə TŞ-nin və Baş

Məclisin səlahiyyətləri ilə bağlı məsələ həm nəzəri, həm də praktiki önəm daşıyır. Bu özünün real təcəssümünü BMT-nin beynəlxalq sülh və təhlükəsizliyin qorunması sahəsində müəyyən etdiyi faktlar haqqında 9 dekabr 1991-ci il tarixli Bəyannaməsində də tapmışdır. Orada göstərilir ki, beynəlxalq sülh və təhlükəsizliyin qorunması ilə əlaqədar funksiyaları icra edərkən TŞ-nın və Baş Məclisin istənilən mübahisə və ya situasiya barəsində ətraflı məlumatı olmalıdır. Bəyannamədə faktların müəyyən edilməsi üzrə missiyaların yaradılması məsələləri də tənzimlənir. Bu cür missiyaların göndərilməsi haqqında qərarın verilməsi TŞ və Baş Məclisin səlahiyyətinə aid edilir. Dövlət aktı kimi (fərdin törətdiyi beynəlxalq cinayət kimi yox) təcavüzün anlayışı barədə beynəlxalq müqavilə olmasa da, 3314 saylı Qətnamə mühüm sənəd hesab edilməlidir. Dördüncüsü, BMT Beynəlxalq Məhkəməsinin 5 fevral 1970-ci il tarixli Barselona Traction işi üzrə

qərarı [90] ilə təcavüz erga omnes öhdəlikləri kateqoriyasına aid edilmişdir. Bu isə o deməkdir ki, təcavüz butun dünya dövlətlərinə aid məsələ olmaqla, ona dair beynəlxalq hüququn norma və prinsiplərinin pozulması bir dövlətin deyil, bütün beynəlxalq birliyin maraq və mənafelərinin təhdid olunmasıdır. Müasir beynəlxalq hüquqa görə erga omnes xarakterli öhdəliklər imperativ normalar hesab edilir.

Beynəlxalq hüquqda soyqırım cinayətinə 1948-ci ildə qəbul olunmuş və 1951-ci ildə qüvvəyə minmiş "Soyqırım cinayətinin qarşısımnın alınması və cəzalandırılması haqqında Konvensiya"da anlayış verilir. Konvensiyanın 2-ci maddəsində qeyd olunur ki, soyqırım cinayəti hər hansı bir milli, etnik, irqi və ya dini qrupun bir qrup kimi tamamilə və ya qismən məhv etmək niyyətilə qrup üzvlərinin öldürülməsi, qrup üzvlərinə ciddi bədən

[90] www.icj-cij.org/docket/index.php?p1=3&p2=3&case=50

xəsarəti və ya əqli pozğunluq yetirilməsi, qrupun fiziki məhvinə yönəlmiş həyat şəraitinin yaradılması qrup icərisində doğumun qarısının alınmasına yönəlmiş tədbirlər, zorla uşaqların bir qrupdan digər qrupa  verilməsidir. Onu da qeyd edək ki, soyqırım cinayətinə görə bu konvensiya ilə ilk dəfə beynəlxalq fərdi cinayət məsuliyyəti təsbit olunmuşdur.

Xocalı soyqırımı ilə bağlı ölkədaxili hüquqi prosedurların, xüsusilə bu faktlar əsasında cinayət məsuliyyəti, habelə istintaq-əməliyyat tədbirlərinin davam etməsi kontekstində maraqlı olduğumuz məsələ hadisələrə beynəlxalq hüquq prizmasından yanaşmaqla cinayət mühakiməsinin reallaşdırılmasına nail olmaqdır. Çünki, faktiki olaraq cinayət baş verdiyi halda cəza labüd deyil. Əlbəttə, buna bəzi beynəlxalq hüquqi sənədlərin qəbul olunması zamanı siyasi iddiaların önə cəkilməsi daha çox mane olur. Xatlırladaq ki, 1998-ci ildə Romada qəbul olunmuş Beynəlxalq Cinayət

Məhkəməsi (BCM)Statutunun 5-ci maddəsində aşağıdakı beynəlxalq cinayətlər sadalanır: soyqırım, insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və təcavüz cinayəti. Lakin, bunlardan təcavüzlə bağlı məsuliyyətə cəlbetmə ümumiyyətlə bu cinayətin tərifinin tam və qəti müəyyən olunmaması səbəbindən uzun müddət dayandırılmışdı, lakin 2010-cu il tarixli Kampalada qəbul olunmuş razılaşmaya əsasən 2017-ci ilin yanvarın 1-dən BCM artıq bu cinayətə görə də yurisdiksiyaya malikdir. Qeyd edək ki, Statutun müddəalarına görə ilk baxışdan Azərbaycan ərazisində törədilən cinayətlərə, o cümlədən soyqırım cinayətinə görə məsuliyyətə cəlbetmə üçün real imkanların olmadığı qənaətinə gəlinə bilər. Çünki, Roma Statutu onun qüvvəyə minməsindən əvvəl törədilmiş cinayətlərə şamil edilmir (retroaktivlik prinsipi). Lakin fikrimizcə burada soyqırım və təcavüz cinayətlərinəmünasibətdə hüquqi baxımdan

vəziyyət bir qədər fərqliolacaq. Daha doğrusu, müasir beynəlxalq cinayət hüququnun normalarına və məhkəmə presedentlərinə əsaslansaq, bu iki cinayətin istisna təşkil etdiyini müəyyən etmək mümkündür.

Belə ki, "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın tətbiqi üzrə Beynəlxalq Məhkəmənin 26 fevral 2007-ci il tarixli qərarında qeyd olunur ki, bu işdə Məhkəmənin səlahiyyəti yalnız Konvensiyanın 9-cu maddəsi ilə məhdudlaşır. Buradan belə nəticəyə gəlmək olar ki, Məhkəmə Konvensiyada beynəlxalq hüquqla nəzərdə tutulmuş öhdəliklərin pozuntuları arasında xüsusilə soyqırım cinayəti ilə bağlı müstəsna qərar çıxarmaq səlahiyyətinə malikdir. Eyni zamanda Konvensiyanın 9-cu maddəsi istənilən dövlətə imkan verir ki, soyqırım cinayətinə görə beynəlxalq instansiyalarda mübahisə tərəflərindən hər hansı

birinin sorğusu əsasında məsuliyyət məsələsi qaldırıla bilər.

Bundan əlavə, BMT-nin 26 noyabr 1968-ci ildə qəbul etdiyi və 11 noyabr 1970-ci ildə qüvvəyə minmiş "Hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərə münasibətdə cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin tətbiq edilməməsi haqqında" Konvensiyasının (31.05.1996-cı ildə ratifikasiya olunub) 1 (b) maddəsinə görə soyqırım cinayətinə, hətta o dövlətlərin daxili hüququna əsasən cinayət tərkibi yaratmasa belə, onun törədilməsi tarixindən asılı olmayaraq məsuliyyətə cəlbetmə müddəti tətbiq edilə bilməz. Digər tərəfdən, bununla bağlı beynəlxalq hüquqda artıq presedent də mövcuddur. Bir qədər sonra üzərində daha geniş dayanacağımız Kamboca Fövqəladə Məhkəmə Palataları (2003) tərəfindən 1975-1979-cu illərdə qırmızı kxmerlərin hakimiyyəti dönəmində törədilmiş soyqırım cinayətinə görə

mühakiməni həyata keçirdi və bu zaman məsuliyyətə cəlbetmə müddəti tətbiq edilmədi.

Müharibə cinayətləri müasir beynəlxalq cinayət hüquq elmində və praktikasında önəmli sayılan elmi paradiqmalardan biri hesab olunur.

Müharibə cinayəti teriminin yaranma tarixi ilə bağlı professor A.Kibalnik qeyd edir ki, “müharibə cinayətləri” anlayışı suveren dövlətlər arasında müharibəyə tətbiq edilən ənənəvi beynəlxalq hüququn məcmu şəkildə məcəlləşdirildiyi vaxtlarda, 19-cu əsrin sonları və 20-ci əsrin əvvəllərində meydana gəlməyə başlamışdır.[91]

Müharibə cinayəti döyüş aparılmasının metod-larından asılı olaraq kiriminallaşdırılan və beynəlxalq sənədlər əsasında hüquqazidd hesab olunan transmilli cinayətdir.

---

[91] Кибальник А.Г. Современное международное уголовное право: пон-я-тие, задачи и принципы // Под науч. ред. доктора юридических наук А.В.Нау-мова, СПб, Юридический центр Пресс, 2003.

Müharibə cinayətlərinə aid sənədləri təhlil etsək, bu sahədə ən optimal bölgünün 1998-ci il Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun[92] 8-ci maddəsində aparıldığını görərik. 8-ci maddənin 1-ci bəndində göstərilir ki, məhkəmə müharibə cinayətlərinə münasibətdə. xüsusən, onlar plan, yaxud siyasət çərçivəsində törədildikdə və ya bu cür cinayətlərin genişmiqyaslı törədilməsi zamanı yurisdiksiyaya malikdir. 8-ci maddənin 2-ci bəndində isə müharibə cinayətlərinin ayrı-ayrı növləri göstərilmişdir və həmin bölgüdə müharibə cinayətləri aşağıdakı kimi təsnifləşdirilmişdir:

1) 12 avqust 1949-cu il Cenevrə konvensiyalarının ciddi pozuntuları, o cümlədən Cenevrə konvensiya-larının müddəalarına uyğun olaraq mühafizə olunan şəxslərə və əmlaka qarşı törədilən bir sıra hüquqazidd hərəkətlər;

---

[92] Rome Statute of the International Criminal Court – UNTC, https://treaties.un.org

2) beynəlxalq hüquq çərçivəsində təsbit edilmiş, beynəlxalq xarakterli silahlı münaqişələrdə tətbiq edilən qanun və adətlərin digər ciddi pozuntuları;

3) qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyalarının dördü üçün də eyni olan 3-cü maddənin kobud şəkildə pozulması. o cümlədən: silahı yerə qoymuş hərbi qulluqçular və xəstələr, yaralanma, həbsdə olma. yaxud hər hansı digər səbəbdən sıradan çıxmış şəxslər də daxil olmaqla. hərbi əməliyyatlarda aktiv iştirak etməyən şəxslərə qarşı törədilən bir sıra hüquqa zidd hərəkətlər;

4) beynəlxalq hüquq çərçivəsində təsbit edilmiş, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrdə tətbiq edilən qanun və adətlərin digər ciddi pozuntuları.

Beynəlxalq humanitar hüququn ciddi pozuntularından, yəni 1-ci növə aid cinayətlərdən danışarkən Quruda döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin

yaxşılaşdırılması haqqında I Cenevrə Konvensiyasının 50-ci, Dənizdə döyüşən silahlı qüvvələrdə yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında II Cenevrə Konvensiyasının 51-ci, Hərbi əsirlərlə rəftar haqqında III Cenevrə Konvensiyasının 130-cu, Müharibə zamanı mülki əhalinin mühafizəsi haqqında IV Cenevrə Konvensiyasının 147-ci, beynəlxalq xarakterli silahlı münaqişələrə dair I Əlavə Protokolun 11 - ci və 85-ci maddələrinin araşdırılması olduqca vacibdir. Bunlar daha çox beynəlxalq humanitar hüququn əsas tərkib hissələrindən biri olan "Cenevrə hüququ"nun pozuntularıdır.

2-ci növ cinayətlərə beynəlxalq humanitar hüququn digər bir tərkib hissəsi olan "Haaqa hüququ"nun pozuntuları aiddir. Bu sahədəki əsas sənəd 1907-ci il 18 oktyabrda qəbul edilmiş IV Haaqa Konvensiyasıdır.

Burada bir məqamı vurğulamadan keçmək olmaz. Belə ki, yuxarıda sadalanan hər 2 növə aid cinayətlər beynəlxalq xarakterli silahlı münaqişələrdə törədilmiş pozuntulardır. Bildiyimiz kimi, 4 Cenevrə Konvensiyası və I Əlavə Protokol beynəlxalq xarakterli silahlı münaqişələr zamanı tətbiq olunur. Sadəcə, istisna olaraq 4 Cenevrə Konvensiyası üçün ümumi olan 3-cü maddə və II Əlavə Protokol qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı tətbiq olunur. Lakin bu, o demək deyil ki, qeyri-beynəlxalq xarakterli silahlı münaqişələr zamanı törədilən cinayətlər universal yurisdiksiya prinsipi tətbiq edilə bilməz. 3-cü maddənin pozuntuları isə 3-cü növ müharibə cinayətlərində təsnifləşdirilmişdir. Yəni bu cinayətlər qeyri-beynəlxalq silahlı münaqişələr zamanı "Cenevrə hüququ"na aid pozuntuları özündə əks etdirir.

Yuxarıda sadalanmış 4-cü növ pozuntular isə qeyri-beynəlxalq silahlı münaqişələr zamanı

"Haaqa hüququ"nun pozuntularını özündə əks etdirir.

Bu təsnifatı əsas götürsək, müharibə cinayətlərini daha sadə olaraq 2 yerə bölmək olar: a) "Cenevrə hüququ"nun pozuntuları olan müharibə cinayətləri; b) "Haaqa hüququ"nun pozuntuları olan müharibə cinayətləri. Bu təsnifata əsasən, müharibə cinayətlərinə aşağıdakı tərifi vermək mümkündür:

Müqavilə hüququ bəzən də adət hüququ ilə qadağan olunmuş, beynəlxalq və qeyri-beynəlxalq xarakterli silahlı münaqişələrin gedişində və onlarla əlaqədar olaraq törədilən və silahlı münaqişələr zamanı tətbiq olunan döyüş aparılmasının müəyyən üsul və metodlarının tətbiqini qadağan edən və ya məhdudlaşdıran "Haaqa hüququ"nun və silahlı münaqişə dövründə fərdin hüquqlarının qorunmasına yönəlmiş "Cenevrə hüququ" - nun pozuntuları olan cinayətlər müharibə cinayətləri adlanır. Əgər beynəlxalq humanitar hüququ da "Haaqa hüququ" və "Cenevrə hüququ" olaraq 2

hissədən ibarət hesab etsək, onda demək olar ki, müharibə cinayətləri dedikdə beynəlxalq humanitar hüququn istənilən pozuntusunu başa düşmək olar.[93]

Bu beynəlxalq sənədlərdən başqa, bir sıra regional qurumlar tərəfindən də silahlı münaqişə zamanı mülki əhalinin öldürülməsi, onlara qarşı bu və digər zorakılıqlar qadağan olunur. Bu xüsusda islam hüququnun norma və prinsiplərini özündə ehtiva edən və müsəlman Şərqinin bütün ölkələrini inteqrasiya edən İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilmiş 1990-cı il tarixli "İslamda insan hüquqları haqqında" Qahirə Bəyannaməsinə görə silahlı gücün tətbiq olunması zamanı və silahlı münaqişə dövründə qocaların, qadınların, uşaqların,

---

[93] Fətəliyev Z. Müharibə cinayətləri üzərində universal yurisdiksiya prinsipi, "Dirçəliş-XXI əsr".-2008.-№126-127.-S.210-216

habelə döyüşçü sayılmayan şəxslərin öldürülməsi qadağan edilir[94]

Eyni zamanda, müharibə cinayətlərinin minimuma endirlməsi məsələləri ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi (ICRC) də məşğul olur. Qeyd olunmaldır ki, bu qurum son illərdə bilavasitə silahlı zonalarda fəaliyyət göstərir və beynəlxalq humanitar hərəkat olaraq əsas missiyası beynəlxalq humanitar hüquqa uyğun olaraq beynəlxalq və daxili silahlı münaqişə qurbanlarının həyat və ləyaqətlərinin qorunması ilə bağlıdır.

Hüquq elmləri doktoru Ə. Əliyev qeyd edir ki, müharibə cinayətlərini bütövlükdə beynəlxalq humanitar hüquq normalarının pozuntusu kimi

---

[94] Cairo Declaration on Human Rights in Islam,Aug. 5, 1990, U.N. GAOR, World Conf. on Hum. Rts., 4th Sess., Agenda Item 5, U.N. Doc. A/CONF.157/PC/62/Add.18 (1993).

qiymətləndirmək daha düzgün olardı.[95] Professorun bu fikri ilə tamamilə razılaşaraq vurğulamaq lazımdır ki, ümumilikdə beynəlxalq humanitar hüquqda, habelə insan hüquqları hüququnda geniş tərkibli hüquqazidd əməllərin silahlı münaqişə zamanı, hətta atəş dönəmlərində belə törədilməsi nəzərə alınmaqla bütün pozuntuları müharibə cinayətlərinə aid etmək olar. Bu mənada Ermənsitanın həm Dağlıq Qarabağda hərbi əməlliyyatların getdiyi vaxtlarda, eyni zamanda 1994-cü il Atəşkəs haqqında Sazişin bağlanmasından bu günə qədər törətdiyi müharibə qanun və adətlərinin pozuntusu, dinc əhaliyə və bəşəriyyətin təhlükəsizliyi əleyhinə yönəlmiş hərbi xarakterli əməllər və s. müharibə cinayəti kimi tövsif olunmalıdır.

Terror müasir beynəlxalq və milli hüquqa görə transmilli cinayət hesab olunur. Ona görə də, bu

---

[95] Əliyev Ə.İ. “Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil”. Bakı-2018.

cinayətə qarşı mübarizə həm beynəlxalq hüququn, həm də milli hüququn narahatlıq mövzusudur. Bir qayda olaraq terrorizmin anlayışı və mahiyyətinə münasibətdə beynəlxalq və milli hüquq eyni mövqedən çıxış edir.

Professor L.V. İnoqamova-Xeqay terrorçuluğu beynəlxalq cinayət kimi xarakterizə edərək yazır ki, beynəlxalq terrorizim mahiyyət etibarilə sülh və bəşəriyyətin təhlükəsizliyinə qəsd edən cinayətlərdən biridir. Beynəlxalq terrorizmin təsir obyektini beynəlxalq sülhün təmin olunması üzrə ictimai münasibətlər, dövlətlərin dinc yanaşı yaşaması, ictimai təhlükəsizlik, insan hüquqları və əsas azadlıqları, habelə cəmiyyətin demokratik əsasları təşkil edir.[96]

Beynəlxalq terrorçuluqla bağlı qlobal miqyasda mükəmməl konvension əsaslı bütöv bir qanunvericilik sisteminin yaradılmasına hələ ötən

---

[96] Иногамова-Хегай Международное уголовное право. СПб.: 2003.

əsrin 30-cu illərindən başlanılmışdır. Həmin konvensiyaların böyük əksəriyyəti dövlətlərin beynəlxalq terrorçuluqla birgə mübarizə aparmasını və fəaliyyətlərini əlaqələndirmələrini nəzərdə tuturdu. 1937-ci il tarixli Cenevrə Konvensiyasından sonra “Terrorçuluğun qarşısının alınması və cəzalandırılması haqqında” Vaşinqton, “Terrorizmin qarşısının alınması haqqında” Avropa Konvensiyasını, 1970-ci il tarixli “Hava nəqliyyatının qanunsuz zəbtinə qarşı mübarizə haqqında”, 1971-ci il tarixli “Mülki aviasiyanın təhlükəsizliyinə qarşı yönəlmiş qanunsuz aktlarla mübarizə haqqında”, 1973-cü il tarixli “Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında”, 1979-cu il tarixli “Girovların götürülməsi ilə mübarizə haqqında”, 1997-ci il tarixli “Bomba terrorizmi ilə mübarizə haqqında” beynəlxalq konvensiyaları və digər beynəlxalq sazişlərin strateji əhəmiyyətini

xüsusi vurğulamaq lazımdır. Bundan əlavə, terrorla bağlı BMT, ATƏT, Avropa Şurası, İKT və MDB çərçivəsində də bir sıra mühüm sənədlər imzalanmış, razılaşmalar əldə olunmuşdur.

Beynəlxalq terrorizmə qarşı mübarizə sahəsində ölkəmiz bir sıra konvensiyalara qoşularaq qanunvericiliyini həmin sənədlərə uyğunlaşdırmışdır. Respublikamız terrorizmlə mübarizə üzrə BMT-nin 11 beynəlxalq-hüquqi, habelə Avropanın 10 sənədinə imza atmışdır. Azərbaycanın da qatıldığı Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında 9 dekabr 1999-cu il tarixli Beynəlxalq Konvensiyada (AR 1 oktyabr 2001-ci il tarixdə qoşulub), Bomba terrorizmi ilə mübarizə haqqında 15 dekabr 1997-ci il tarixli Beynəlxalq Konvensiyada (02.02.2001) Terrorizmin qarşısının alınması haqqında 27 yanvar 1977-ci il tarixli Avropa Konvensiyasında (05.12.2003) və “Terrorizmin qarşısının alınması haqqında Avropa Konvensiyasına dəyişikliklər və

əlavələr edilməsi barədə” 15 may  2003-cü il tarixli Protokolda (22.02.2008) media və terrorizmin qarşılıqlı əlaqəsi məsələsinə də toxunulmuşdur. Eyni zamanda, Cinayət Məcəlləsində terrorçuluğa görə konkret cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

Terrorçuluğa qarşı mübarizə haqqında 18 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanununa görə terrorizm (terrorçuluq) dedikdə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu

cür hərəkətlərin törədiləcəyi ilə hədələmə başa düşülür.[97]

Müasir terrorizmin tarixinin eramızın I əsrindən indiki İsrail ərazisində Roma işğalçılarına qarşı yəhudi dini sektası olan "Zealotos"ların keçirdiyi terror aktlarından başlandığı qeyd olunur. XIX əsrin ikinci yarısından bəri terrorizm ictimai həyatın daimi faktoruna çevrilmişdir. XX əsrdə qlobal şəkildə yayılmış beynəlxalq terrorizmə qarşı mübarizə 1993-cü il Vyana Bəyannaməsində və İnsan hüquqlarının qorunması ilə bağlı Ümumdünya Konfransının qəbul etdiyi Proqramda öz ifadəsini tapmışdır. Bu sənədlərdə beynəlxalq terrorizmin, onun forma və praktiki aşkarolma metodlarının, demokratiya və insan azadlığı, həyat üçün təhlükə törətdikləri göstərilir. Dövlətin əsas məqsədi terrorirzmə qarşı səmərəli mübarizə aparmaq və əhalinin yaşadığı ərazilərdə fövqəladə

97 Terrorçuluğa qarşı mübarizə haqqında 18 iyun 1999-cu il tarixli AR Qanunu, www.e-qanun.az

vəziyyət elan edərək, vətəndaşların pozulmuş hüquqlarının bərpasına çalışmaqdır. Çünki, beynəlxalq terrorizmin əsas məqsədi məhz cəmiyyət, dövlət və bütövlükdə insanlar, onların sülüh və əminamanlığının, onların təhlükəsiz həyatının məhv edilməsidir.

# NƏTİCƏ

Beləliklə, bu kitabda araşdırılan məsələlər üzrə ümumilikdə aşağıdakı nəticələri mümkün hesab edirik.

Birincisi, insan hüquqları sistemində sülh hüququ "üçüncü nəsil" hüquqlardan olmaqla, siyasi və mülki hüquqlar, iqtisadi, sosial və mədəni hüquqlar və "digər nəsil hüquqlar"a məsələn inkişaf hüququna və s. təməl hüquq sayılır. Çünki, sülh hüququ universal hüquqdur. Bu o deməkdir ki, bu hüququn təminatı bütün bəşəriyyətin qeyd olunan prosesə aktiv müdaxiləsi ilə mümkün ola bilər. Bir dövlət təkbaşına bu hüququ reallaşdırsa belə, bu heç bir beynəlxalq əhəmiyyət kəsb etməyəcək və nəticə effektiv olmayacaqdır. Məhz bu səbəbdən də sülh hüququ solidar hüquqlar, yəni həmrəylik hüquqları kateqoriyasına aid edilir. Sülh hüququnun mahiyyətinə, elementlərinə münasibətdə yekun olaraq qeyd edilməlidir ki, sülh hüququ solidar

hüquqların mühüm elementini təşkil etməklə, bu hüququn insan hüquqları sistemində mövqeyi, yeri və rolu tarixən bəşəriyyəti düşündürən fundamental problemlərdən biri sayılır.

İkincisi, sülh hüququ geniş mənada ictimai münasibətlərin və dövlətlərarası münasibətlərin, dar mənada isə fərdi münasibətlərin mühüm elementini təşkil etməklə, beynəlxalq sülhün və təhlükəsizliyin təminatı hər zaman dövlətlərin daxili iddiaları, işğalçılıq meyilləri və təcavüzkar niyyətləri ilə tərs mütənasibdir. Dövlətlərin zaman-zaman göstərdiyi səylər, onların kompromis variantlar axtarışı sonda sülh hüququnun fundamental hüquq kimi beynəlxalq hüquqda da təsbit edilməsi ilə nəticələnmişdir.

Üçüncüsü, sülh hüququ insan hüquqları sistemində yer alan digər hüquqlar və azadlıqlar kimi dövlətdaxili hüququn məhsulu olmaqla, dünyanın hüquq siustemləri, dini norma və prinsipləri, habelə müasir neynəlxalq hüququn

normaları ilə daha da inkişaf etdirilmişdir. Çünki, müasir beynəlxalq hüquqda sülh huququnun təminatına nail olmadan, digər fundamental insan hüquqları, o cümlədən yaşamaq hüququ, azadlıq hüququ, işgəncələrə məruz qalmamaq hüququ, qadın və uşaq hüquqlarının təminatından söhbət belə gedə bilməz. Ona görə də sülh hüququ insan hüquqları sistemində önəmli rola malik olmaqla, açar hüquqlardan hesab edilməldir. Sülh hüququ insan hüquqlarının iyerarxiyasında baza hüquqlardan sayılır.

Dördüncüsü, Azərbaycan milli hüquq ədəbiyyatlarında və müasir beynəlxalq hüquqda bununla əlaqədar terminlərdə müəyyən mənada ziddiyyətlər ortaya çıxmaqdadır. Bu hüquq bir çox hallarda yaşamaq hüququnun tərkib hissəsi kimi və ya şəxsi toxunulmazlıq hüququ kimi, Avropa hüququnda isə azadlıq və təhlükəsizlik hüququ qismində müxtəlif terminlərlə ifadə olunur. Avropa İnsan hüquqları Konvensiyası kontekstində bu

termin isə Azərbaycan dilinə “Azadlıq və təhlükəsizlik hüququ” kimi tərcümə edilir. Lakin bizim hazırki əksər hüquq ədəbiyyatlarında bu maddə “Azadlıq və toxunulmazlıq hüququ” kimi tərcümə edilir. Fikrimizcə, bu cür tərcümə qeyd edilən məslənin mahiyyətini və məzmununu tam əhatə etmir, eyni zamanda daha dar interpretasiyalara və bu hüququn sonrakı inkişafına maneələr şərait yarada bilər. Şəxsi təhlükəsizlik hüququnun fəlsəfi-hüquqi mahiyyəti ondan ibarətdin bu hüquq bir çox beynəlxalq hüquqi sənədlərlə və milli konstitusiyalarla təsbit olunmuş əsas insan hüququdur.

Beşincisi, sülh hüququ ayrıca insanın təhlükəsiz yaşamaq hüququ ilə də əlaqəlidir. Çünki, təhlükəsiz yaşamaq hüququnun real təminatı üçün bilavasitə istənilən təhdid və ya güc tətbiqinin qadağan edilməsindən başqa, müharibələr, silahlı münaqişələr və digər kütləvi zorakılıq aktlarının qarşısını almaq üçün beynəlxalq hüquqla

dövlətlərin üzərinə yüksək vəzifələr qoyulur. Beləliklə, müharibə təhlükəsinin qarşısını almaq və beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərilən bütün səylər yaşamaq hüququnun qorunmasının ən vacib şərti və zəmanəti kimi çıxış edir. İnsanın təhlükəsiz yaşamaq hüququ, onu əhatə edən ictimai və sosial-iqtisadi və mədəni mühitin dinc, sülh, əmin-amanlıq baxımından sağlam olmasından bilavasitə asılıdır və beynəlxalq hüquq bu dəyərləri sülh hüququ adı altında həm fərdlərə, həm də xalqlara şamil edir.

Altıncısı, sülh hüququ və təhlükəsiz yaşamaq hüququ ilə bağlı beynəlxalq təsisatlar və normalarla bağlı belə bir ümumi fikri əsaslandıra bilərik ki, BMT və onun ixtisaslaşmış təşkilatları başqa olmaqla, digər regional qurumların, o cümlədən beynəlxalq məhkəmə instansiyalarının fəaliyyəti bu hüquqların təminatına yönəlmiş və dövlətlər insanın sülh və təhlükəsizlik hüququnun təminatının əsas

vəzifə daşıyıcılarıdır. Dövlətlər şəxsiyyətin təhlükəsiz həyat şəraitinin təmin olunmasnı və sülhün pozulmasına və zorakılığa səbəb olan halları aradan qaldırmaq üçün üçün profilaktik strategiyaya malik olmalıdırlar.

Nəhayət, tədqiqat işinin əsas məqsədi sülh hüququ və təhlükəsiz yaşamaq hüququ arasında müqayisəli hüquqi təhlilin aparılması olduğundan bu problemə dair mühüm nəticələr əldə olunmuşdur. Sülh hüququ ilk növbədə insanın təhlükəsiz yaşamaq hüququ ilə bilavasitə əlaqəlidir. Çünki, təhlükəsiz yaşamaq hüququnun real təminatı üçün bilavasitə istənilən təhdid və ya güc tətbiqinin qadağan edilməsindən başqa, müharibələr, silahlı münaqişələr və digər kütləvi zorakılıq aktlarının qarşısını almaq üçün beynəlxalq hüquqla dövlətlərin üzərinə yüksək vəzifələr qoyulur. Beləliklə, müharibə təhlükəsinin qarşısını almaq və beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün göstərilən bütün səylər

yaşamaq hüququnun qorunmasının ən vacib şərti və zəmanəti kimi çıxış edir. Başqa sözlə, dövlətlərin insanın təməl hüquqlarından biri olan yaşamaq hüququna hörmət etməsi, xalqların sülh şəraitində yaşamaq hüququnu qorumaq vəzifəsini də əhatə edir, çünki kütləvi zorakılıq və müharibənin səbəb olduğu qətllər özbaşına həyat itkisi kimi qəbul edilə bilər. Fərdlərin insan təhlükəsizliyi, o cümlədən qorxu və ehtiyacdan azad olmaq hüququ vardır. Bütün xalqlar və fərdlər özəl və ictimai mühitdə təhlükəsiz və sağlam bir şəraitdə yaşamaq hüququna malikdirlər. İnsanın təhlükəsiz yaşamaq hüququ, onu əhatə edən ictimai və sosial-iqtisadi və mədəni mühitin dinc, sülh, əmin-amanlıq baxımından sağlam olmasından bilavasitə asılıdır və beynəlxalq hüquq bu dəyərləri süh hüququ adı altında həm fərdlərə, həm də xalqlara şamil edir.

Sülh hüququ və təhlükəsiz yaşamaq hüququnun təminatı üzrə ölkəmizin milli hüququnda və dövlətçilik praktikasında kifayət

qədər yetkin milli təcrübə və qanunvericilik normaları var, eyni zamanda, konstitusion təminatlar əsasında hər kəsin təhlükəsiz yaşamaq hüququ praktiki-hüquqi baxımdan təmin olunur. Sülh və təhlükəsizlik hüququnun təminatı üzrə milli təcrübənin formalaşmasında dövlət qurumlarının və Ombudsman təsisatının mühüm rolu təqdirəlayiqdir. Respublikamızda insan hüquqlarının, o cümlədən təhlükəsiz yaşamaq hüququnun müdafiəsinin müxtəlif sahələrində səmərəli fəaliyyəti yüksək qiymətləndirilir, sülh və təhlükəsizlik hüququnun təminatı üzrə bir sıra işlər həyata keçirilir, dövlət qurumları və QHT-lərlə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması və müsbət təcrübə mübadiləsinin aparılması, müvafiq qanunvericiliyin təkmilləşdirilməsi, birgə maarifləndirmə və təbliğat işlərini təşkil edilir. Sülh və təhlükəsizlik hüququnun təminatının daha bir bariz nümunəsini bütün dünyanın "COVİD-19" pandemiyası ilə mübarizə apardığı şəraitdə daha

aydın şəkildə görmək mümkündür. Bu günümüzün aktual problemi kimi koronovirus epidemiyası ilə mübarizədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu siyasəti, müvafiq sərəncamları və görülən tədbirlər nəticəsində ölkəmizdə insanların təhlükəsiz və sağlam yaşamaq hüququ təmin olunmuşdur.

# ƏLAVƏLƏR

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarış

YEDDİNCİ BÖLMƏ

***SÜLH VƏ İNSANLIQ ƏLEYHİNƏ CİNAYƏTLƏR***

16-cı fəsil

## SÜLH VƏ İNSANLIQ ƏLEYHİNƏ CİNAYƏTLƏR

M a d d ə   1 0 0 . **Təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma**

100.1. Təcavüzkar müharibəni planlaşdırma, hazırlama və ya başlama—

səkkiz ildən on iki blade müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

100.2. Təcavüzkar müharibəni aparma—

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 1 . **Təcavüzkar müharibəni başlamağa açıq çağırışlar**

101.1. Təcavüzkar müharibəni başlamağa açıq çağırışlar—

üç ilədək müddətə ~~azadlığın məhdudlaşdırılması və ya eyni müddətə~~ azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

101.2. Eyni əməllər kütləvi informasiya vasitələri ilə və ya vəzifəli şəxs tərəfindən törədildikdə—

üç ilədək müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə  1 0 2 . **Beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə**

Beynəlxalq müdafiədən istifadə edən xarici dövlət nümayəndəsinə və ya beynəlxalq təşkilatın əməkdaşına, habelə həmin şəxslərin xidməti və ya yaşayış sahələrinə, yaxud nəqliyyat vasitələrinə hücum etmə müharibəyə təhrikçilik və ya beynəlxalq münasibətlərin gərginləşməsi məqsədi ilə törədildikdə—

beş ildən on imədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə  1 0 3 . **Soyqırım**

Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli

qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə—

on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 4 . **Soyqırımın törədilməsinə təhrik etmə**

Bu Məcəllənin 103-cü maddəsi ilə nəzərdə tutulmuş hər hansı bir əməlin törədilməsinə bilavasitə və açıq təhrik etmə—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 5 . **Əhalini məhv etmə**

Soyqırım əlamətləri olmadan əhalini bütövlükdə və ya qismən məhv etmə—

on dörd ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu fəslin 105—113-cü maddələrində nəzərdə tutulan istər sülh, istərsə də müharibə zamanı hər hansı mülki əhaliyə qarşı genişmiqyaslı və ya sistematik hücumların tərkib hissəsi olaraq qəsdən törədilmiş əməllər insanlıq əleyhinə cinayətlər hesab edilir.

M a d d ə 1 0 6 . **Köləlik**

106.1. Köləlik, yəni şəxs üzərində mülkiyyət hüququna xas olan səlahiyyətləri tam və ya qismən həyata keçirmə—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

106.2. Eyni əməllər yetkinlik yaşına çatmayana qarşı və ya şəxsi xarici ölkəyə daşımaq məqsədi ilə törədildikdə—

yeddi ildən on iki illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

106.3. Kölə ticarəti, yəni şəxsi köləliyə yönəltmək və ya kölə kimi istifadə etmək, satmaq və ya dəyişdirmək məqsədi ilə saxlama, onun barəsində sərəncam vermə, habelə kölə ticarəti və kölələrin daşınması ilə bağlı hər hansı bir əməl, eləcə də cinsi köləlik və ya köləlik əsasında cinsi azadlığa qəsd edən əməl—

beş ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə  1 0 7 . **Əhalini deportasiya etmə və ya məcburi köçürmə**

Beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş

əsaslar olmadıqda, əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma—

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 8 . **Cinsi zorakılıq**

Şəxslərə qarşı zorlama, fahişəliyə məcbur etmə, məcburi sterilizasiya və ya cinsi zorakılıqla əlaqədar digər hərəkətləri etmə—

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 8 -1. **Məcburi hamiləlik**

Hər hansı əhalinin etnik tərkibini dəyişdirmək məqsədi və ya beynəlxalq hüququn başqa ciddi

pozuntuları ilə müşahidə olunan zorla hamilə edilmiş qadını qanunsuz azadlıqdan məhrum etmə -

on iki ildən iyirmi ilədək azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 0 9 . **Təqib**

Siyasi, irqi, milli, etnik, mədəni, dini, cinsi və ya beynəlxalq hüquq normaları ilə qadağan edilmiş digər əsaslara görə müəyyən edilmiş hər hansı bir qrupu və ya təşkilatı təqib etmə, yəni qrupa və ya təşkilata mənsub olduqlarına görə insanları əsas hüquqlardan kobudcasına məhrum etmə insanlıq əleyhinə digər cinayətlərlə əlaqədar olduqda—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 0 . **İnsanları zorakılıqla yoxa çıxarma**

Dövlətin və ya siyasi təşkilatın göstərişi, dəstəyi və ya razılığı ilə uzun müddət ərzində qanuni müdafiədən kənarlaşdırmaq məqsədilə şəxsi tutma, həbs etmə və ya oğurlama və sonradan şəxsin azadlıqdan məhrum edilməsini danma və ya onun aqibəti və ya yeri barədə məlumat verməkdən imtina etmə—

on ildən iyirmi müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 1 . **İrqi ayrıseçkilik (aparteid)**

111.0. Hər hansı bir irqi qrupu əsarət altında saxlamaq üçün digər irqi qrup tərəfindən üstünlüyü təşkil və təmin etmək məqsədilə:

111.0.1. irqi qrupa və ya qruplara mənsub olan şəxslərin yaşamaq və azadlıq hüquqlarını inkar etmə, yəni irqi qrupa və ya qruplara mənsub olan şəxsləri öldürmə, onların sağlamlığına ağır zərər

vurma və ya əqli qabiliyyətlərinə ciddi zərər vurma, işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza tətbiq etmə, yaxud özbaşınalıqla həbs və qanunsuz olaraq azadlıqdan məhrum etmə;

111.0.2. irqi qrupun və ya qrupların, bütövlükdə və ya qismən, fiziki məhvi ilə nəticələnə biləcək yaşayış şəraiti yaratma;

111.0.3. irqi qrupun və ya qrupların ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında iştirakının qarşısını almaq, habelə qrupa və ya qruplara mənsub olan şəxslərin işləmək, həmkarlar təşkilatlarını yaratmaq, təhsil almaq, ölkədən getmək və ölkəyə qayıtmaq, vətəndaşlıq, hərəkət etmək və yaşayış yerini seçmək, fikir və söz azadlığı, toplaşmaq və birləşmək hüquqları daxil olmaqla əsas insan hüquq və azadlıqlarını inkar etməklə tam inkişafın qarşısını almaq məqsədilə hər hansı qanunverici və digər tədbiri həyata keçirmə;

111.0.4. düşərgə və qettoların yaradılması ilə əhalini irqi qruplara bölmək, irqi qruplar arasında qarışıq nikahları qadağan etmək, irqi qrupa və ya qruplara və ya onların üzvlərinə mənsub olan torpaq sahələrini onların razılığı olmadan almaq məqsədilə, qanunverici tədbirlər daxil olmaqla, hər hansı bir tədbiri həyata keçirmə;

111.0.5. irqi qrupa və ya qruplara mənsub olan şəxslərin əməyini istismar etmə;

111.0.6. aparteidə qarşı çıxan şəxsləri və təşkilatları, əsas hüquq və azadlıqlardan məhrum etmə vasitəsilə təqib etmə—

on iki ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 2 . **Beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə**

Şəxsləri beynəlxalq hüquq normalarına zidd olaraq həbs etmə və ya başqa cür azadlıqdan məhrum etmə—

beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 3 . **İşgəncə**

Tutulmuş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərə fiziki ağrılar və ya psixi iztirablar vermə—

yeddi ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

17-ci fəsil

## MÜHARİBƏ CİNAYƏTLƏRİ

M a d d ə 1 1 4 . **Muzdluluq**

114.1. Muzdlular yığma, onlara təlim keçmə, maliyyələşdirmə və başqa cür maddi təminat vermə, habelə onlardan hərbi münaqişədə və ya hərbi əməliyyatlarda istifadə etmə—

səkkiz ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

114.2. Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya yetkinlik yaşına çatmayan barəsində törədildikdə—

doqquz ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

114.3. Muzdlunun hərbi münaqişədə və ya hərbi əməliyyatlarda iştirakı—

beş ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd**:

1. Bu fəsildə nəzərdə tutulmuş istər beynəlxalq, istərsə də daxili silahlı münaqişə zamanı hərbi əməliyyatların planlaşdırılması, hazırlanması, başlanması və ya aparılması ilə

əlaqədar olaraq törədilmiş əməllər müharibə cinayətləri hesab olunur.

2. Muzdlu dedikdə, hərbi münaqişədə və hərbi əməliyyatlarda iştirak edən dövlətin vətəndaşı olmayan, onun ərazisində daimi yaşamayan, habelə rəsmi vəzifələrin yerinə yetirilməsi üçün göndərilməyən, maddi mükafat əldə etmək məqsədilə fəaliyyət göstərən şəxslər nəzərdə tutulur.

M a d d ə 1 1 5 . **Müharibə qanunlarını və adətlərini pozma**

115.1. Əsirləri, beynəlxalq humanitar hüquqla müdafiə olunan digər şəxsləri əsir götürmüş tərəfin silahlı qüvvələrində xidmət etməyə, habelə düşmən dövlətin vətəndaşlarını öz ölkələrinə qarşı yönəlmiş hərbi əməliyyatlarda iştirak etməyə məcbur etmə—

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

115.2. Bu Məcəllənin 115.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə və ya onların üzərində tibbi, bioloji və başqa tədqiqatlar aparma, o cümlədən daxili orqanları köçürmə üçün çıxarma və ya öz qoşunlarını və ya obyektləri hərbi əməliyyatlardan qorumaq məqsədilə onlardan sipər kimi istifadə etmə, yaxud belə şəxsləri girov kimi saxlama və ya mülki əhalini məcburi işlərə cəlb etmə və ya digər məqsədlər üçün qanuni yerləşdiyi yerlərdən məcburi köçürmə—

beş ildən onılədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

115.3. Bu Məcəllənin 115.1 və 115.2-ci maddələrində nəzərdə tutulmuş əməllər şəxslərin ölümünə və ya sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda—

on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır .

115.4. Bu Məcəllənin 115.1-ci maddəsində göstərilən şəxsləri qəsdən öldürmə—

on dörd ildən iyirmi illədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 6 . **Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma**

116.0. Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, yəni:

116.0.1. mühüm dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etmə;

116.0.2. ətraf mühitə qəsdən geniş, uzun sürən və ciddi ziyan vurma;

116.0.3. sülh məramlı tədbirlərin həyata keçirilməsinə və ya humanitar yardımın göstərilməsinə cəlb olunmuş şəxsi heyətə, o cümlədən Qızıl Xaç və Qızıl Aypara fərqləndirici

emblemləri olan heyətə, tikililərə, qurğulara, nəqliyyat vasitələrinə, tibbi əmlaka hücum etmə;

116.0.4. hərbi əməliyyatların aparılması üsulu kimi mülki əhali arasında yaranmış aclıqdan istifadə etmə;

116.0.5. yetkinlik yaşına çatmayanları silahlı qüvvələrə cəlb etmə;

116.0.6. hərbi zərurətdən irəli gəlməyən geniş miqyaslı dağıntılar törətmə;

116.0.7. müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və silahsızlaşdırılmış zonalara hücum etmə;

*116.0.8. hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən dini, təhsil, elm, xeyriyyə, tibb obyektlərinə, xəstə və yaralıların yerləşdirildiyi yerlərə hərbi zərurət olmadan hücum etmə*

*116.0.8-1. hərbi zərurət olmadan qəsdən mədəni sərvəti, o cümlədən gücləndirilmiş mühafizə altında olan mədəni sərvəti hücum obyektinə çevirmə, yaxud gücləndirilmiş mühafizə altında*

*olan mədəni sərvətdən və ya ona bilavasitə bitişik ərazilərdən hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə etmə;*

116.0.8-*2. mədəni sərvəti qəsdən böyük həcmdə dağıtma və ya mənimsəmə, yaxud mədəni sərvətə münasibətdə oğurluq, soyğunçuluq, qanunsuz mənimsəmə və ya vandalizm aktları törətmə;*

116.0.8-*3. mədəni sərvəti işğal edilmiş ərazidən qanunsuz çıxarma, yaxud həmin ərazidə olan mədəni sərvətə mülkiyyət hüququnu başqasına vermə və ya ona xitam vermə; mədəni sərvətin bilavasitə qorunması, uçotu və ya saxlanılması tələb edildiyi hallar istisna olmaqla, işğal edilmiş ərazidə hər hansı arxeoloji qazıntı aparma; mədəni sərvətin mədəni, tarixi və ya elmi xarakterini gizlətmək və ya məhv etmək məqsədi ilə onu modifikasiya etmə və ya ondan istifadə növünü dəyişdirmə.*

116.0.9. müvəqqəti barışıq haqqında və ya həlak olanların və yaralıların döyüş meydanından aparılması, dəyişdirilməsi və ya daşınması məqsədilə döyüş əməliyyatlarının dayandırılması barədə sazişi pozma;

116.0.10. mülki əhaliyə və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərə hücum etmə;

116.0.11. hərbi əməliyyat bölgələrində əhaliyə qarşı zorakılıq göstərmə, quldurluq etmə, əmlaklarını məhv etmə, habelə hərbi zərurət bəhanəsi ilə əmlakı qanunsuz olaraq alma;

116.0.12. dağıdılması mülki əhali arasında böyük itkilərə səbəb ola bilən və ya mülki obyektlərə əhəmiyyətli zərər vura bilən qurğulara hücum etmə;

116.0.13. hərbi əməliyyatlarda birbaşa iştirakını təqsirkar üçün aşkar surətdə dayandırmış, həmçinin silahı olmayan və ya silahını yerə qoymaqla təslim olan, yaxud yaralanma və ya

başqa səbəbdən müqavimət göstərə bilməyən şəxsə hücum etmə;

116.0.14. işqal olunmuş ərazilərdə öz mülki əhalisinin bir hissəsini yerləşdirmə;

116.0.15. hərbi əsirlərin və mülki şəxslərin vətənə qaytarılmasını əsassız olaraq gecikdirmə;

116.0.16. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrlə qadağan edilmiş silahları, müharibə vasitələrini və üsullarını silahlı münaqişələrdə tətbiq etmə;

116.0.17. zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə;

116.0.18. bu Məcəllənin 115.1-ci maddəsində göstərilən şəxsləri beynəlxalq hüquq normalarına zidd olaraq həbs etmə və ya başqa cür azadlıqdan məhrum etmə, habelə prosessual hüquqlardan məhrum etmə—

on ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** *Bu Məcəllənin 116.0.8-1-116.0.8-3-cü maddələrində "mədəni sərvət" dedikdə, aşağıdakılar başa düşülür:*

*1. hər bir xalqın mədəni irsi üçün böyük əhəmiyyəti olan daşınar və ya daşınmaz sərvətlər (memarlıq, incəsənət və ya tarixi, dini və ya dünyəvi abidələr; arxeoloji qazıntı yerləri; tarixi və ya bədii əhəmiyyət kəsb edən memarlıq ansamblları; incəsənət əsərləri; bədii, tarixi və ya arxeoloji əhəmiyyəti olan əlyazmalar, kitablar və digər əşyalar; həmçinin elmi kolleksiyalar və ya kitab və arxiv materiallarının, yaxud yuxarıda göstərilən sərvətlərin reproduksiyalarının mühüm kolleksiyaları);*

*2. bu "Qeyd"in 1-ci bəndində göstərilmiş, əsas və həqiqi məqsədi daşınar mədəni sərvətlərin saxlanması və ya sərgilənməsi olan binalar*

*(muzeylər, iri kitabxanalar, arxivlər, habelə həmin bənddə göstərilmiş daşınar mədəni sərvətləri silahlı münaqişə zamanı saxlamaq üçün istifadə olunan sığınacaqlar);*

*3. bu "Qeyd"in 1-ci və 2-ci bəndlərində göstərilmiş mədəni sərvətlərin çox olduğu "mədəni sərvətlərin cəmləşdiyi mərkəz" adlandırılan mərkəzlər.*

M a d d ə 1 1 7 . **Silahlı münaqişə zamanı hərəkətsizlik etmə və ya cinayətkar əmr vermə**

117.1. Rəis və ya vəzifəli şəxs tərəfindən silahlı münaqişə zamanı tabeliyində olanlara bu Məcəllənin 115—116-cı maddələrində nəzərdə tutulan cinayətlərin qarşısının alınması məqsədilə öz səlahiyyətləri dairəsində bütün imkanlardan qəsdən istifadə etməmə—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

117.2. Döyüş bölgələrində heç kəsin sağ buraxılmayacağını bəyan etmə və ya bu barədə tabeliyində olan şəxsə və ya bu Məcəllənin 115—116-cı maddələrində nəzərdə tutulan cinayətlərin edilməsinə yönəldilən bilə-bilə cinayətkar əmr və ya sərəncam vermə—

on iki ildən iyirmiilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır

M a d d ə 1 1 8 . **Hərbi soyğunçuluq**

Döyüş meydanında ölmüş və ya yaralanmış şəxslərin əmlakını talama (hərbi soyğunçuluq) —

üç ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

M a d d ə 1 1 9 . **Müdafiə olunan nişanlardan sui-istifadə**

119.1. Hərbi münaqişə dövründə müdafiə nişanı və ya fərqləndirici nişan qismində Qırmızı Xaç və Qırmızı Aypara emblemlərindən, fərqləndirici siqnallardan, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının prinsipləri ilə bir araya sığmayan məqsədlər üçün Qızıl Xaç və Qızıl Aypara emblemlərindən və onların adlarından, müdafiə nişanı qismində istifadə edilən Qızıl Xaç və Qızıl Aypara emblemləri kimi qəbul edilə biləcək hər hansı oxşar siqnallardan istifadə etmək hüququ olmayan şəxslər tərəfindən istifadə etmə—

iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

119.2. Ağ bayraqdan, Birləşmiş Millətlər Təşkilatının bayraq, nişan və ya geyimlərindən, o cümlədən 1949-cü il tarixli Cenevrə Konvensiyaları ilə müdafiə olunan fərqləndirici nişanlardan sui-istifadə etmə, bu əməllər zərərçəkmiş şəxsin ölümünə və ya onun sağlamlığına ağır zərər vurulmasına səbəb olduqda—

beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasınınbaş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı (10 noyabr Bəyanatı)

Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın

rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

*Azərbaycan Respublikasının Prezidenti,*
*Ermənistan Respublikasının baş naziri, Rusiya*
*Federasiyasının Prezidenti*

## İstifadə olunmuş ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, www.e-qanun.az
2. Azərbaycan Prezidenti İlham Əliyev: Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi müstəqil dövlətimizin bütün tarixi ərzində bəlkə də ən vacib, ən əhəmiyyətli və sanballı qələbədir, https://azertag.az
3. Allahverdiyev Ə. Sərsəng su anbarına ermənilərin qanunsuz müdaxiləsi: Müharibə cinayətləri və beynəlxalq ekoloji təhlükəsizlik problemi, http://1905.az
4. Allahverdiyev S. S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Dərslik. «Digesta» nəşriyyatı. Bakı, 2006. 348 səh.

5. Qurani-Kərim (V.Məmmədəliyev və Z.Bünyadovun tərcüməsi), Bakı, “Qismət” 2006, 478.
6. Qənirə Paşayeva, Şaiq Aslanov. Qaradağlı Soyqırımı: Şahidlərin dili ilə. Bakı, “Elm və təhsil”, 2013, 276s.
7. Əliyev Ə.İ. “Azərbaycan beynəlxalq cinayətlər hədəfində: hüquqi təhlil”. Bakı: Nurlar NPM, 2018.- 176 s.
8. Əliyev Ə. İ. Beynəlxalq təhlükəsizlik və insan hüquqlarının təminatı məsələləri. Diplomatiya və hüquq jurnalı № 8 (014) noyabr 2007.
9. Davamlı sülh insan hüquqlarının səmərəli təmininə xidmət edir (21.09.2016) http://www.respublica-news.az
10. İstiqlal Bəyannaməsi, https://azerbaijan.az
11. Həqiqət anı: azərbaycanlıların 1918-ci il soyqırımından 100 il ötür, http://www.ikisahil.com

12. Hərbi Prokurorluqda Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar elmi-praktiki konfrans keçirilib, https://azertag.az/
13. Rahim Məmmədov: İnsanlıq əleyhinə cinayətlər, http://1905.az
14. Məcidli S.T. "Azərbaycanlılara qarşı törədilən sülh və insanlıq əleyhinə cinayətlər (1918-2018-ci illər)". Bakı: 2018. 245 s.
15. Məcidli S.T. İnternet hüququ və etikası. Dərs vəsaiti. Bakı. Elm və təhsil nəşriyyatı 2013, 224 s.
16. 80377 saylı cinayət işi erməni vəhşiliklərini əks etdirən faktlarla zəngindir , Azərbaycan qəzeti.- 2009.- 29 oktyabr.- S. 5.
17. NATO"nun dönüşümü. Brussels. NATO-2004. 156 s.
18. Ömərov V. İnsan hüquq və azadlıqlarının müdafiəsi və sülh mədəniyyəti. https://sesqazeti.az/news/kivdf/497413.html

19. Türkiye Cumhuriyeti Anayasası, https://www.tbmm.gov.tr
20. Xocalı soyqırımı: Səbəbləri, nəticələri və beynəlxalq aləmdə tanınması, https://azertag.az/
21. Компасито. Пособие по обучению детей правам человека. Совет Европы, 2008: http://eycb.coe.int/compasito/ru/contents.html
22. Трайнин А.Н. Защита мира и уголовный закон. - М., 1969. С.337
23. American Medical Association, Principles of medical ethics, Art. 1 (1957/2001). http://www.ama-assn.org
24. American Nurses Association. Code of ethics for nurses with interpretive statements, Provision 1 http://www.nursingworld.org
25. Azerbaijan seven years of conflict in Nagorno-Karabagh. Human Rights Watch/Helsinki, New York, 1994. P.344

26. Bassioini M. Cherif. International Crimes: Jus Cogens and Obligatio Erga Omnes // Law & Contemp. Prob, 1996. P.456.
27. Charter of the United Nations, https://www.un.org/en/charter-united-nations/
28. Convention on the Rights of the Child, https://www.ohchr.org
29. Colombia's Constitution of1991 with Amendmentsthrough 2005, https://www.constituteproject.org
30. Human Rights Act 1998, http://www.legislation.gov.uk
31. Declaration on the Right to Peace : resolution / adopted by the General Assembly., https://digitallibrary.un.org/record/855187
32. Donna J. Perry, Christian Guillermet Fernández, David Fernández Puyana. The Right to Life in Peace: An Essential Condition for Realizing the Right to Health,

https://www.hhrjournal.org/2015/06/the-right-to-life-in-peace-an-essential-condition-for-realizing-the-right-to-health/
33. European Convention on Human Rights, https://www.echr.coe.int
34. Japan's Constitution of 1946, https://www.constituteproject.org
35. Peace, Right to, International Protection, https://opil.ouplaw.com
36. Peace and security agenda, https://www.unicef.org
37. Luis Henkin, Gerald L. Numan, Diane F.Orentliçer, David V. Libron. İnsan hüquqları. Bakı, “Adiloğlu”nəşriyyatı, 2008, səh. 499. (1232 s.)
38. Rhona K.M. Smith, Textbook on International Human Rights, second edition, Oxford University Press, 2005, p. 240.

39. Santiago Declaration on the Human Rights ti Peace, International Journal on World Peace Vol. 28, No. 4 (Deceber 2011), pp. 94-114
40. Statement by Alfred-Maurice de Zayas, Independent Expert on the promotion of a democratic and equitable international order at the 72nd session of the General Assembly, https://www.ohchr.org/
41. The right to peace, https://www.ohchr.org
42. The components of the Human right to peace, https://www.grainesdepaix.org/
43. The Santiago Declaration on the Human Right to Peace, http://www.transconflict.com
44. UNESCO Constitution (November 16, 1945). http://portal.unesco.org
45. UNESCO's work on education for peace and non-violence: building peace through education, https://unesdoc.unesco.org/ark:/48223/pf0000160787

46. Universal Declaration of Human Rights, https://www.un.org/en/universal-declaration-human-rights/
47. United Nations Human Rights Council. Report of the Open-Ended Intergovernmental Working Group on a Draft United Nations Declaration on the Right to Peace; held June 30-July 4, 2014, UN Doc. A/HRC/27/63 (July 4, 2014). P.18
48. Universal Declaration of Human Rights, https://www.un.org/en/universal-declaration-human-rights/

***Səyyad Məcidli (Məcidov)***

***Sülh və təhlükəsiz yaşamaq hüququ***

***(elektron tədris vəsaiti)***